***Əli Rza XƏLƏFLİ***

# *ƏBƏDİ HƏYAT ARZUSU*

*(esse-monoqrafiya)*

**Bakı - 2014**

© "Vətən" nəşriyyatı, 2014

Redaktoru və ön sözün müəllifi:
**Nizami CƏFƏROV,**
***filologiya elmləri doktoru, professor,***
***AMEA-nın müxbir üzvü***

Rəyçi: ***Sabir Bəşirov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

**Əli Rza XƏLƏFLİ** (**Əzizli Əlirza Zal oğlu**) "Əbədi həyat arzusu" *(esse-monoqrafiya)*, "Vətən" nəşriyyatı, 2014. 208 səh.

***Şair-publisist, tədqiqatçı Əli Rza Xələflinin "Əbədi həyat arzusu" kitabında görkəmli yazıçı-alim, professor Hüseynbala Mirələmovun "Həyat eşqi" povestinin motivləri əsasında yazdığı esse-monoqrafiya (ədəbi-fəlsəfi düşüncələr silsiləsi) oxuculara təqdim olunur. Əsər bədii şərh üslubunda, şirin bir dillə qələmə alınıb. Həyatın dəyəri, humanizm, ideala sədaqət, hər kəsə yalnız bircə dəfə verilən ömrü mənalı yaşamaq... əsərin aşıladığı əsas keyfiyyətlərdir. Kitabı bütün oxucuların, xüsusilə, gənclərin maraqla qarşılayacaqlarına inanırıq.***

**İSBN:**

**Ə.R.Xələfli**
"Vətən" nəşriyyatı, 2014

*Redaktordan:*

# YAZIÇI CƏSARƏTİ VƏ ƏBƏDİ HƏYAT ARZUSU

**Əli Rza Xələfli çoxtərəfli yaradıcılığı, dinamik ədəbi fəaliyyəti (poeziya, publisistika, nəsr, ədəbi tənqid... və qəzetçilik) ilə 80-cilər ədəbi nəslinin kifayət qədər tanınan və sevilən nümayəndələrindəndir. Onun "Həsrət körpüsü", "Araz ağrısı", "Damcılı", "Bu dünyanın Mehmanısan" poema kitabları geniş oxucu kütləsinin marağına səbəb olub. Bu kitab-əsərlər haqqında çoxsaylı müəlliflər mətbuatda dərc etdirdikləri yazılarla münasibətlərini bildiriblər. Ə.Xələflinin ədəbiyyatşünaslıq fəaliyyəti də diqqəti cəlb edir.**

**Ədəbiyyata gəlişi, yaradıcılığının miqyası, üslubu nə qədər böyük mübahisələr doğursa da, müasir Azərbaycan ədəbiyyatında - nəsrində, dramaturgiyasında, bədii-siyasi publisistikasında kifayət qədər populyar bir yazıçı da var ki, bugünkü əbədi-ictimai prosesi təhlil etməyə, onun ideya-estetik imkanlarını dəyərləndirib bu və ya digər dərəcədə mükəmməl ümumiləşdirmələr aparmağa cəhd edəndə həmin yazıçının adını çəkməmək, sadəcə olaraq, mümkün deyil. Bu, Hüseynbala Mirələmovdur… O Hüseynbala Mirələmov ki, çoxlu sayda romanları, povestləri, hekayələri, dram əsərləri, publisistikası ilə Azərbaycan ədəbiyyatında xüsusilə müstəqillik dövründə (və milli müstəqilliyin ictimai-siyasi, mənəvi-ideloji, əxlaqi tələblərinə uyğun olaraq) çoxlu yeniliklər gətirmiş, demək olar ki, hər bir kiçik və ya böyükhəcmli əsəri ilə (və hansı mövzuya**

**müraciət etməsindən asılı olmayaraq) özünün peşəkar yazıçı obrazını təqdim (və təsdiq) etmişdir. Şair-publisist, ədəbiyyatşünas Ə.R.Xələflinin «Əbədi həyat arzusu» esse-monoqrafiyası görkəmli yazıçının yalnız bir əsərinə - «Həyat eşqi» povestinə həsr olunsa da, müəllif tamamilə haqlı olaraq (və janrın tələblərindən irəli gələrək) təkcə «Həyat eşqi» povestini təhlil etməklə kifayətlənməyib, H.Mirələmovun bütövlükdə yaradıcılığında parlaq şəkildə ifadə olunan həyat eşqindən bəhs edir. Və eyni zamanda bununla da kifayətlənməyib öz təhlillərinin (və ümumiləşdirmələrinin) miqyasını daha da genişləndirib. Ümumən dünya ədəbiyyatında, ədəbi-fəlsəfi təfəkküründə həyat eşqi (və əbədi həyat!) mövzusuna bir ideya-yaradıcılıq konteksti olaraq müraciət etməklə Azərbaycan yazıçısının (və ədəbiyyatının) həmin mövzuya hansı yeniliklər gətirmək iddiasında olduğunun təsbit etməyə çalışır.**

**Ümumiyyətlə, yazıçının cəmiyyət qarşısında hər hansı dövrdə olursa-olsun tarixi məsuliyyətini Ə.R.Xələfli maraqlı bir müqayisə ilə müəyyənləşdirir: "*Yazıçı ilə həkimin oxşar tərəfləri var. Yazıçı da, ondan imdad diləyən cəmiyyətin gözlərinə baxır. O gözlərinə ki, yazıçıdan başqa heç kim onu görə bilməz. Və bir çox hallarda yazıçı axıracan o gözlərə baxa bilmir, o gözlərdən görünən əzablara dözə bilmir. Və o əzabların qarşısında acizliyini deməzdim, imkansızlığını görəndə intihar etməli olur. Zənnimcə, E.Heminquey də, Kafka da, Yesenin də, Sərdar Əsəd də beləcə məhv olub. Hətta heç bir tərəddüd keçirmədən S.Vurğunu da bu siyahıya əlavə edə bilərəm. Və bir çox başqalarını da. Və buradaca bir məqamı da qeyd etmək olar; bəzən cəmiyyət onun üçün fədakarlıqla çalışan insan-***

*ları - həkimləri - yazıçıları da öz kəndiri ilə boğur, soyuqqanlılıqla alnına güllə vurur, Vətənindən didərgin eləyir, min cür məhrumiyyətlərə düçar edir. Bütün bunları niyə sadaladım. Bəlkə heç bunların H.Mirələmova dəxli yoxdur. Ancaq mən belə düşünmürəm. Bütün bunların H.Mirələmova da dəxli var..."* **(səh.21). Mən də bu fikirdəyəm ki, H.Mirələmovun demək olar ki, bütün əsərlərində, o sıradan «Həyat eşqi» povestində yazıçı məsuliyyətini (və missiyasını) dərindən dərk etmək «xəstə» cəmiyyətin gözlərinə baxa bilmək cəsarəti var. Xüsusilə, «xəstəlik»lərin çoxaldığı, hətta «xəstə»nin «sağlam»dan seçilmədiyi və ya seçilməsi çətin olduğu müasir dövrdə yazıçının özündə (şəxsiyyətində!) belə bir cəsarəti tərbiyə edə bilməsi elə də asan deyil.**

**Ə.R.Xələfli yazır:** *"...Bir millət vəkili olaraq, bir siyasətçi olaraq, bir işgüzar adam olaraq H.Mirələmov şəxsiyyəti mənim üçün çox adidir. Və etiraf etmək lazımdır ki, yaxşı siyasətçi də, yaxşı iş adamı da və xalqını sevən millət vəkili də hörmətə layiqdir. Amma bir şəxsiyyətdə bu ünvanları birləşdirmək təbii ki, az-az adamlara qismət olur. Və üstəlik bir yazıçı taleyi yaşamaq, yazıçı əzablarını, ağrısını mənəviyyatında duymaq... Bu, artıq elə bir taledir ki, onun gətirdiyi ağrılardan qaçmaq mümkün deyil. Və yazıçı ağrısı, əzabı digər missiyaların ağrısından ikiqat çoxdur. "* **(səh.23-24). Məlum olduğu kimi, H.Mirələmov «Həyat eşqi» povestini Azərbaycanın mütəfəkkir şairi Bəxtiyar Vahabzadəyə həsr etmiş, onun məşhur «Həyat, sən nə şirinsən» şeirindən təsirlənərək yazmışdır, lakin bu mövzuya istər Azərbaycan, istərsə də dünya ədəbiyyatında toxunmayan bir dahini təsəvvür etmək nəinki çə-**

**tindir, demək olar ki, mümkün deyil…**

**Cek Londondakı kimi, H.Mirələmovda da: *"Əsərin qəhrəmanı İnsan ölümlə barışmır. İnsan özünü dərk edəndən bəri çox yaxşı bilir ki, doğulduğu andan ölümə məhkumdur. Bəs nə üçün ölümlə barışmır, bəs nə üçün o, əbədiyyət arzusundadır. Bəs nəyə görə o, əbədi yaşamaq istəyir. Bu, sadəcə bir tamahdırmı? Bu, sadəcə ölümdən sonra nəyin olub-olacağını dərk etməməkdirmi? Bizə elə gəlir ki, o qaranlıq girdabın qorxusu deyil insanı silkələyən. Sadəcə, bütün məhrumiyyətlərə və əzab-əziyyətlərə baxmayaraq, insan doğulub dünyaya gələndən ölənəcən dünyanın gözəlliklərinə ağrı-acıları ilə birlikdə vurulur. Və ən başlıcası, insan hər bir yaş mərhələsində həyatın özünə uyğun gözəlliyini dərk edir. İnsan bu gözəllikdən imtina etmək istəmir."* (səh.39-40). Bu, məsələnin bir tərəfidir… Ancaq təhlilə (və xüsusilə, ümumiləşdirməyə!) çətin gələn başqa bir tərəfi də var: *"Amma əsər boyu qəhrəmanın düşüncələrini izlədikcə aydın olur ki, o, əbədiyaşarılıq arzusu arxasınca gedir. Və bu da sirr deyil ki, o, əslində, insanlardan da bezmiş və ikrah etmişdir. O, insanlar arasında həsrət görüb, o, insanlar arasında bir-birinə nifrət görüb, riyakarlıq, bir-birinin ayağının altını qazmaq, lap belə qanlı müharibə savaşlarına qədər gedib çıxan niyyətlər görüb. Və bütün bunların hamısından artıq bezmişdir. Onun qırx illik ömrü bir neçə əsrə bərabər bir ömrün yaşadığı məzmuna malikdir. Və əslində, o, bütün bunların hamısını dərk etdiyindən və mənəviyyatında ağır yük kimi daşımaqdan artıq bezmiş, usanmışdır. Onu imtinaya gətirən də daşımalı olduğu yükün əndazədən çıxmasıdır.."* (səh.42-43). Ə.R.Xələfli dün-**

**ya mifologiyasının əbədi-ictimai və fəlsəfi fikrinin kifayət qədər zəngin təcrübəsinə əsaslanaraq «ziddiyyətli məqamları» açmağa, Azərbaycan yazıçısının məsələyə münasibətindəki özüməxsusluğu müəyyənləşdirməyə çalışır. Və bu zaman ortaya çoxlu suallar çıxır ki, Ə.R.Xələfli həmin sualları verməkdən çəkinmir, yazıçının harsı paradokslar qarşısında qalmış olduğunu nəzərə çarpdırır: *"Müdrik İnsanın qırx yaşına çatandan sonra çıxdığı yolun, üz tutduğu məkanın adı nədir? Bu, bir xoşbəxtlik axtarışıdırmı, bu, əbədiyaşarılıq arzusudurmu, yoxsa bütün bədbəxtliklərin, bəlaların, həsrətin və nifrətin mənbəyi kimi gördüyü cəmiyyətdən qaçmaqdırmı? Cəmiyyət doğrudanmı əzab-əziyyət mənbəyidir. Axı cəmiyyətin özü bütövlükdə insanların toplumudur. İnsan cəmiyyətdən qopub ayrıldıqdan sonra cəmiyyət üçün darıxmayacaqmı? Axı onun insanlığı elə cəmiyyətlə bağlıdır. Yəni doğrudanmı insan elə öz insanlığından qaçmaq istəyər? "* (səh.42). Suallar!.. suallar!..**

**Yeri gəlmişkən yada salaq ki, bu cür yarıritorik suallar H.Mirələmovun yazıçı üslubu üçün də səciyyəvidir. Və belə də olmalıdır… Hər şeydən əvvəl ona görə ki, həyatın özü həmişə olduğu kimi bu gün də cavablardan müqayisə edilməyəcək qədər çox suallar doğurur ki, hər hansı yazıçı mütəfəkkir həyatın intəhasız suallarına düzgün cavab verməkdən ötrü ilk növbədə həmin sualların məzmununu düzgün müəyyənləşdirməlidir.**

**«Yurda qayıtmaq», «Tanrı dərgahına yüksəlmək», «Cəmiyyətdən (mühitdən) imtina etməyin faciəsi», «Çevrilmə» və s. kimi mövzu ilə bağlı çoxlu sayda mistik, fəlsəfi, ədəbi-estetik anlayışlarla «Həyat eşqi» po-**

**vestini interpretasiya edən «Əbədi həyat arzusu»nun müəllifi belə bir qərara gəlir ki: *“Hüseynbala Mirələmovun “Həyat eşqi” povestinin qəhrəmanı milyon illər ərzində formalaşmış qanunauyğunluqdan imtina edir. Və imtina etdiyi üçün insanlardan qaçmaq yolu tutur. Onun getdiyi yer, ünvan məlumdur. Mənəvi olaraq bu ünvanı biz Tanrı dərgahı adlandırırıq. Amma əslində, o, təbiətə üz tutmuşdur. İnsan cəmiyyəti bu gün də təbiətlə müəyyən mənada qovuşuqdur. Bu qovuşuq əbədi təmas yaradır. Ancaq bu təmas xüsusi şərtlərlə, sərhədlərlə müəyyənləşir. Əslində, insan təbiətdən ibtidai-icma dövründən ayrılmışdır. İnsan şüur kəsb etdikcə özünün həyat tərzini yaratmış, özü müəyyən qanunauyğunluqlar formalaşdırmış və həm də bu qanunauyğunluqlara tabe olmuşdur. Məsələ burasındadır ki, insan nə vaxt o qanunauyğunluqları pozursa, fəlakətlə qarşılaşır; ya təbiət onu cəzalandırır, ya da cəmiyyət tərəfindən qanunla cəzalandırılır.”* (səh.83). Mən əminəm ki, indiyə qədər olduğu kimi, bundan sonra da H.Mirələmovun yaradıcılığı heç zaman diqqət mərkəzindən kənarda qalmayacaq, həm təqdir, həm də tənqid (bu da təbiidir!) olunacaq… Ancaq dostum, gözəl qələm (və ürək!) sahibi Ə.R.Xələflinin bu kitabı görkəmli yazıçının yaradıcılığını şərh edən ən yaxşı əsərlərdən biri kimi, həmişə qalacaq, hətta sonrakı araşdırmalara müəyyən mənada istiqamət verəcəkdir.**

*Nizami CƏFƏROV*

# PORTRETDƏN CİZGİLƏR

***Üç yaşından beş yaşına varanda***
***Yenicə açılan gülə bənzərsən,***
***Beş yaşından on yaşına varanda,***
***Arıdan saçılmış bala bənzərsən.***

***On dördündə sevda enər başına,***
***On beşində yavan girər duşuna,***
***Çünki yetdin iyirmi dörd yaşına,***
***Boz-bulanıq axan selə bənzərsən.***

***Otuzunda kəklik kimi səkərsən,***
***İyidlik eləyib, qanlar tökərsən.***
***Qırxında sən əl haramdan çəkərsən,***
***Sonası ovlanmış gölə bənzərsən.***

***Əllisində əlif qəddin çəkilər,***
***Altmışında ön dişlərin tökülər,***
***Yetmişində qəddin, belin bükülər,***
***Karvanı kəsilmiş yola bənzərsən.***

***Səksənində sinir yenər dizinə,***
***Doxsanında qubar qonar gözünə,***
***Koroğlu der, çünki yetdin yüzünə,***
***Uca dağ başında kola bənzərsən.***

**Koroğludan**

# YAZMAĞIN ƏZABINDA

İndi Hüseynbala Mirələmov haqqında çox yazılır. Onun ən yaxşı xeyirxah əməllərini təqdir edənlər - yəni onun mənəvi xeyirxahları çoxdur. Təəssüf ki, bədxahları da az deyil. Əlbəttə, mənim oxucularım yaxşı bilir; H.Mirələmov haqqında əvvəllər də yazmışam. Ancaq indi yenidən onun barəsində bu günün ovqatı ilə danışmalı oldum.

...Və həm də bir qədər uzaqdan başlayıram. Fikirlər zahirən əlaqəsiz görünə bilər. Əslində, hər sözün - fikrin öz yeri, missiyası var.

Tanrının məkanı varmı, yoxmu? Əgər varsa, onun məkanı göydəmi, yerdəmi? Yoxsa, insanların ürəyindəmi?

Mənə elə gəlir ki, əgər Tanrıya laməkan deyilməsəydi, onu elə bu üçbucağı birləşdirən məqamlarda axtarmaq olardı. Yer, göy və insan qəlbi - üçbucağında.

Tanrı məkanının axtarışında üçbucağın əsas tərəfi kimi insan qəlbini nişanladıq. Kimin qəlbində Allah işığı, Allah zərrəsi varsa, onu görməmək, onun haqqını tanımamaq mümkünsüzdür. El arasında Allahı gözünün önündə (yəni yerdə) görənlər, Allahı başının üstündə (yəni göydə) duyanlar, Allahı öz varlığında (yəni qəlbində) hiss edənlər haqqında deyirlər: O, Allahlı adamdır. Və görünür, hamı - hər kəs Allahlı olmalı olduğu halda, elə həmin o hamı - hər kəs Allahlı ola bilmir. Yəqin ki, biz hamımız - bütün cəmiyyət o Allahlı adamlara borcluyuq. Görünür, Allah özü də belələrinin vəsi ilə yerdə insanlar arasında nizamı qoruyur.

* * *

Tanrının Mirələmova verdikləri onun halal qismətidir. Mənəvi cılızlar bunu onun əlindən ala bilərmi?

...İnsan gülür və ağlayır, insan doğulur və ölür. İnsanın doğuluşu sevinc olsa da, gülüş olsa da, insan doğulanda da ağlayır. Görünür, ağlayışların fərqi var. İnsan sevincdən də ağlaya bilər.

**Atamla mübahisə** vaxtı ağzım qızışır, deyirəm ki, elə Allah da bizim kimidir. Onun da əhvalı var, o da yerdə baş verənlərin hamısını izləyir. Yəqin ki,

onun da ağır kədərdən sarsıntıları olur, yəqin ki, o da bir körpə dünyaya gələndə gülür. Kişi yaşının ucalığı adlanan ömrünün üstündə dayanıb. Az qala iki mənim yaşım qədər dünya görüb. Və o, həmin gördüyü dünyadan bircə parça qoparıb mənim bəsirət gözlərimin qabağına qoydu: *"Bir dəfə peyğəmbər Allahdan soruşdu:*

- *Sən gülürsənmi, sənin heç güldüyün vaxt olurmu, ey mənim Allahım?*

*Allah özünün Allahlıq təmkini ilə asta-asta dilləndi: - Bəli, mən də hərdən gülürəm.*

- *Nə vaxt? - peyğəmbər bir də soruşdu.*

- *O vaxt gülürəm ki, mən kiməsə bir ovuc ruzi verirəm. Amma başqa bir kimsə o ruzini vurub-dağıtmağa çalışır. Bax mən onda gülürəm".*

Bu da səksəni haqlamaqda olan kişinin gülməyin nə olduğunu anladan məntiqi. Gülmək nədirsə, onun insan anlamında, insan düşüncəsində başa düşülən məqamlarının ən üstünü - gülməyin Tanrı dərgahında başa düşülən məntiqi.

* * *

Söz necə yaranır? Kim nə deyir-desin, fərq etməz. Sözün doğuluşunun bir məqamı da qeybət anıdır. İnsanlar kimdənsə narazı olanda, nəyinsə ağrısını çəkəndə, bu narazılıq və ağrı dərdə çevrilib insanın ürəyini öz məngənəsində sıxanda onun keçirdiyi hisslər, duyğular fikir burulğanlarının arasından, fikir dumanlıqlarının içindən sıyrılıb dilə tökülür. Dil söz do-

nunda o hissləri, o duyğuları aləmə car çəkir. Bəlkə də Hüseynbala Mirələmovun böyük işləri daxilən çəkdiyi həmin ağrıların təzahürüdür. Ən yaxşı cavab sözlə ifadə edilməyən əməldir.

* * *

Hər bir insan yaradıcıdır. Hər bir insanın öz çəkisinə uyğun, özünün mənəvi ölçülərinə tabe olan yaradıcılıq manerası var. Kimsə o yaradıcılıq anında sözlərin güllənən, pardaqlanan barını, bəhərini yağış kimi cəmiyyətin üstünə səpir. Kimsə də bu sözləri kağıza köçürür. Elə burdaca yollar haçalanır. "Yazıya pozu yoxdu", - deyirlər. Hər bir deyilən sözün yadigar olduğuna nə qədər inansaq da, yazılanın qaldığına şübhəmiz yoxdur.

Hüseynbala Mirələmov dartışmaların hədəfi olan, tərəfdarlarının və əleyhdarlarının arasında - hücum qarşısında və həmişə müdafiə oluna bilən bir hədəfdir. Sadəcə müdafiə olunur - demək hələ məsələnin mahiyyətini tam açmır. Onun bədxahları çox istəyərdi ki, H.Mirələmov onlara cavab versin. Onlarla danışsın, şübhəsiz, bunu özləri üçün bir qələbə anı kimi yaşayardılar. Ancaq Mirələmov onların arzularını gözündə qoyur. Öz susmağı ilə onları ifşa edir, onların qıcanmış dişləri bir-birinə dəyib şaqqıldayır və qırılıb tökülür.

Qəzəb və qərəz qədər insanın daxili aləmini açan heç nə yoxdur. Qərəzkarın bütün eybəcərliyi onun özünü unutduğu anlarda daha yaxşı görünür.

Ondan istifadə etməyə cəhd göstərənlərin sayı yetərincədir. Heç ətrafında olanların da axıracan səmimiyyətinə varmaq mümkün deyil. Çünki arı şirəyə toplandığı kimi, insan da xeyirə qaçır. Nə qədər populyar və nə qədər üzdə olsa da, onun özünün də görünməyən və bəlkə də tədqiq və təqdir olunmalı tərəfləri var. Amma hər halda, o cəmiyyət üçün o qədər də örtülü adam deyil. Hərçənd ki, örtülü olmaq, görünməyən tərəflərini qorumaq insanın təbiətinə uyğun keyfiyyətdir. Bəlkə də onun özünün də yaxşını pisdən, düzü əyridən, işığı qaranlıqdan ayırmaqda çətinlikləri var. Amma həyat özü ən yaxşı bələdçidir. Çalxalandıqca yağı ayrandan - düzü əyridən, yaxşını pisdən ayıra bilir.

Elə buradaca qeyd etmək yerinə düşər; o heç bir sinfi ayrı-seçkiliyə baxmayaraq, insanlara - əgər belə demək mümkünsə, aşağı təbəqəyə çox yaxın və çox doğmadır. Zənnimcə, insanı axıracan tanımaq üçün bu, əsas şərtdir.

* * *

Biz nəyi bilmirik? - H.Mirələmov düz gözlərimin içinə baxıb sual verdi. Doğrusu, bu sual o qədər sadə və sadə olduğu qədər də dumanlıdır. Mən də elə bu səbəbdən çiyinlərimi çəkirəm. Hərçənd ki, suallara cavab verməkdə özümü o qədər də aciz bilmirəm. Amma hər halda bu üç kəlmə sözün birliyi sual yaradır. Və onun sahibi öz cavabını istəyir.

Mirələmov yerdən bir ovuc qum götürür. Dəniz

qumu. Ayaqlarımızın altında xışıldayan, qışda buz kimi soyuqluq, yayda od kimi isti gətirən bir ovuc qum: “Bizim bilmədiyimiz bu bir ovuc qumun içərisində gizlənmiş nəsə qiymətli olandır. Vacibi bax o bir ovuc qumun içərisində bizə həyatımız qədər dəyərli olan nəyisə görə bilmək, onu bizə gərəksiz olanlardan ayırmaqdır”.

...Sərin bir külək gəlir. Sanki Tanrı Günəşin istisindən canını qurtaran insanlar üçün bu sərin küləyi göndərib ki, boğucu istinin yaratdığı ağrılardan xilas olaq.

- Bax bu havanı görürsənmi, bu, bizim üçün ən böyük sərvətdir. - Mirələmovun bu sözləri də məni düşündürür.

Mən yəqin ki, lap dəqiq deyə bilmərəm, həmin anlarda o, havanın sərvət olduğunu nə üçün dedi. O havanın bizi boğucu istidən xilas etdiyinə görəmi, bürkünü qovduğuna görəmi, sadəcə, bizə xoş əhval gətirdiyinə görəmi dedi, ya bəlkə, tamam başqa şeylər düşünürdü. Əlbəttə, fikir yürütmək olar; ən müxtəlif istiqamətlərdə...

H.Mirələmov həmin sözləri bir yazıçı kimi, bir filosof kimi, sadəcə bu günlərdə nəşr olunan yeni kitabının gətirdiyi xoş ovqatın təsiri altındamı dedi, bunu axtarmaq qəsdində deyiləm. Ancaq onun qəsdindəyəm ki, bu, bir yaşamaq anıdır, nəfəs almağımızın təsdiqidir. Yəni ki, nə qədər ki, biz yaşayırıq, nə qədər ki, düşünürük, bu yaşamaq anını, havayı

hədərə verməməliyik. Bu, Tanrının verdiyi möhlətdir. Möhləti isə Tanrı havayı vermir. Tanrı bu möhləti ona görə verir ki, biz onun bəxş elədiyi dünyanı - bu dünya timsalında ömrümüzü söz ilə bəzəyək, söz ilə yuyaq.

* * *

Yəqin ki, H.Mirələmovun da çətin günləri olub. Yəqin ki, ömrünün hansı anındasa daha hər şeyin bitdiyi, lap elə ömrünün axırı olduğu qənaətinə də gəlib. Mən onu da deyə bilmərəm ki, o, həmin anlarda ümidini tamam itirib, ya yox?! Amma hər halda yəqin ki, o, təəssüflü duyğular, hisslər də keçirib. Hansısa yarımçıq işinin başa çatmadığına, hansısa özünə ən yaxın olan bir arzusunu həyata keçirmək imkanını itirdiyinə olan təəssüflər.

Və beləcə yəqin ki, günlər keçib, havalar durulub, səma aydınlaşıb və o, yenidən mübarizə imkanı qazanıb və yenidən dərk edib ki, hələ dünyanın axırı deyilmiş. Və hələ qarşıda onun həyatını daha mənalı edə bilən mübarizə meydanı var.

İstehsalatdakı uğurları, təltifləri və həyatı boyu keçirdiyi saysız-hesabsız görüşlər, məclislər, yığıncaqlar - mən deməzdim ki, onun gözündə bir çöp qədər də dəyər tutmayıb. Amma bir yazıçı ömrünün qabağında, yaradıcılığın təzahürü olan sözün qabağında bütün bunlar heç nədir. Təbiidir ki, bu fərqin nə olduğunu bilməmiş deyil. Və bəlkə elə bu səbəbdən o, sözə pənah gətirib. Hər sözün bir inci olduğu

qənaətində dayanıb. Sözün işığına getmək, sözün odunu, istisini öz canında duymaq və könül pıçıltılarını həmin o hərarətlə, o istiylə cana gətirmək yolu tutub. Yəqin ki, belə olmasaydı, hələ ilk gəncliyindən "Bir tikə çörək" adı ilə sözə müqəddəslik heykəli yapa bilməzdi.

Mən qətiyyən demək istəməzdim ki, o, taleyin acığına, bədxahlarının hirsinə, hikkəsinə cavab olaraq qələmə sarılıb. Bu, sadəcə onun mənəvi tələbatı kimi seçdiyi bir yoldur. Hər birimiz kimi onun da elə dərdləri və ağrıları var ki, yadına düşəndə qəlbi göyüm-göyüm göynəyir. Onun da hər birimiz kimi kövrəldiyi anlar var. Və bu kövrəlmə anlarında gözlərinin dolduğunu və doyunca ağlamaq istəyini də başa düşmək olar. "Xəcalət", "Güllələnmiş heykəllərin fəryadı" onun ürəyinin göynərtisi deyilsə, bəs nədir? Onun doyunca ağlamaq haqqını kimsə əlindən ala bilərmi? Təbii ki, bu ağlamaqların, bu göz yaşlarının fərqinə vardıqca və bu duyğuların arxasınca yeridikcə biz necə dəhşətli mənzərələrlə qarşılaşırıq. Bu, adicə bir insanın şəxsi sızıltıları, ürək ağrıları deyil. Bu, böyük insanlığın kədəridir, bu, cəmiyyətin faciəsi qarşısında sarsıntılardır. Bu sarsıntıları sözə çevirməklə, sözə gətirməklə, kağıza köçürməklə o, insanlara sadəcə təskinlik vermir. Bütün bunlar həyata çağırışdır, yaşamaq uğrunda mübarizəyə səsləyişdir.

"Dağlarda atılan güllə", "Cəza", "Gəlinlik paltarı", "Babagil əfsanəsi", "Zəfər yolu"... və əlbəttə

ki, çoxlu sayda hekayələr, esselər, məqalələr - bütün bunlar Tanrının açdığı tale yolunun ən işıqlı anlarıdır.

* * *

"Görkəmli adamların həyatı" seriyasından "Heydər Əliyev" kitabını yazmasaydı da H.Mirələmov "Amalın işığında", "Millətin atası", "İşığın izi ilə", "Bir günəş var" əsərləri ilə böyük həqiqətə tapındığını etiraf etmişdi. Bu əsərlərin yazılması sadəcə bir yazıçı marağı ilə bağlı deyildi. O, Heydər Əliyev obrazında, Heydər Əliyev şəxsiyyətinin timsalında millətin üstünə yayılan işığın mənbəyini görürdü. Həqiqəti görənlər və görməyənlər var. Həqiqəti görənlərin böyüklüyü həqiqəti görməyənlərin böyük iddiaları qarşısında sipərdir.

* * *

Yazmağın bəlası... Bəli, yazmağın da bəlası var. Özün əzab çəkirsən, yuxusuz gecələr keçirirsən, daimi enerji daşıyıcısı kimi gərginlik altında olursan. Amma əvəzində qərəzkarlar tərəfindən tənə və tənbeh alırsan. Hətta bəzən bu tənə və tənbehlər o qədər çox olur ki, səmimi rəğbətlər və çoxlu boğazdan yuxarı təriflər o qərəzli tənə və tənbehlərin ağrısını yüngülləşdirməyə qadir olmur. Və dünyanın ən qüdrətli yazıçıları da bu bəlanın ağrısını çəkir, o cümlədən, H.Mirələmov da. Yazmağın əzabında yaşamağın şirinliyi dünyanın maddiyyat adlanan nəyi varsa onun hamısından üstündür. Demək, yazmağın

əzabında yaşamaq həyatın mənasını özündə ehtiva edir. Yazmağın əzabı - doğuluşun əzabları qədər şirindir, cəzbedicidir.

* * *

Axşamların və səhərlərin bir-birini əvəz etməsi... Bu, bir həyat axarıdır. Hamımız bilirik ki, axşamlar günəş batsa da, sabah özünün nurlu simasını bizdən gizlətməyəcək. Uzaq üfüqdən asta-asta yenə qalxacaq. Əgər ömrümüz qırılmasa, əgər tale bizə yenidən yaşamaq imkanı versə, o günəşi yenə görəcəyik. Bu, artıq inamdır, həyatın əbədiliyinə olan inam. H.Mirələmov inamlı yazıçıdır. Yazdıqlarına inanan, öz sözünə iman gətirən yazıçıdır. Hər axşam və hər səhər - bir-birini əvəz edən günlər onun üçün yeni mövzudur, yeni sözdür. "Hüseynbala Mirələmovun əsas yazıçı müvəffəqiyyəti ondan ibarətdir ki, zəmanəmizin hadisələrinə həmin həqiqətin məntiqi ilə baxa bilmiş, ictimai həyat polifoniyasındakı saxta ladları saf ladlardan ayıraraq onları doğuran antienerjinin mənbələrini aşkarlamağa çalışmışdır" (Nizami Cəfərov). Həyat və sənət həmişə vəhdətdədir. Həyat özünü sənətdə görmək istədiyi kimi, sənət də həyatda görmək istədiklərini təlqin edir. Zənnimcə, H.Mirələmovun yaradıcılığı daha çox bu düstura əsaslanır.

* * *

...Mənə elə gəlir ki, həkimlərin işi çox yüngüldür. Xəstəliyi təyin etmək, səbəbini tapmaq və məlum

üsulla onu müalicə etmək cəhdləri. Bu cəhdlər fayda verməyəndə təşrih imkanı da var. Və son anda məsləhətlə, sözlə xəstənin halını yüngülləşdirməyə çalışmalar... Bütün bunlar həkimin ixtiyarında olan imkanlardır. Əzabı xəstə çəkir. Hətta vəziyyət ağırlaşanda həkim axırıncı imkanlarını işlətmək üçün xəstədən, yaxud da onun qohumundan yazılı şəkildə razılıq alır. Yəni ki, vəziyyət başqa cür də ola bilər - o başqa cürün nə olduğunu biz hamımız bilirik.

Yazıçı ilə həkimin oxşar tərəfləri var. Yazıçı da, ondan imdad diləyən cəmiyyətin gözlərinə baxır. O gözlərinə ki, yazıçıdan başqa heç kim onu görə bilməz. Və bir çox hallarda yazıçı axıracan o gözlərə baxa bilmir, o gözlərdən görünən əzablara dözə bilmir. Və o əzabların qarşısında acizliyini deməzdim, imkansızlığını görəndə intihar etməli olur. Zənnimcə, E.Heminquey də, Kafka da, Yesenin də, Sərdar Əsəd də beləcə məhv olub. Hətta heç bir tərəddüd keçirmədən S.Vurğunu da bu siyahıya əlavə edə bilərəm. Və bir çox başqalarını da. Və buradaca bir məqamı da qeyd etmək olar; bəzən cəmiyyət onun üçün fədakarlıqla çalışan insanları - həkimləri - yazıçıları da öz kəndiri ilə boğur, soyuqqanlılıqla alnına güllə vurur, Vətənindən didərgin eləyir, min cür məhrumiyyətlərə düçar edir. Bütün bunları niyə sadaladım. Bəlkə heç bunların H.Mirələmova dəxli yoxdur. Ancaq mən belə düşünmürəm. Bütün bunların H.Mirələmova da dəxli var... H.Mirələmov xoşbəxt taleli yazıçıdırmı,

ümumiyyətlə, xoşbəxt taleli yazıçı anlayışı nə dərəcədə düzgündür? Bu, adi bir ritorik sualdır və kimsədən cavab tələb etmir... Və istər-istəməz həm də cavab vermək istəyirsən. Və eləcə yeni bir sual doğulur; ümumiyyətlə, yazıçının xoşbəxtliyi mümkündürmü? H.Mirələmov döyülən yazıçıdır. Onu sağdan, soldan, yuxarıdan, aşağıdan - necə gəldi, döyməyə cəhdlər var. Təbiidir ki, bu döymək anlayışı bir qədər məcazi mənadadır. Təkcə tənqid etmək mənasında deyil, həm də onu təqdir etmək, yaxud da olduğundan artıq tərif etmək, zənnimcə, insanın başını sığalla, yaxud da onu tənbeh qarşısında qoy - bunun hər ikisi insanın əhvalına təsir göstərir. Hər hansı biri qədərindən artıqdırsa, o artıq insanın mənəviyyatına təcavüzdür. Təbii ki, belə halda həm də yazıçının.

* * *

H.Mirələmov çox yazan yazıçıdır. Ümumiyyətlə, dünya ədəbiyyatında çox yazan yazıçılar var. Ayzek Əzimovun əsərləri beş yüz cilddən artıq ola bilər. Balzakın bütün əsərlərini cildlərə çevirmək mümkün olsaydı, rəqəmlərin sırası yüzü çoxdan keçərdi. Aleksandr Düma (Ata) heç öz sağlığında belə əsərlərinin neçə cild ola biləcəyini təsəvvür edə bilmirdi.

Azərbaycan ədəbiyyatında Süleyman Rəhimovun əsərlərini normal həcmdə cildlərə yığmaqla şişirtməsiz qeyri-adi insan gücünün qarşısında dayanardıq. Əgər belədirsə, onda nə üçün H.Mirələmovun çox-

sahəli və zəngin yaradıcılığını kimlərsə özünə dərd eləməlidir. Zənnimcə, bu da bir taledir. Və elə taledir ki, o, elə həmişə müzakirə obyekti olacaq, həmişə diskussiya yaradacaq, kimisə sevindirəcək və kimisə mütləq kədərləndirəcək.

Görünür, hər kəs öz taleyini yaşamalıdır hökmü həmişə qüvvədə qalacaq. H.Mirələmov ən yaxşı əsərləri ilə də, hətta ən zəif əsəri ilə də müzakirə obyekti olacaqdır. Amma məsələ burasındadır ki, artıq onun keçdiyi yol, həyat təcrübəsi ona imkan verəcək ki, bütün bunların hamısına o, adi hal kimi yanaşsın, həyatın təbii axarı kimi qəbul eləsin.

Görkəmli esseist-tənqidçi Asif Əfəndiyev - Asif Ata deyirdi ki: *"ədəbi aləmdə haqqımda nə deyilsə xeyrimədi. Qərəzli-qərəzsiz tənqid, obyektiv tərif, yaxud tərif dırıltısı - hər halda bütün bunların hamısı məni cəmiyyətin qəlbinə doğru aparır".*

Mənə elə gəlir ki, H.Mirələmovun ədəbi taleyi belə bir durumla qarşı-qarşıyadır.

...Bir millət vəkili olaraq, bir siyasətçi olaraq, bir işgüzar adam olaraq H.Mirələmov şəxsiyyəti mənim üçün çox adidir. Və etiraf etmək lazımdır ki, yaxşı siyasətçi də, yaxşı iş adamı da və xalqını sevən millət vəkili də hörmətə layiqdir. Amma bir şəxsiyyətdə bu ünvanları birləşdirmək təbii ki, az-az adamlara qismət olur. Və üstəlik bir yazıçı taleyi yaşamaq, yazıçı əzablarını, ağrısını mənəviyyatında duymaq... Bu, artıq elə bir taledir ki, onun gətirdiyi ağrılardan qaç-

maq mümkün deyil. Və yazıçı ağrısı, əzabı digər missiyaların ağrısından ikiqat çoxdur.

* * *

Hər halda Azərbaycan mətbuatını izləmək imkanımız var. H.Mirələmov ev tikdirəndə kimlərsə haray-həşir salır. Hansı həyətdəsə asfalt döşətdirəndə kimlərsə fəryad qoparır. Mirələmov məktəb təmir eləyəndə, uşaq bağçası tikdirəndə yenə həmin haray-həşir və nəhayət, H.Mirələmovun yeni bir əsəri çap olunanda yenə də dad-şivən.

Deyəsən bir dəfə işlətmişəm; **Jül Renarın** çox maraqlı bir müşahidəsi var: Bir tərəfdə rahat əyləşib yoldan keçənə baxıb gülən üçün müsafir neyləməlidir? Dayanıb soruşmalıdır ki, sən nə üçün gülürsən?

Mənə elə gəlir ki, H.Mirələmov həmişə yoldadır, həmişə hərəkətdədir. Və yəqin ki, onun hərəkətinin nəinki nəticəsi, bu hərəkətin özü həmişə kiminsə dodaq büzməsinə səbəb olacaq. Amma onu yolundan döndərə, hərəkətdən saxlaya bilməyəcəkdir. Heç kim kimisə xeyirxahlıq üçün məcbur edə bilməz. Xeyirxahlıq insanın öz təbiətində olmalıdır. Lap iyirmi il bundan əvvəl H.Mirələmovun gördüyü işlərə görə dövlət tərəfindən rəğbətlənməsini yada salaq; yaxud da elə adını, ünvanını bilib-bilmədiyi adamların qolundan tutması, dərdi olanın dərdini yüngülləşdirmək cəhdləri kimdənsə bir rəğbət payı almaq üçündürmü?

Mənə elə gəlir ki, bütün bunlar üçün insanın böyük ürəyi olmalıdır. İnsanın daxili aləmi zəngin de-

yilsə, ona süni şəkildə heç nəyi əlavə etmək olmaz. Bütün xeyirxahlıqlar insanın daxili aləminin zənginliyindən xəbər verir.

* * *

Bir dostum var. O danışır ki, bir jurnal redaktoruna irihəcmli bir məqalə təqdim etdim. Həmin redaktor dedi ki, ay qardaş, mən altı aya bir məqalə yaza bilmirəm. Heç bir ay deyil sənin bir məqaləni də haradasa oxumuşam, bunu necə yazmısan? Həmin dostum da o redaktora cavab verir ki, sən yazı yaza bilmirsənsə, buna mən cavabdeh deyiləm ki?!

H.Mirələmovun çox yazmasını ona irad tutanlara indi H.Mirələmov nə cavab verməlidir? Hərçənd ki, indi əsərsiz, iddialı yazıçıların sayı daha çoxdur. Amma hər halda onların görünməsindən ötrü, onların etiraz adı ilə çığır-bağır sədalı yazılarının altında imzalarının görünməsindən ötrü görünür, bəhanə gərəkdir. Və H.Mirələmov yaxşı bəhanədir.

* * *

Əlbəttə, birmənalı şəkildə deyərdim ki, H.Mirələmov ağsaqqaldır. Görüb-duya bildiyi adamların dərdinə həyan olmaq, insanlara arxa durmaq onun şakəridir, deməzdim - amma xislətidir, - deyərdim. Təbiətən rəhmli adamdır. Hətta üzünə qarşı qeyrisəmimiyyət gördükdə belə, onu görməməzliyə vurmağa da səbri, təmkini çatır. Görünür, ağsaqqallıq üçün təmkin də böyük şərtdir.

H.Mirələmov tanışlarının, yaxınlarının, doğmalarının, dostlarının - nə qədər qəribə olsa da, bəzən

heç - daha çox tanımadıqlarının xeyirində-şərində görünəndir. Və kimsəyə sirr deyil ki, o, göründüyü yerin çətin olanına gücü çatan köməyini də əsirgəmir. Mənə elə gəlir ki, millət vəkili adının bir hallallığı da elə burdan gəlir.

* * *

Atam deyərdi ki, **dostunu görəndə üzünü döndərmə, çalış salam verəsən. Salamın gücü duz-çörəklə tərəziyə gələr.** Mən də belə düşünürəm: Salamın gücü, tağları zamanın zəlzələlərinə davam gətirən, çat verməyən... körpülərlə müqayisəyə gələr. Atamın dediyi qədər olmasa da, salama güvəncin mahiyyətini düşüncəmdəki təsvirlə vermək istədim:

Salam Mirələmov!
İşıq var salam sözündə…
Axı Salamın ünvanı işıqlı,
Üzü nurlu kişilərdi!..

Salamın ünvanı
Baxışında, duruşunda, gözündə
Millətinin dərdi yaşayan,
Fəsillərin payızında, yazında
Ağrı-acılardan ürəyi üşüyən,
Dərddən içi qabarlı kişilərdi!..

Yalanlar, yalçılar keçməz;
Salamın körpüsü su, dəniz…
Hər ünvana Salam düşməz
Salamın ünvanı

- Salam qədər əziz
Yolları aydın, uğurlu kişilərdi…

Bədxahlar, namərdlər
Salamlara çəkər çəpər;
Beləlçri salamların yolun kəsər
Salam ünvanlı kişilərin
Sinələri hücumlara sipər…
Bu salamın ünvanı Sizsiniz -
Vətən sarı könlü yaralı,
Ürəyi qübarlı kişilərdi…

Bu salamın ünvanı -
Kredosu aydın, ürəyi təmiz
Vicdanı pak, ləkəsiz
Dünyanın yağlısı, yavanı
Eynində olmayan,
Qeyrət qanı qaynar,
Təpərli kişilərdi…

Bu misraları on il bundan əvvəl yazmışam. İllər bizim “salam sarayımız”dan kərpiclər qoparsa da, sütunlara xətər dəyməyib.

* * *

Qəribə üçbucaq haqqında danışmışdım. Allahı harada gəzmək, harda tapmaq olar? Yerdə, göydə və insan qəlbində? H.Mirələmov Allahı görən, duyan və öz mənəviyyatında daşıyan insandır.

Cəmiyyətdə Allahlı adamlar olduğu kimi, insanlar arasında asilər də var. O başqa məsələdir ki, Al-

lahı görə bilməyəsən, duya bilməyəsən, öz varlığında daşıya bilməyəsən. Bu, bəlkə də bir bədbəxtlikdir. Amma Allahı görə bildiyin halda görməməzliyə vurasan, Allahı duya bildiyin halda duymadığını iddia edəsən, Allahı mənəviyyatında hiss etsən də ondan imtina edəsən; bu, daha böyük dərddir.

H.Mirələmov Allahlı adamdır.

H.Mirələmov Allahın zərrəsini qəlbində daşıdığı üçündür ki, özü də millətin zərrəsidir.

Zərrələr həmişə tamın ağrısını çəkir.

* * *

Ey insan, sən həmişə haqq ilə ol, unutma ki, haqq həmişə səninlədir!

**21.06.06**

# ƏBƏDİ HƏYAT ARZUSU

***...Və ətrafda baş verən anlaşılmaz hadisələrin təzyiqi altında inləyən ədəbiyyat nəinki həmin hadisələrin ideya-estetik şərhini vermək funksiyasını itirir, hətta ilk (və başgicəlləndirici) zərbələrdən özü də məhv olmaq təhlükəsi ilə üzləşir.***

***...Ancaq müəyyən sükutdan, tərəddüdlərdən sonra Azərbaycan yazıçısının söz demək, ətrafda cərəyan edən hadisələrin mənəvi mahiyyətinə varmaq zamanı deyəsən gəlib çatmışdır...***

**Nizami Cəfərov**

# QƏLBİNDƏKİNİ DEMƏYƏN...

## *Əbədiyyət ünvanlı atamın - Zal Əziz oğlunun ruhuna etiraf məktubu*

*Ata, səndən sonra həmişə hər yerdə səni gəzirəm. Çünki dünyadan aldıqlarımı dünya bircə-bircə məndən geriyə almaqdadır. Ancaq səndən qalanlara - səndən aldıqlarıma, mənə verdiklərinə hələ ki, kimsə şərik çıxa bilmir. İradən, qətiyyətin, sözünün qüdrəti, gücü, kəsəri... bəlkə də, insanı şəxsiyyət ucalığına çatdıran nə varsa hamısı Müdrik İnsana (insanlığa) yolun görünən (duyulan) tərəfləridir. Həmişə deyərdin ki, «qəlbindəkini deməyən qəlpdir». Bilirdim ki, sözü yeri-yatağı ilə deməyin ustadısan. Ancaq mənsub olduğun xalqın fikir-söz (inci) xəzinəsini zənginləşdirən sözlərin,*

*ifadələrin, misalların tükənməzliyi, dəqiqliyi, məntiqi həmişə məni düşündürüb. Bütün bunlar haradan qaynaqlanırdı? Nə üçün tükənmirdi?*

*Ata, bilirdim, sənin çoxlu bədxahların vardı. Özü də qınlarına çəkilib həmişə fürsət gözləyirdilər. Fürsət isə namərdlik silahıdır və onun da gözlənilməz məqamlarda siyrilmək imkanı var. Bəli, pislik üçün düşən imkandan yararlanan, yaralanmaq istəyənlər üçün sənin təpərin, cəsarətin ən kəskin cavab olurdu. Nə gizlədim, özümə bədxahlar qazancımın zamanınacan səndə də günah axtarmaq meyli olub məndə. Ancaq hər uğurumu özünə dərd edən adamları tanıdıqca dərk elədim ki, həyatın bir mənası da insanın bədxahlar qazancıdır. Nə qədər qəribə olsa da, mən də sənin kimi əzmimi mübarizədə - elə bədxahlarımla mübarizədə tapdım. Bəli, səndən aldığım dərslərdən biri də bu idi. Bir də deyərdin ki, «kişi gərək hər vaxt çətinə düşə biləcəyini gözünün altına alsın. Ancaq heç bir çətinlik kişini gərək yazıqlaşdıra bilməsin. Kəskin cavab verdiyin, birisinin həddini göstərməyin sonunu hikmətlə qurtarardın: «Söz demə cavab eşidərsən». Bu da sözünün əzəlini, axırını bilməyənin cavabı. Yaşadığın həyat ən böyük məktəb olmuşdu mənim üçün. Yadımdadır, sözünün yerini, yatağını bilməyən gəvəzənin biri (axı kimin ağzını bağlamaq olar) soruşanda ki, «Zal kişi, hanı bulaq başındakı saray evin, sürüynən malın, dövlətin?» Verdiyin cavaba necə qibtə eləməyim: «O nə kişidi ki, dövran dəyişəndə milyonu batmaya». Sözün özündən əvvəl mənasını alırdın. Cavabın ilan gülləyə uçan kimi*

*hədəfə çatırdı. Son günlərin kədərli təəssüratını müdrikliyin ucalığı, qüdrəti kimi görürəm: «Ağır xəstəlik əldən salmışdı. Son günlərdə yerdən qalxanda əl atıb kömək eləyənə birtəhər baxırdı: «İnsan gecikməsə yaxşıdır. Öz gücünün üstündə, öz təpəriylə vaxtında getsə yaxşıdır».*

***Şiş boğazından yapışmışdı. Demək olar ki, günlərlə heç nə yeyib-içmirdi. Sistemlər, şirələr köçürülürdü. Amma son anacan ağıl, idrak, düşüncə, hikmətli sözlər, kəskin ifadələr bulaq kimi çağlayıb gəlirdi.***

***- Ay evi tikilmiş, bu mərdliyi, bu hikməti kimə verib gedirsən? - Bir az zarafatyana soruşdum. Söz ağzımdan çıxan kimi cavab verdi: - Kim götürə bilirsə, ona. - Sərrast, aydın baxışlarla gözümün içinə baxdı.***

***Mən elə bilirdim ki, deyəcək övladlarıma, nəvələrimə. Amma belə demədi. Və o cavab mənə bir daha anlatdı ki, bu cür adamlar üçün meyar övladı deyil. Bu cür adamlar üçün haqqın, həqiqətin bircə nizamı var. Bu cür adamların övladları həmin nizama tabe ola bilənlərdir, həmin nizamı qoruyanlardır. İndi həmin fikrin davamı olaraq deyirəm ki, atam Zal Əziz oğlunun övladlarından hansı biri desə ki, mən Zalın övladıyam, demək, o, Zalın adı ilə mənəvi alver eləyir. Zalın övladı məmləkətin hansı tərəfində yaşamasından asılı olmayaraq mərdliyi, ləyaqəti ilə həyatını bəzəyə bilən Vətən övladıdır, yurd övladıdır. Kim ki, o haqqı, ədaləti qoruya bilirsə, Zal öz mərdliyini, öz ləyaqət adlı əmanətini eləsinə verib gedib. Və bir daha inandım ki, yalnız övlad ruhun daşıyıcısı ola bilməz. Ruhun daşıyı-***

***cısı o kəslər ola bilər ki, onlar həmin ölçüyə, həmin nizama uyğun gəlsin»* («Meyar», səh.8-9).**

*Və bir daha anladım ki, söz adlı nuru Tanrı hər kəsin qəlbinə, ruhuna bəxş etməsə də, sevdiklərindən, seçdiklərindən də əsirgəmir.*

*Ata, deyərdin ki, «məsləhətə xəyanət yoxdur». Və bir də deyərdin ki, «sözün var saxla sinəndə, söylərsən dəmində». İndi onu da görürəm ki, elə sinəmdə saxladıqlarım da səndən qalanlardır. Səxavətlə, ilhamla, Tanrının tükənməz varı kimi kimsədən əsirgəmirəm. Sənin düşüncə, təfəkkür varidatın olan, heç vaxt dəyərdən düşməyəcək sözlərini elə sənin öz adından insanlara verməyə çalışıram. Deyirəm, buyurun, götürün, bu dəyərli sözlər, hikmətlər Zal Əziz oğlundan qalan əmanətlərdir. Sizlər üçündür. Bizdən, sizdən sonra gələnlər üçündür. Yazıb götürənlər də çoxdur. Bilirəm ki, havadan, havayıdan gələn gəlir kimi mənimsəyənlər də çoxdur. Amma harda, hansı söz meşəsində görsəm belə sənin sözünü tanıyıram, məndən keçib ünvansızlığa gedən sözünü.*

*Ata, - Müdriklər Müdriki Zal Əziz oğlu, bu əsəri sənin ruhuna bağışlayıram.*

# SÖZƏ AÇILAN YOL

Ağacda qalan son yarpaq, günəşin hərarətindən gözlənilmədən - qəflətən qopub düşən buz salı, ananın döşlərinə doğru dodaq çalan uşaq istəyi, zəlzələnin daxili təkanından çat verən yerin qeyri-adi görünüşü... bütün bunların hər birisi insan beynində əks-səda verə bilər. Amma yazıçı təxəyyülündə, yazıçı fikrində bu, adi hadisə deyil. Bu qeyri-adi, nadir görüntülər yazıçının mənəviyyatını silkələyir, yazıçının daxili aləmində yığılmış enerjini səfərbərliyə alır. Və yazıçını məcbur edir ki, özü də silkələnsin. Beləcə, yatmış, lal duyğular dilə gəlir.

Yazıçının ruhuna sənətə çevrilən duyğular hakim olanda o, özünün fərd olduğunu unudur.

Yazıçı bu vəziyyətdə - sözə vurğunluq, poetik cazibə məqamında təbiətlə cəmiyyəti öz içində bir-

ləşdirir və təbiətin də, cəmiyyətin də əvəzindən danışmağa başlayır.

Bəri başdan bir həqiqəti demək lazımdır; incəsənətin bütün sahələrində yaradılan obrazların müəyyən qatında avtoportret dayanır. Şübhəsiz, ədəbiyyat da istisna deyil. Bəs H.Mirələmovun "Həyat eşqi" povestinin baş obrazı üçün prototip kimdir? Müdrik İnsan üçün müəllifin həyati müşahidələrindən başqa qaynağı varmı? Yeri gəldikcə bu suallara yetərincə cavab veriləcək. Ancaq indilikdə bircə bunu demək olar: Bu obrazı canlandırmaq üçün müəllif özünün daxili məninə daha çox istinad edib. Çünki həyatın mənası haqqında düşüncələrin qədərincə cilalanması üçün həyat təcrübəsi, həyatın dərki, bişmiş insanın təfəkkürü əsas şərtdir.

Həyatın ən bənzərsiz anları, nadir görüntüləri yazıçının xəyalında canlanır. Və bu bənzərsiz və nadir görüntüləri sənətkar sözə çevirməklə, söz ilə cilvələməklə ona əbədiyaşarılıq verir və insanlara ünvanlayır. H.Mirələmov yazıçı, alim və pedaqoq kimi yaxşı bilir ki, sənətin bircə müqəddəs vəzifəsi var: insanı həqiqətən layiq olduğu ucalığa çağırmaq. İnsanı çatmaq istədiyi ucalığa çatdırmaq. Əgər sənət bu istəklə insanın qəlbini titrədə bilirsə, demək, bircə addım da olsa belə, onu öz istəyinə, öz məqsədinə çatmaq üçün irəliyə apara bilib.

H.Mirələmova "Xəcalət" povestinin sarsıdıcı ruhu ilə bağlı hərarətli məktub yazmış Xalq şairi, böyük söz ustadı **Bəxtiyar Vahabzadənin** filosof şair

olduğunu, söz-fikir sahibi olduğunu inkar edən tənqidçi yoxdur. Bəxtiyar Vahabzadə bizim fikir dünyamızdakı - həm də bizim deyəndə söhbət insanlığın fikir dünyasından gedir - ziddiyyətləri, qarşılaşmaları, ağla qaranı söz donunda elə biçib ki, həmişə bizi düşündürüb. Bu qarşılaşmaların, çarpışmaların arasında özümüzü görmüşük. Niyyət üstündə qanına qəltan olanların mübarizələrinin mənası da, mənasızlığı da onun poeziyasında həmişə bütün aydınlığı ilə gözümüzə görünür. B.Vahabzadə deyəndə ki,

*Bir gülü yox, güllərin çələngini sevirəm,*
*Mən çıxmağa təpə yox, uca dağ istəyirəm.*
*Ağlasan hönkür ağla, gülsən qəhqəhə çək, gül,*
*Ağlasan da, gülsən də tamam doysun qoy könül.* - daxilimizdəki vurnuxmaların, istəklərimizin yüyənsiz at kimi meydan sulamasını görürük. Və həqiqətin könlümüzün tamah saldığı çeşmədən axıracan su içmədiyinə həmişə yanıb-yaxılırıq.

Bu, həyat eşqidir. Doyunca yaşamaq həvəsidir. Həyatın gözəlliyinə axıracan aludə olmaq, əslində, elə bu gözəllik aləmində ölmək istəyidir. Məxsusi olaraq bu ölmək ifadəsi ondan ötrü deyil ki, canını təslim edəsən və sonuncu dəfə nəfəsini çəkəsən.

İnsan qəribə məxluqdur. Ona elə gəlir ki, gözəlllik dünyası, saf və sağlam mənəviyyat aləmi insanın bütün dərdlərinin dərmanıdır. İnsan müqəddəs mənəviyyat dünyasında ölmür, insan gözəllik aləmində öz diriliyini tapır. “Həyat eşqi” əsərinin əsas ruh daşıyıcısı insan da yaşının bu həqiqəti dərk məqamına çatıb. Ancaq bu həqiqəti özündən, ona

verilən tale payından - ömründən kənarda görür. Yaxşı, ya pis - fərq yoxdur. Tanrıya qovuşmaq, onunla birlikdə bu dünya boyu dolanan çərxi seyr etmək istəyir.

Yazıçı dünyasının özünəməxsus qəribəlikləri var. Yuxarıda qeyd etdiyim kimi, bəzən çox nadir bir hadisə onun fikir dünyasının qapısını açır və onu yazmağa məcbur edir. Nəyi yazmağa və necə yazmağa məcbur edə bilməz.

Tənqidçi-esseist **Sabir Bəşirov**un maraqlı bir müşahidəsi də diqqət çəkir: *"Tənqidçi (yazıçı) üçün yüksək elmi-nəzəri hazırlıq, mənsub olduğu xalqın ədəbiyyatını, dünya ədəbiyyatını dərindən bilmək və bədii-estetik duyum, mətni (həyatı) başa düşmək əsas şərtlərdəndir... Əslində, tənqidçi (yazıçı) əsəri (həyatı) ən azı yazıçı (insanın özü) qədər duymalı, yazıçının demək istədiklərini, əsərin ideyasını incəliklərinə qədər bilməlidir. Əgər bunlar yoxdursa, tənqiddən (yazıçılıqdan) danışmağa dəyməz..."* **(S.Bəşirov, "İdrakla hissin vəhdəti", Bakı-2013. səh.12).** Hüseynbala Mirələmovun insan-həyat qarşılaşmasına münasibəti, mövqeyi də bunu deyir. Əslində yazıçılıq da budur.

Həyat eşqi, yaşamaq ehtirası... Bu duyğular çalarına, mahiyyətinə, estetik idealının gücünə görə hər kəsdə bir cürdür. Özünə məxsusdur. Eləcə də, hər yazıçının özünə aid dünyası, aləmi və bu aləmin öz rəngləri var. H.Mirələmovun "Həyat eşqi" povestinin də yalnız müəllifindən gələn rəngləri, özünəqədərki "eşq"lərdən onu fərqləndirir.

# İLKİNLİYİN ÇAĞIRIŞI

Hüseynbala Mirələmovun "Həyat eşqi" əsəri, bəlkə də, illər boyu onun - onun deyəndə, ümumiyyətlə, hər hansı bir qələm sahibi başa düşülə bilər - ürəyində yığılıb qalan hisslərin söz donunda təzahür etməsidir. Bu əsərin yaranması üçün B.Vahabzadənin "Həyat, sən nə şirinsən" şeirindəki məna siqlət olur.

Əsərin qəhrəmanı İnsan ölümlə barışmır. İnsan özünü dərk edəndən bəri çox yaxşı bilir ki, doğulduğu andan ölümə məhkumdur. Bəs nə üçün ölümlə barışmır, bəs nə üçün o, əbədiyyət arzusundadır. Bəs nəyə görə o, əbədi yaşamaq istəyir. Bu, sadəcə bir tamahdırmı? Bu, sadəcə ölümdən sonra nəyin olub-olacağını dərk etməməkdirmi? Bizə elə gəlir ki, o qaranlıq girdabın qorxusu deyil insanı silkələyən. Sadəcə,

bütün məhrumiyyətlərə və əzab-əziyyətlərə baxmayaraq, insan doğulub dünyaya gələndən ölənəcən dünyanın gözəlliklərinə ağrı-acıları ilə birlikdə vurulur. Və ən başlıcası, insan hər bir yaş mərhələsində həyatın özünə uyğun gözəlliyini dərk edir. İnsan bu gözəllikdən imtina etmək istəmir. Əlbəttə, bu, həm də sənətin vəzifəsidir ki, insana anlatsın: ey insan, sənin əbədi həyatın bu müvəqqəti ömründə qazandıqlarınla bağlıdır. Sən özünün əbədi dünyanı öz əməllərinlə qazana bilərsən. Bəli, bu, artıq sənətin vəzifəsidir.

H.Mirələmovun "Həyat eşqi" əsəri çoxlarına elə gələ bilər ki, bir fantastikadır, illüziyadır. Ancaq mənə elə gəlir ki, bu, tam real həyatdır. Ancaq əsl kökü, rişələri insan beyni ilə, insan təxəyyülü ilə, insan mənəviyyatı ilə bağlı həyatdır. İnsanın gündəlik qarşılaşdığı ağ-qara, pis-yaxşı, yalan-doğru... bütün bunların heç birisi bu əsərdə yoxdur. Doğrudur, əsər boyu qəhrəmanın düşüncələrində onun həyatda gördüklərinə etirazları əks-səda kimi görünür. Amma əslinə qalsa, biz təbiəti görürük və o təbiətlə təmasda olan, təbiətin əbədiliyində özünü axtarmağa gedən insanı görürük. Bəs bu insan kimdən qaçır, nədən qaçır? Əslinə qalsa, bu insan həyatın şirinliyini dərk etdiyindən və bu şirin həyatın bir gün onun əlindən çıxacağından vahiməyə düşdüyü üçün - qorxduğu üçün deməzdim - baş götürüb qırx yaşına qədər yaşadığı aləmdən gedir.

* * *

İnsan əbədiyyəti harda axtarmağa gedir? Hər halda o, əsərin lap elə ilk səhifələrindəcə təqdim olunan yaşının qırxını adlamış çağında, yəni dünyanı artıq dərk etdiyi çağında doğulduğu məkana üz tutur. O, bu məkanı tapmalıdır. Və ona elə gəlir ki, insan özünün doğulduğu yerdə, dünyaya gəldiyi yurdda öz ilkinliyinə qayıda bilər, öz təmizliyinə qayıda bilər.

Bu yazıçı intuisiyası ilə ortaya çıxan ən düzgün qənaətdir. Doğrudan da, bioloji olaraq insan doğulduğu yerdə çox pak olur. Başqa sözlə, pedaqoji tarixdən bəlli olan “ağ lövhə” kimi dünyaya gəlir. Uşağın irsiyyətlə, genlə gətirdiyi keyfiyyətləri həyat münasib olmayan şəraitdə onun əlindən asanlıqla ala bilər. Amma hər halda “Həyat eşqi”nin qəhrəmanı olan insan bu həqiqəti yaxşı bilir. Və ona elə gəlir ki, o, həmin ilkinliyə qayıda bilsə, o, həmin yurda qayıda bilsə, Tanrıdan istədiyi diləyinə yetə bilər.

Yurd anlayışı da burda ikili mahiyyət daşıyır. Birinci növbədə o ilkin yurd ana bətnidir. Və o müdrik çox yaxşı bilir ki, o uşaq o ilkin yurdda İlahi təmizlik donunda idi. Və o insan onu da yaxşı bilir ki, əgər Tanrı insanın səsini eşidirsə, ancaq o ilkinlikdə olan, o təmizlikdə olan bəni-adəmi eşidə bilər.

**Füzuli** deyir:

*Necə xoş günlər idi bilməz idim yaxşı, yaman,*
*Yar ğəmi çəkməz idim, qorxmaz idim düşmandan.*
*Eşq sevdasinə, aşiqliyə biganə idim,*
*Könlüm asudə idi dərddən, həm dərmandan.*

*Olmamışdı gözümün pərdəsi qanla rəngin,*
*Ürəyimdə yox idi xar o güli-xəndandan.*
*Dəyməmişdi gözümə surəti-eşq ayinədə,*
*Çıxmamışdı üzə hüsnün gözəli pünhandan.*
*Hələ pabənd deyildim hərəmi-eşqdən mən,*
*Qəflət azad eləmişdi məni ol zindandan.*

*Mənim asudəliyimə qibtə ilə baxdı fələk,*
*Bu dünyaya gətirib dərd oduna yaxdı fələk.*

"Həyat eşqi" əsərinin qəhrəmanı o asudəlik anını, o müqəddəslik anını yadına salır və əslində, doğulduğu yurda qayıtmaq istəyi ilə o müqəddəsliyə doğru yol gedir.

Müdrik İnsanın qırx yaşına çatandan sonra çıxdığı yolun, üz tutduğu məkanın adı nədir? Bu, bir xoşbəxtlik axtarışıdırmı, bu, əbədiyaşarılıq arzusudurmu, yoxsa bütün bədbəxtliklərin, bəlaların, həsrətin və nifrətin mənbəyi kimi gördüyü cəmiyyətdən qaçmaqdırmı? Cəmiyyət doğrudanmı əzab-əziyyət mənbəyidir. Axı cəmiyyətin özü bütövlükdə insanların toplumudur. İnsan cəmiyyətdən qopub ayrıldıqdan sonra cəmiyyət üçün darıxmayacaqmı? Axı onun insanlığı elə cəmiyyətlə bağlıdır. Yəni doğrudanmı insan elə öz insanlığından qaçmaq istəyər?

İlk baxışdan bu sualların hansına müəllif və müəllifin şəxsində əsərin qəhrəmanı cavab vermək istəyər. Bu, xeyli dərəcədə dumanlıdır. Amma əsər boyu qəhrəmanın düşüncələrini izlədikcə aydın olur ki, o, əbədiyaşarılıq arzusu arxasınca gedir. Və bu da

sirr deyil ki, o, əslində, insanlardan da bezmiş və ikrah etmişdir. O, insanlar arasında həsrət görüb, o, insanlar arasında bir-birinə nifrət görüb, riyakarlıq, bir-birinin ayağının altını qazmaq, lap belə qanlı müharibə savaşlarına qədər gedib çıxan niyyətlər görüb. Və bütün bunların hamısından artıq bezmişdir. Onun qırx illik ömrü bir neçə əsrə bərabər bir ömrün yaşadığı məzmuna malikdir. Və əslində, o, bütün bunların hamısını dərk etdiyindən və mənəviyyatında ağır yük kimi daşımaqdan artıq bezmiş, usanmışdır. Onu imtinaya gətirən də daşımalı olduğu yükün əndazədən çıxmasıdır..

Burada da ziddiyyətli məqamlar var. Müdrik olaraq insan dərk edə bildiyini, mənəviyyatına yığdığını daşımağa qadir olmalıdır. Yəni Tanrı hər kəsə dərd vermir. El arasında da deyirlər ki, Tanrı dərdi çəkənə verir. Dərd əslində, həyatı dərketmədir. İnsan həyatı dərk etdikcə onun mənəvi ağırlığını və yükünü özünə çəkir və bu, artıq dərd olaraq onun özünə məxsusdur, öz yüküdür və daşımağa məhkumdur. Dərd daşımaq, həyatı dərketmə xoşbəxtliyidir. Qəlbin genişliyində, ruhun sağlamlığında özünü tapan dərd kök atır, bitir, budaqlanır, çiçəklənir; böyüdükcə insanın özünü də daxilən «əhli-kamal» eyləyir. Daxili aləmində vətəndaşlıq haqqı qazanmış dərd insanla Tanrı arasında körpüyə çevrilir. Tanrıya sonsuz sevginin sayəsində yaranan dərd doğmalığının özü eşq günəşinin insanın daxili aləminə yayır. Və insan özünü dərketmə ilə saflaşır, durulaşır.

Bu zaman özünü təzədən doğulmuş kimi görür. Onun ruhunda bezdiyi həyatdan heç nə yoxdur. Daha doğrusu, o özü qəlbində yanan eşq çırağının sayəsində ilkinliyinə qovuşmuş (qayıtmış) və bununla da dünyaların ən yaxşısına çatmışdır.

«Həyat eşqi» əsərinin qəhrəmanı dünyaların arasında (hər zaman özü bir dünyadır, hər zamanın adamı da xislətinə görə dünyaları fərqli miqyaslarda görə bilir) məhz eşq günəşi ilə işıqlanmış dünyanı axtarır. O zaman Tanrı da onu sevəcək, onun istəklərinə rəvac verəcəkdir. Şübhəsiz, bütün zaman (tarix) boyu insanın varlığına hakim olan əbədi həyat arzusu «həyat eşqi»nin baş qapısı, qapalı aləmdən çıxmaq üçün, çıxış üçün bəlkə də, yeganə imkandır.

«Həyat eşqi» əsərində insanlığa işıq olacaq çox mətləblər var. Onlardan biri də (bəlkə, birincisi) ilkinliyə çağırışdır.

# TANRIYA DOĞRU... UCALIĞA

Müdrikin ilk düşüncələrindən aydın olur ki, deyəsən o, dərdlərindən imtina etməyə çalışır. Ona görə də, sonu görünməyən, nəticəsi bilinməyən səfərə çıxmışdır. O, bu yolda istəyinə nail ola biləcəkmi? Bu, özünüaxtarış yoludur. Və bu özünüaxtarış onu istəyinə çatdıracaqmı? Bunun üçün müdrikin keçdiyi yolu qarış-qarış izləməlisən.

Allah və insan... Bu iki varlığın vəhdəti və ayrılığı. Filosoflar, şairlər, xüsusilə, sufi şairlər bir neçə cəhətdən insanı Tanrının bir hissəsi, Tanrıdan qopmuş "cüz" hesab edir. Deməк, insanın Tanrıya qovuşmaq cəhdi, insanın Tanrıya qayıdış cəhdi, əslində, onun ilkinliyinə qayıdışdır. Ürfani təfəkkürə görə, insan Tanrıya o vaxt qovuşacaq ki, o, Tanrı ali-

liyinə, Tanrı müqəddəsliyinə sahib olacaqdır.

Hələlik müdrik yoldadır. İndi onun üz tutub getdiyi məkanda - ümid bağladığı məkanda o, Tanrıdan nə istəyəcək? Bu, hələ qarşıdadır. Və ümumiyyətlə, Tanrı onun səsini eşidəcəkmi?

Görkəmli alim, ədəbiyyatşünas **Kamil Vəli Nərimanoğlu Yusif Xas Hacib Balasaqunlunun (1017-1077)** "Qutadqu bilik" - "Xoşbəxtliyə aparan elm" əsəri haqqında danışarkən yazır: *"Qədim türklər kainatın hakimi, tək və mütləq qüdrət sahibi Göy Tanrıya tapınırdılar. Göy Tanrının daşıdığı sifətlər və ilahi qüdrət olması ilə islam ölçülərindəki Allah anlayışı arasındakı paralellik heyrətləndirici dərəcədə üst-üstə düşür. Allah kimi Göy Tanrı da kainatın, həyatın sahibi, düzüb-qoşanıdır, ölüm və həyatın qaymağıdır, səadəti də, bədbəxtliyi də verən tək varlıqdır.*

*Belə ki, o qədim (Bayaq), əbədi (Menku), vahid (Bir), öz-özünə mövcud və sıxıntıdan uzaq (Munqsuz), həyy (diri), iradə (erki) və qürbət (oqan) sahibi olan, xaliq (törütkən) və yaratdıqlarına üz tutan (deyici) vacibül-vücud bir varlıqdır"* **(K.Vəli Nərimanoğlu, "Özümüz, sözümüz". Bakı - 2005. səh.375)**. Göründüyü kimi, istər Tanrı deyək, istərsə də Allah, məzmun dəyişməyəcəkdir. Və Müdrik İnsanın təsadüfi deyil ki, yolu səhradan, dərələrdən keçsə də üzü yuxarıya doğrudur. Ona elə gəlir ki, üzü dağlara (ucalığa) tərəf getdikcə insan nəinki, mənəvi ucalığa doğru təmizlənmə yolu keçir, eləcə də insan dağların zirvəsinə can atmaqla Tanrıya ya-

xınlaşma yolu tutur. Eyni zamanda, Müdrik İnsanın doğulduğu yer də elə o dağların zirvəsidir, Tanrıya daha yaxın olan yerdir. Azərbaycanın görkəmli mütəfəkkir ədəbiyyatşünas alimi **Yaşar Qarayevin** belə bir tezisi var: *"Bütövlüyün, vəhdətin izini bəlkə də sərhədlərdən silmək olar. Amma yaddaşdan, sümükdən, qandan yox"* **(Yaşar Qarayev. Tarix - yaxından və uzaqdan. B., Sabah, 1996, s.447).**

Demək, mütəfəkkir alimin də fikrinin mahiyyəti ilə bizim istinad etdiyimiz məqam çox yaxınlaşmış olur. Sərhədləri hardan silirsən sil, məhdudiyyətləri hardan götürürsənsə götür, "yaddaşdan, sümükdən və qandan" silmək ki, mümkün deyil. Bax Müdrik İnsan bu hökmün, yəni özünün artıq arxaikləşmiş və yaddaşının alt qatında qalmış olan istəyə görə yola çıxmışdır. Həmin istək onun sümüyündə sızıldayır, qanında dövr edir və daşıyıcını - Müdrik İnsanı yola çıxarır.

Əsərin adı "Həyat eşqi"dir. Təbii ki, ad orijinal deyil. Cek Londonun da "Həyat eşqi" adlı hekayəsi var. Eyni zamanda, "Həyat eşqi" anlamını ifadə edən adlar altında başqa, çoxlu müəlliflərin bədii əsərləri var. Elə konkret olaraq müəllifin ilkin təsir kimi qəbul etdiyi **Bəxtiyar Vahabzadənin** "Həyat, sən nə şirinsən" lirik poeması da (**müəllif heç vaxt bu əsərini poema adlandırmayıb - Ə.X.**) əslində, həyat eşqinin nə olduğunu diktə edir və bu hissin, bu duyğunun insanın mənəvi dünyasını çulğalayan digər bütün hisslərdən üstün olduğunu demək istəyir. Bu-

nun bircə adı var - Həyat eşqi.

Tam mənəvi haqla B.Vahabzadə də “Həyat, sən nə şirinsən” poemasının adını “Həyat eşqi” adlandıra bilərdi. Beləliklə, bu ideya, əslində, bir problem olaraq zaman-zaman insanları düşündürüb. Və ən böyük təskinlik olaraq insan əbədiyaşarılıq yolunu əbədiyaşar əməllərində tapıb. Və nəhayət, buna nail olub. Ancaq H.Mirələmovun “Həyat eşqi” povestinin qəhrəmanı Müdrik İnsan əslində, bununla da barışmır.

Artıq qeyd etdiyimiz kimi, Müdrik İnsanı orbitindən çıxaran onun keçirdiyi mənəvi sıxıntılardır. O, bu mənəvi sıxıntılar içərisində, insanlar arasında yaşaya bilmir. Yaşaya bilməyəcəyini dərk etdiyinə görə üzü Tanrıya doğru yol tutur.

Əsərin lap əvvəlində kiçicik bir ştrixlə onun məqsədi bilinir. O, Tanrıya yaxınlaşaraq hələ çox dumanlı şəkildə beynində cücərməkdə olan məqsədini bildirəcək, Tanrıdan iltimas edəcək və bu iltimasın və dualarının müqabilində onu dəyişdirsin, çevirsin. Demək, burda artıq tamam başqa bir mətləb ortaya çıxır. Müdrik İnsan uzun ömür yaşamaq istəyir, başqa bir canlının timsalında. Həm də elə bir canlının timsalında ki, o, istənilən anda, istənilən yerə gedə bilsin. Əlbəttə, bu barədə bir qədər sonra daha geniş danışarıq.

# ÇEVRİLMƏ İSTƏYİ

Söhbət çevrilmə iddiasından gedirsə, deməliyik ki, bir çox yazıçılar çevrilmə ideyasından istifadə edərək insan və cəmiyyət problemini, həyatın görünə bilməyən tərəflərini işıqlandırmağa çalışmışlar. Qədim Roma yazıçısı **Apuley** "Qızıl eşşək" romanını, Avstriya yazıçısı **Frans Kafka** "Çevrilmə" hekayəsini qələmə alıb. Ümumiyyətlə, çevrilmə ideyası dünya xalqlarının folklorunda və Azərbaycan folklorunda geniş müraciət olunmuş vasitədir. Azərbaycan nağıllarında da qəhrəmanlar ən müxtəlif sehrin, cadunun təsiri altında formalarını dəyişirlər.

Nə qədər forma dəyişsə də, ilkin varlıq - insan özünün düşüncəsini və mənəvi varlığını qoruyub

saxlayır. O, başqa cilddə əzab çəkir. Hansı canlının formasındadırsa, onun daşıdığı yükü də daşıyır. Amma eyni zamanda mənəvi iztirablarını da çəkməkdədir. Son nəticədə, elə konkret olaraq bildiyimiz Azərbaycan folklorunun belə qəhrəmanları da sonradan qazandıqları formadan imtina edərək, yenidən insan formasına qayıtmağın həsrətini çəkir və qayıda bilir. Nə üçün, hətta könüllü şəkildə öz formasını dəyişənlər belə yenidən əsl formasına, əsl varlığına qayıtmaq fikrində olur? Deməli, bütün canlıların ən alisi insandır, insanın canlılar arasında mərtəbəsi daha üstündür.

H.Mirələmovun "Həyat eşqi" povestinin qəhrəmanı Müdrik İnsan da insandan güclü, insandan daha imkanlı varlıqların donunu istəyir. Nə qədər müdrik olsa da, hələ bilmir ki, bu əməlində onu necə peşmançılıq gözləyir.

* * *

İnsan nə vaxt insan olmaqdan qaçmaq istəyir? İnsanlıqdan, cəmiyyətdən imtina etmək istəyir? Sosial ədalət pozulandamı, böyük idealın puçluğunu və mənasızlığını dərk edəndəmi? Ətrafında baş verən hadisələrdən bezəndəmi? Bütün bu sualların cavabları "Həyat eşqi" əsərində axtarılmır. Və heç oxucu da bunun arxasınca düşmür. Çünki insanlar arasında yaşamaqdan imtina edən müdrikin özünü də tamam başqa məsələlər düşündürür. Əsərin lap əvvəlində yazıçı belə bir epizod təqdim edir: *"Kimisi maraqla, kimisi nifrətlə, kimisi də mərhəmətlə onu*

*altdan-altdan süzürdü. Saatlarla eyni yerdə hərəkətsiz oturduğunu görənlərdən ona rəhmi gələnlər də tapılırdı: - Yəqin ac olarsan, götür, bir qismət kəs, - deyib nəsə bir loxma uzadanlar və ya ehmalca qabağına qoyub bir qırağa çəkilənlər də vardı"* **("Həyat eşqi", Bakı -2005. səh.7).** Bizə elə gəlir ki, yazıçı bu ötəri epizoddan müdrik insanın daxili aləmində gedən mübarizənin motivini dərk etmək üçün istifadə etmişdir. Söhbət müdrik insanın fiziki aclığından getmir. Hərçənd ki, bir canlı olaraq onun da hərəkət etməsi, öz məqsədinə çatması üçün gücünü bərpa etmək, gücünü toparlamaq üçün yeməyə, qidalanmaya ehtiyacı var. Bu, əlbəttə, məsələnin görünən tərəfidir. Əsas görünməyən tərəf - alt qatda olan tərəf ondan ibarətdir ki, Müdrik İnsan qırx yaşına qədər cəmiyyətdən qədərincə ona düşən payı "yemişdir". Və bu "yemək" artıq onun üçün kifayətdir. Artıq o, yemək istəmir. Onun mənəvi dünyasını bu yemək təmin etmir. Elə ona görə də sonsuzluğa doğru yol alıb. Bu yol onu o yerə aparmalıdır ki, orda Tanrı dərgahına doğru üzünə qapı açılacaq.

* * *

Qırx yaşlı müdrik qırx illik ömrünü özünün həmcinsləri kimi yaşamayıb. O, bu qırx ilin ən azı hər bir ilini qırx il qədər yaşayıb. Başqalarının dərk edə bilməyəcəyi çox böyük dərinliklərə baş vurub. Onun ən dərin fikir ümmanlarından tapıb gətirdiyi qənaət bundan ibarətdir ki, düşüncə sahibi olan insan üçün bir ömür bəs deyil. Bunun üçün çıxış yolu nədir? De-

mək, onu bezdirən cəmiyyətdəki ziddiyyətlərin, qarşılaşmaların əsl səbəbini bilməsi də deyil. O, sanki bir-birini aldadan, bir-birini didib-parçalamağa hazır olan, dünyanı qan çanağına çevirən insanların axırını görmək istəyir. O yerə can atır ki, o yer çox ucalarda olsun. Həmin ucalardan üzüaşağı baxıb insanların əsl simalarını daha aydın görsün. Onların yersiz iddialarına gülsün. Son nəticədə onların necə öz hərisliklərinin qurbanı olduqlarına baxa bilsin. Bununla da bəşərin - insanların günahlarına şərik olmasın...

Bu, əlbəttə, Müdrik İnsanın xarakterinin mübahisəli tərəfləridir. O, insanlığın günahlardan xali olması üçün, təmizlənməsi üçün mübarizə aparmaq əvəzinə, insanların öz günahlarında necə boğulmalarını görmək istəyir. O, özünü şərik bilmir insanların günahında. Amma özünü insanlardan təcrid etməklə artıq o, bu günahlara şərikdir.

Müdrik insan dərd-qəm içərisindədir. Onun daim hüznlü görkəmi var. Bir dəfə də olsun üzü gülmür. Təbiətdə gördüyü nadir hadisələrə yalnız ötəri təbəssümlə cavab verir. Bu, onu göstərir ki, o, həm də eyni zamanda, insanların dərdini özü ilə aparır. Əgər Tanrı onun səsini eşitsəydi, o, yalnız özünü xilas edəcəkmi - sualının cavabı da hələ onun üçün aydın deyil. Bəlkə də o, özünün timsalında özünün taleyini dəyişməklə insanlığın da yolunu dəyişdirmək iddiasındadır.

## TANRI VƏ İNSAN

"Həyat eşqi" əsərinin adları, ünvanları başqa-başqa səslənsə də, əsas iki qəhrəmanı var. Hər iki obraz kifayət qədər dolğun işlənib. Biri əlçatmazlığı, qüdrəti, görünməzliyi və hər şeyə qadirliyi ilə təqdim olunan Tanrı, digəri ondan asılı vəziyyətdə - qəlbi qeyri-adi arzularla dolu, ümumi insanlığın içindən çıxsa da, insanlar üçün əlçatmaz istəklərə yetmək naminə vurnuxan, çəkdiyi hər cür iztirabları özündən aşağıda qoyan və eyni zamanda yenə qeyri-adi varlıq kimi görünən Müdrik İnsan.

Birinci təqdim olunan obraz, yəni ikinci obrazın üz tutduğu varlıq qeyd etdiyimiz kimi Tanrıdır. Tanrı özünün görünməzliyində olsa da, əlçatmazlıqda dayansa da, həmişə ikincinin lap yaxınındadır. Onun

qəlbinin döyüntüsünü də eşidir, hiss və həyəcanlarını da bilir, ürəyindən keçirdiyi hisslərdən də xəbərdardır. Bu obrazı müəllif hakim kimi təqdim edir. Yerin, göyün və yerlə göyün arasında olan hər nə varsa, hamısının mütləq sahibi kimi göstərir. Fəqət onu Allahlıqdan, Tanrılıqdan çıxartmır. Onun səsini verir, danışığını verir, əzəməti haqqında mülahizələr söyləyir, gücünün, qüdrətinin sonsuzluğundan danışır, hər şeyə qadir olduğu haqqında hökm söyləyir. Bütün bu cəhətlərinə görə Tanrı ilə insanın qovuşduğu - Tanrının insanlaşdığı, Tanrının da insan kimi fəqət hər cür imkanlara malik insan kimi təqdimatını da görür.

Tanrı dağları parçalaya bilir. İnsan da dağları parçalaya bilir. İnsan texnikası ilə, ağlının, zəkasının qüdrətilə, elminin, biliyinin nailiyyətinə güvənərək dağı parçalaya bilir. Bu parçalanma özü nisbidir. İnsan dağları parçalayıb arasından arxlar çəkə bilər, yollar çəkə bilər, dağların bomboz sinəsini yaşıl meşəyə çevirə bilər. Ancaq bir anda dağı dərəyə, dərəni dağa, var olanı yoxa, yox olanı vara çevirə bilməz.

* * *

Müəllif baş verən qeyri-adi təbiət hadisələrini, hətta fəlakət olsa belə, hər nə varsa, hamısını Tanrının adı ilə bağlayır. Hər ikisi qüdrətlidir, güclüdür. Amma Tanrının yanında insan acizdir. Tanrının hüzurunda onun heç nəyə qüdrəti çatmır. İnsanın gücü-qüdrəti Tanrının iznindən asılıdır. Allahın iradəsi olmadan insan heç nə edə bilməz.

Zənnimcə, bu, bir qədər total təfəkkürdür. Bəxt, qəza-qədər alın yazısı anlamı daşıyır. Əlbəttə, məsələnin bu şəkildə qoyuluşu artıq özünün mübahisəli dövrünü yaşayıb. Dünyanın ən böyük alim və filosofları bu qənaətdədir ki, insan öz taleyini əməlləri-lə yaradır.

İndi qayıdaq əsərdə Tanrı ilə insanın qarşılaşma səhnəsinə. Müəllif bir qədər publisistik xarakter daşısa da, ritorik suallardan çəkinmir. İnsanın - öz insanlığından qaçmaq istəyən, ümumiyyətlə, insan cəmiyyətindən ayrılmaq istəyən insanın mənəvi dünyasında gedən dəyişikliklərə haqq qazandırmaq üçün bu ritorik suallardan yerindəcə istifadə edir. *"Ey Ulu Yaradan...* ***(burada müəllif Tanrının digər qüdrət kəsb edən xüsusiyyətlərini sadalayır - Ə.X.)*** *Niyə yaratdıqlarından birinin içi işıqla dolu olur, başqa birinin qəlbini zülmət xofu basır... Nə üçün məni və mənim kimiləri ayrı donda, biçimdə deyil, başqa xislət sahibi deyil, məhz insan yaratmısan? Niyə? Nə üçün? Olmazdımı ki, zəkalarına görə həmcinslərini neçə min il qabaqlamış Platonlara, Aristotellərə, İbn Sinalara, Nizamilərə, Tusilərə, Nyutonlara, Eynşteynlərə artıq ömür verəydin. Onların görmək, duymaq, dərk etmək qabiliyyətlərini bir az da artıraydın, genişləndirəydin. Əsrlərlə kainata, yerə Allahlarsayağı tamaşa etmək imkanı yaradaydın? Niyə? Niyə?"* **("Həyat eşqi" səh.17).** Diqqətli oxucu gördü ki, insanın düşüncələri bir qədər ziddiyyətlidir. O, Allahın təkliyinə inansa da, onun daxili alə-

mində bir şübhə var ki, kainatda o, tək deyil. Çünki Allah yox, **“Allahlarsayağı”** ifadəsi işlədir öz düşüncəsində. Və burda başqa bir məsələ də ortaya çıxır. Bir növ əsərin Müdrik İnsan adlı qəhrəmanı əslində arzulayırmış ki, yerdəki insanlar arasından seçilmişlər Allahlıq səviyyəsinə yüksəlsinlər. Ona görə də bəşər zəkasını, bəşərin elmi-mənəvi aləmini qeyri-adi dərəcədə zənginləşdirmiş şəxsiyyətlərin birbaşa adlarını çəkir. Və bu sualların qabağında nə hadisə baş verəcəyini oxucu da gözləyir. Elə bu vaxt: *“Günün günorta çağında qəflətən elə bir güclü zəlzələ qopdu, dağlar nəriltiylə yarıldı. Və ildırımlı bir səs sanki mis kimi cingildədi, ovulub-parçalanıb üstünə töküldü. Bu hökmlü nida mərhəmanə qəzəblə və bir qədər də ərklə qəlbini riqqətə gətirdi, beyninin min bir müəmmalar tumurcuqlayan dərinliklərinəcən işlədi: - Nə istəyirsən?*

*Onun boğazı qurudu. Gözləri az qala hədəqəsindən çıxdı. Üzüstə torpağa yıxıldı. Səmti, tufanı məlum olmayan səs qulaqlarında bir də cingildədi. Sözlər bir-birini qılınclaya-qılınclaya təkrarlandı və qayalıqda vahiməli əks-səda verdi. O, sanki ayıldı, özündə yalnız indi cəsarət tapdı və ehmalca başını qaldırıb titrək səslə: - Qartal olmaq istəyirəm... - dedi* **(“Həyat eşqi” səh.18).** Bu səhnədə iki obrazın qarşılaşdığını görürük. Tanrının və insanın. Artıq qeyd etdiyimiz kimi, Tanrının özü görünməsə də, qüdrəti görünür, gücü görünür. Qeyri-adi vahiməli gurultunun, nəriltinin müəllifi ancaq Tanrı ola bilər. Zəlzələlərsayağı dağı

parçalayır. Artıq Tanrının hər yerdə görünə bilmək, hər yerdə ola bilmək imkanını da burda hiss edirik. Yarılmış dağların arasından səs gəlir. Belə çıxır ki, Tanrı eyni vaxtda, həm də yerin təkində də ola bilər. Əlbəttə, bütün bunların hamısı ilə müəllif Tanrı qüdrətinin sonsuzluğunu vermək istəmişdir. Amma məsələyə başqa cür yanaşanlar da var. Məsələn, **Yaşar Qarayev "Meyar şəxsiyyətdir" (Bakı, "Yazıçı" 1988. səh.71)** kitabında yazır: *Yunan müdriki Protaqor demişdir ki, insan bütün şeylərin ölçüsüdür. Bəli, insandan kənarda mövcud olan predmet və hadisələrin meyarı insandır. Bəs insanlararası münasibətlərdə ölçü, meyar nədir?" Alim sözünə davam edərək sualına özü cavab verir: "Meyar şəxsiyyətdir". Və daha sonra yenə qeyd edir: "Harda olsursa-olsun həqiqi meyar həqiqi başlanğıca söykənir. Və hər cür kamillik əxlaqi kamillikdən başlayır".* Bu sitatların əxz olunduğu mənbə tanınmış ədəbiyyatşünas-alim **Qurban Bayramovun "Yaşar Qarayev: Yaddaş təlimi - azərbaycançılıq"** monoqrafiyasıdır. Və bu mənbəni təsadüfi xatırlatmadım. Yəni həmin fikrin varisliklə davam etdirildiyini nəzərə çatdırmaq istədim. Demək, mənəvi sərvətləri əxz eləmiş insanlar bəşəri həqiqətləri varisliklə yeni nəsillərə ötürürlər. Başqa sözlə, **Qurban Bayramov** da **Yaşar Qarayevin** məlum tezisi ilə həmfikirdir, necə ki, Yaşar Qarayev antik yunan müdrikinə istinad edirdi.

Müdrik İnsan Tanrı hüzuruna yola başlamazdan əvvəl özünə hesabat vermişdi: O Tanrı hüzuruna han-

sı üzlə gedir? Bəlkə onun elə bir qəbahəti var ki, bu dərgaha çatmaq üçün onun qarşısında maneəyə çevrilər. Amma yox, belə bir hadisə ağlına gəlmir. Ola bilsin ki, yaşadağı ömürdə insanlığa qədərincə xidmət edə bilməyib, heç insanlara da doğmalaşa bilməyib. Amma onun əxlaqı, mənəviyyatı yaşadığı çətin həyatın bütün çamurluqlarından saf və sağlam keçib. Təsadüfi deyil ki, müəllif öz əsərinin qəhrəmanını keçdiyi yolda belə dəfələrlə sınaqlar qarşısında qoyur. Sonsuz əzablara məruz qalır. Həyatının ən çətin anında belə məqsədindən, məramından dönmür. Əzm və iradə göstərir. Şübhəsiz, Tanrı da beləlƏrini sevir.

«Həyat eşqi» əsərinin baş qəhrəmanı dərdi duyan, dərdin nə olduğunu bilən insandır. Əsərdə o, Müdrik kimi təqdim olunur. Ancaq hiss olunur ki, o, müdrikliyi dərdi daşımaqda yox, Tanrı hüzurunda bu dərddən imtina ilə haqqa qovuşmada görür.

Bəli, Tanrı və İnsan üz-üzə gələcək. Müdrik İnsan Tanrıya üz tutanda yaxşı bilirdi ki, bu ürəyində gəzdirdiyi qeyri-adi istəyi istənilən bəndənin dilindən Tanrı eşidə bilər. Amma bu istəyə nail olmaq hələ sual altındadır.

# UÇA BİLSƏM

Artıq məlum olduğu və qeyd etdiyimiz kimi, müəllif əsərdə sanki iki böyük şəxsiyyəti qarşılaşdırır - Tanrını və Müdrik İnsanı. Şəxsiyyətlər bir-birilə qarşılaşanda onların arasında dumanlı heç nə qalmır. Və Tanrının səsindəki aydın nitq ifadəsini sanki oxucu da eşidir: “Nə istəyirsən?”.

Hələ indiyə qədər Müdrik İnsanın mənəvi dünyasındakı istək dumanlı idi. Görünür, ona görə dumanlı idi ki, səsinin Tanrıya çatıb-çatmayacağına tam əmin deyildi. Və Tanrının səsini eşidəndə başa düşür ki, yerin-göyün sahibinin çox aydın şəkildə verdiyi suala özü də aydın cavab verməlidir. O, Qartal olmaq istədiyini bildirir. Çünki həmin anda səmada süzən qartalı görmüşdü.

Bir anlığa düşünək; ruhumuzun ucalığından həyatın dərinliklərinə - üzüaşağı baxmaq imkanımız var. Qanadlı xəyallar öz ucalığından enərmi? Qopub ayrıldığı aşağılara bir də qayıtmaq istəyərmi? Bəlkə bu arzuların - istəklərin tükəndiyi, düşüncənin sona çatdığı yerdir. Həmin anda qarşı dağdan - zirvədən bir qartal qanadlarını çırpıb səmanın daha üzü yuxarılarına millənir. İnsan niyə qartal olmaq istəməsin: Həmin anda insandan yuxarıda Tanrıdan aşağıda qartal görünür.

**V.Belinski** az qala iki əsr bundan əvvəl **Lermontovun "Zəmanəmizin qəhrəmanı"** romanı haqqında danışarkən sanki mətləbə dəxli olmayan uzaqlıqdan başlayır. Bütün ədəbiyyat aləmini təbiətin və cəmiyyətin özü kimi qəbul edir. Poetik bir çılğınlıqla, fəqət yazıçı ustalığı ilə mənzərəni çox aydın təsvir edir.

V.Belinskinin əsərinin qəhrəmanı bütöv ədəbiyyatdır. Onun obrazı sözdür. Yaxşılığından, ya pisliyindən, ucuzluğundan, ya bahalığından, böyüklüyündən və ya kiçikliyindən asılı olmayaraq heç nəyə ötəri baxmır. Elə ona görə də bu gün də Belinskinin təsvirləri çox real görünür, bu gün də meyarları dəqiqdir: *"Ədəbiyyatımızın fərqləndirici xarakteri onun hadisələri arasında olan kəskin təzaddır. Avropanın hər hansı bir ədəbiyyatını götürsəniz görəcəksiniz ki, onların heç birində - ən böyük əsərlərdən ən bayağı əsərlərədək sıçrayış yoxdur. Bunlar, sizin aşağıdan, ya yuxarıdan baxdığınızdan asılı olaraq, enən, yaxud yüksələn birpilləli pilləkənlə bir-birinə bağlan-*

*mışlar. Dahiyanə bədii əsərin yanında siz qüvvətli sənətkarların yaratmış olduğu xeyli əsər görərsiniz; bunlardan sonra çox da gözəl, diqqətəlayiq, az-çox yaxşı və sair belletristika əsərlərinin nəhayətsiz sırasını görərsiniz, beləliklə, siz orta istedadın yaratdığı çoxlu əsərlərə birdən-birə deyil, tədricən və hiss olunmadan gəlib çatarsınız... Məhz buna görə Avropanın bütün ədəbiyyatları o qədər məhsuldar və zəngindir ki, öz oxucularını bir an belə olsun zehni zövqün kifayət qədər ehtiyatından məhrum etmirlər. Bədii əsərləri ilə yoxsul və çox miskin olan Fransa ədəbiyyatı öz belletristika əsərləri ilə başqa ədəbiyyatlardan bəlkə də daha zəngindir və məhz bunun sayəsində Avropanın oxucuları üzərində öz müstəsna hökmranlığını saxlayır"* **(V.Belinksi, "Rus ədəbiyyatı klassikləri haqqında", Bakı - 1954. səh.198)**.

Hüseynbala Mirələmovun "Həyat eşqi" əsərində sanki hər bir təsvirdən sonra əsər bitir. Amma adicə bir səs, təbiətin daşı, qayası, ağacı, insanların baxışı - bütün bunların hamısı müəllifə stimul verir. Sanki əsərin qəhrəmanı kimi onun özü də həyatın döyünən nəbzindən enerji alır, güc alır. Enerjinin saxlanması və itməməsi haqqındakı, yalnız bir formadan başqa formaya keçməsi haqqındakı məlum qanunauyğunluq "Həyat eşqi" əsəri boyu sözün içincə təfəkkürün dumanlıqları arasından dolanıb keçir.

Müdrik İnsan yaşadığı ömürdə həyatdan doyubmu, yaxud həyatdan doymayıbmı? Bu sualı özünün daxili dərinliklərində qoruyub-saxlayır. Çünki yaxşı

bilir ki, onu qane edəcək cavabı artıq cəmiyyətdən ala bilməz.

Əlbəttə, burada əsərin dili haqqında hələlik danışmaq istəməzdim. Obrazı əsər boyu yaşadan, onu sonuncu mənzilinə aparan dilin daha dərin qatlarında yatan mənalardır və o dərin qatlardakı mənalara söykənə-söykənə müəllif yorulmadan, bezmədən, usanmadan öz qəhrəmanını izləyir. Bəlkə də, Müdrik İnsanı özünün sonuncu arzusuna doğru gedən yolda bir təsadüf haqlaya bilər. Dağdan yomalanan bir daşın altında əzilə bilər, lap əgər belə demək mümkünsə, bir nadanın gülləsinə tuş gələ bilər. Ancaq yazıçının söykəndiyi dilin məntiqi, hadisələrin qanunauyğun zəncirvari əlaqəsi obrazın taleyini həll edir, başqa sözlə, onu qoruyur.

Əsər oxucunun şüuruna hakim kəsilir. Obraz oxucunun mənəvi dünyasına daxil olur. Və onu özünə həmfikir, özünə munis edir. Oxucu da yorulmadan, bezmədən obrazla birgə sonsuzluğa üz tutur. Əsərin qəhrəmanı İnsanın arzusu oxucunun da arzusuna çevrilir.

İnsan düşünür: uça bilsəm, göylər boyunca süzsəm onda deyərəm ki, mən də yaşamışam, arzusuna uyğun düşünən insanğılın varlığı belə bir ruh üstə köklənib.

# HƏYATA OXUNAN NƏĞMƏ

Ən çətin şəraitdə cismani təklif aləmində insanı vahimə basır. Bəlalar sel kimi insanın üstünə axır. İnsan öz gücü və iradəsi ilə bütün bəlalara qarşı dayana bilirsə, əslində, öz insanlığını hifz etmiş, qorumuş olur. Nə üçün **Daniel Defonun** qəhrəmanı Robinzon Kruzo 28 il neçə ay adada yaşasa da belə, öz alicənablığını, insani keyfiyyətlərini, insanlıq qüdrətini itirmir? **Daniel Defonun** qəhrəmanı Robinzon Kruzo təbiətə qarşı münasibətdə elə mövqe tutur ki, bu, onun itirdiyi cəmiyyəti əvəz etmiş olur. Cəmiyyət isə onun ailəsi, qohumları, evi-eşiyidir. Ancaq o, təbiətlə elə doğmalaşır ki, quşlarla, itlərlə, pişiklərlə, hətta ağaclarla, dənizlə özü kimi, öz həmcinsi kimi söhbət edir. Bu məqamda o, artıq insanlığın mü-

qəddəslik mərhələsinə qalxmış olur. Və əslində, onu qoruyan da elə budur. Robinzon Kruzo gəmi qəzaya uğradıqdan sonra yarıbatmış gəmidən bəzi əşyaları sahilə daşıyır. Ağzı açıq pul kisəsindən yerə tökülmüş tədavül vasitəsini əyilib götürməyi belə artıq hesab edir: Siz artıq o qədər dəyərsizsiniz ki, sizi əyilib götürmək belə lüzumsuzdur. Bu, Robinzon Kruzonun cəmiyyətsizlik şəraitində gəldiyi qənaətdir, həyat eşqi adlanan amalıdır. Əslində, bu amalın məğzində dayanan əsas ideya ondan ibarətdir ki, o, insanların arasına qayıtmalıdır. O, bütün gücünü buna sərf edir. Bütün şüurunu səfərbər edib kimsəsiz adadan çıxmağın yolunu axtarır. O, öz insanlığını insanlar üçün qoruyur.

H.Mirələmovun “Həyat eşqi” əsərinin qəhrəmanı isə əksinə, insanlardan ayrılmaq yolu seçir. Və ilk baxışda oxucuya elə gəlir ki, insanlardan ayrılmaqla o, öz xoşbəxtliyinə qovuşacaqdır. Amma belə olmur. O, tezliklə səmaların ənginliklərində süzəndə belə, nəhəng bir palıda çevrilib torpağın köksündə bitdiyi vaxtda belə daxili bir yanğı ilə insanların arasına qayıtmaq istəyir, insanlarla birgə olmağın həsbəndini çəkir.

**Fenumer Kuperin** “Sonuncu Mogikan”ı Çinqaçuk cəmiyyətin qəddarlığına qarşı vuruşur və son anda üzünü günəşə tutur. “Bu, mənəm, Sonuncu Mogikan!” Bu xitab əslində Allaha, gözəgörünməz qüvvələrə müraciətdir. O, artıq başa düşür ki, əslində, Allahsızlığa tapınmağın yolunu tutmuş olanların qəd-

darlığı sayəsində o, bütün tayfasını itirmişdir. Sonuncu Mogikanın səsi eşidilir...

H.Mirələmovun "Həyat eşqi" əsərinin qəhrəmanı Qartal olmaq istəyəndə Tanrı onu eşitdiyi kimi, Palıd olmaq istəyəndə Tanrının razılaşdığı kimi, Daş olmaq istəyəndə yenə istəyinə çatdığı kimi və son anda insanlığa qayıdış harayının qəbul edildiyi kimi. Sonuncu Mogikanın səsi isə başqa cür eşidilir. Sonuncu Mogikanın səsi ədəbiyyat adamının, məsələn, konkret olaraq Fenumer Kuperin ürəyində əks-səda verir.

Deyilənə görə, **Lev Tolstoy Şeyx Şamilin** müridlərinə qarşı döyüşən ordunun əsgəri olub. Ancaq o, sonralar muridizm hərəkatına "Hacı Murad" adlı çox qüdrətli bir abidə qoyub. Bu, artıq **Hacı Muradın** son anda - başının kəsildiyi məqamda Tanrıya xitabının eşidilən səsidir. Bu gün Sonuncu Mogikan yaşayır. Ola bilsin ki, hələ min illər də yaşayacaq. Əfsanələrə çevrilərək, hinduların öz taleləri uğrunda vuruşduqlarını tərənnüm edən nəğmələrdə, nağıllarda.

İlk baxışdan oxucu bu müqayisələrin, paralellərin uyğun gəlmədiyi iddiasında da ola bilər. Əgər əsər oxunduqca bu məqamlar yada düşürsə, demək, müqayisə olunan tərəflərin qohumluq əlaqəsi var.

Yaşamağın, başqa sözlə, həyatın öz rəngləri var. Bu rənglərdən qeyri nə varsa, artıq o başqa həyatdır. Elə həyatdır ki, ona bizim əlimiz çatmadığı kimi, səsimiz də yetmir. Bu, o həyatdır ki, cənnətlə cəhənnəm xülyası ilə bizim dünyagörüşümüzə, həyata

baxışlarımıza daxil olur. Bir var arzulanan həyat, bir də var yaşadığın, hər gün problemləri ilə qarşılaşdığın həyat. H.Mirələmov "Həyat eşqi" adlanan dünyaya ayaq basmamışdan əvvəl artıq ədəbi aləmdə kifayət qədər səsi-sorağı eşidilən əsərlərin müəllifi kimi tanınmışdır. "Qayada çiçəy"in arzusu ilə, sıldırımların lap zirvəsinə çatmaq, orada artıq öz həyatının bitdiyi qənaətinə gəlmək və o yüksəklikdən gəldiyi aləmə doğru baxıb bu aləmin daha gözəl olduğunu dərk etmək insanın əbədi və əzəli arzusu ilə barışmaq deməkdir.

Həyat sevgisi. Bu hiss uğrunda mübarizəni "Xəcalət" povestinin qəhrəmanı Vətənin timsalında daha aydın görürük. Yaralı Vətənin qarın üstündə addım-addım sürünməsi, son anda hər addımını öz övladları üçün pay, ənam kimi düşünməsi, çölün canavarı ilə göz-gözə, nəfəs-nəfəsə dayandığı anlarda biz həyatın şirinliyini daha yaxşı dadmış oluruq.

"Həyat eşqi" əsərinin qəhrəmanı İnsan min illər boyu keçdiyi yolla sübut etmək istəyir ki, əsl həyat onun insan olaraq yaşadığı həyatdır.

"Həyat eşqi" əsəri insan olaraq yaşamağın gözəlliyinə oxunan nəğmədir.

## SUSDUNSA DÜŞÜN!

Təbiət cəmiyyətin həyatına müdaxilə edir, yoxsa cəmiyyət təbiətə təcavüz göstərir? Bu, nə dərəcədə təbiət elminin işidirsə, o qədər də cəmiyyətşünasların, filosofların və həm də yazıçıların işidir. Problemi şərh etmək, qarşılıqlı təmasda hansı tərəfin qalib gəlmək ehtimalı olduğunu sübut etmək üçün hər kəs özünün mənəvi prinsiplərindən çıxış edə bilər. Məsələn, alim düsturlardan, statistikadan istifadə edə bilər, uzun illərin elmi müşahidələrinin nəticəsini söyləyə bilər. Yazıçı isə bu münasibəti obrazlar əsasında - öz təxəyyülündən gələn işığa görə, özünün mənəvi hökmlərinə görə bildirəcəkdir. Hər halda, mahiyyət dəyişmir. *"Təbiətdəki bütün varlıqlar yaşadıqları areala hər cəhətdən uyğunlaşırlar. A.Kamyudan çıxış etsək, insan da yaşadığı coğrafi məkanın bütün*

*xarakterik xüsusiyyətlərinə yiyələnməlidir. Bütün canlı orqanizmlərdə öz nəsillərini mühafizə etmək üçün anadangəlmə instinkt hissi vardır. Özünüqoruma hissinin bəzi cəhətləri həyatda qazanılır. Elə bu hissdir ki, insan tarixən tək yaşaya bilməyib. Özünü qorumağın ilk forması insanı icmadan millətə qədər uzun bir yol keçməyə vadar edib"* **(X.Göyyallı, "İnsan səsi" səh.204. Bakı-1997).**

Demək, **A.Kamyu** kimi mütəfəkkir bir yazıçı da insanın təbiətin xüsusiyyətlərini əxz etməsini, coğrafi məkana uyğunlaşmasını təsdiq etmişdir.

"Həyat eşqi" əsərinin qəhrəmanı cəmiyyətdə doğulub-böyümüş, cəmiyyətin öz bətnindən qopmuş İnsandır. O, cəmiyyətin insana verməli olduqlarının hamısına sahib olmuşdur. Doğrudur, əsərin özündə insanın bütün imkanlara sahib olub-olmadığı barədə heç nə deyilməsə də, təsadüfi deyil ki, onun başqa adı yoxdur. O, İnsan adı ilə təqdim olunur. İnsan adı ilə təqdim olunursa, demək, cəmiyyətin qazandığı bütün maddi sərvətlər onun özününküdür. Demək o, maddi çətinliklər üzündən bezməyib, bir tikə çörək ucundan çöllərə düşməyib. Yəni öz qarnını doyurmaq məqsədi deyil onu çöllərə salan. O, ömrünün elə bir yaşına gəlib çatır ki, - əsərdə 40 yaş göstərilir - ölümün nəfəsini hiss edir. Ölümün nəfəsini hiss edən insan qorxmur, sadəcə olaraq ölümlə barışmır. Çünki onun şüuru var, çünki o, dərk edir ki, yaşamaq daha gözəldir. Artıq onu heç bir izah qane etmir. O, heç özü də bu izah-

lara təşəbbüs göstərmir. Onu artıq məqsədindən heç nə döndərə bilməz. Bu andan etibarən o, ölüm hissinə qarşı mübarizədə hər şeyi unudur. Onu yetirən, böyüdən cəmiyyəti və cəmiyyətin timsalında öz yaxın ətrafını, qohum-əqrəbasını, qardaş-bacılarını, ata-anasını, hətta onun ətrafında oynayan qardaşı uşaqlarını, bacısı uşaqlarını... əslində o, insan cildindən çıxmaqla, eqo hakimiyyəti yaratmaqla, yurd, vətəncanlı olmaq duyğusunu insaniliyə qarşı qoymuş olur. Bununla da insanı-insana bağlayan doğmalıq - sevgi hisslərindən də imtina etmiş olur.

**Nazim Hikmətin "Yaşamaq gözəl şeydir, qardaşım"** romanından son epizodlara diqqət edək: *"Ziya mənə bir şeir oxu dedi. Oxudum: Sevdayam təpədən-dırnağa, Sevda görmək, düşünmək, anlamaq... Sevda doğulan cocuq, yeriyən aydınlıq Sevda yelləncək qurmaq ulduzlara Sevda polad tökmək qan-tər içində..."* (s.177)

Diqqət olundusa, Nazim Hikmət bir mütəfəkkir olaraq - təbii ki, burada Nazim Hikmət təkcə şair deyil və poetik əhvalla yanaşmır məsələnin mahiyyətinə - həyatın, yaşamağın mahiyyətini ancaq tükənməyən, ürəyin çırpındığı qədər davam edən sevgidə, sevdada görən sevdalıdır. Təsadüfi deyil ki, Nazim Hikmət həyatın mahiyyətini sevdada, sevgidə olduğunu əsərin sonunda mütləq qeyd edir və özü də bu cür poetik şəkildə. Amma əsərinin adı "Yaşamaq gözəl şeydir, qardaşım" adlanır.  Mənə elə gəlir ki, əsərin adı ilə son akkordları arasında qəribə bir təzad var. Yaşamağın gözəlliyindən danışır müəllif, həyatın

gözəlliyindən danışır Nazim Hikmət. Ancaq o da mahiyyətcə razılaşır ki, nə qədər gözəl olsa da yaşamaq, bir gün qurtarır. Sevdayla yaşamaq, təpədən-dırnağa sevgiylə yaşamaq, sevginin doğulan cocuq, yeriyən aydınlıq olduğu qənaətinə gəlmək... həyatın gözəlliyini ancaq bu mahiyyətdə başa düşməyin daha doğru olduğu qənaəti deməkdir. Nazim Hikmətin lap astanasında dayandığı bir həqiqət də var. Deyir ki, "sevda yelləncək qurmaq ulduzlara". Və ulduzlara yelləncək qurmaq üçün qan-tər içində polad tökməlisən. Bu, artıq zəhmət deməkdir. Bu, bəlkə də, Nazim Hikmətin bir kommunist düşüncəsidir. Ancaq gözəl düşüncədir, arzulara yapılmış heykəl deməkdir. Demək, bütün sevdaların hamısı arzulara xidmət edir. Əgər söhbət pak və ülvi, təmiz sevdadan gedirsə, o arzular da müqəddəs olacaqdır, o arzular da ali olacaqdır.

"Həyat eşqi" əsərinin qəhrəmanı İnsanın sevdası həyatdır. Onun son və böyük arzusu yaşamaq, nəfəs almaqdır. Doğrudur, əsərin elə məqamları var ki, oxucuda belə bir təsəvvür yaranır - İnsan həyatda seyrçi olmaq istəyir. O, sadəcə daha uzun ömür qazanmaqla həyatın sonunun nə ilə qurtaracağını görmək istəyir. Türk yazıçısı **Sevinc Cokumun** "Bizim diyar" romanından bir fraqment: *"- Fikirlərimi söylədim, ana. "Canını fəda etməli olan bizik". İçində "Bu acı sözdür", - dedi. Bu, məni vuran bir sözdür. Uzaqdan qayğılanmaq, xəyal etmək başqa, sarp qayalara vurmaq, ayazda, qarda o işığı axtarmaq başqa... Mənə susmaq yaraşardı. Biz canımızı qoyduq ortaya deyilmişdi. Mən*

*ancaq ev işləri görüb bağçalarda gəzinməliyəm. Bəs ölüm necə gözlənir ki? Ona necə alışılır? Səlanikdəki qadınlar... Mən bu yaranı deşməyə getdim. Rıfat dilimi saxlamayacağımı sezmişdi. Buna görə də otağa gəlməyimi istəmirdi"* **(Gənclik - 1992. səh.103).** Elə bil "Həyat eşqi" əsərinin qəhrəmanı İnsanın yolu təsvir olunur. Özünün əlyetməz-ünçatmaz arzusuna doğru yolda canını fəda etməli olanın taleyindən söhbət gedir. Doğrudan da, əlçatmaz uzaqlıqlara doğru baxıb qayğılanmaq, xəyal etmək, arzulamaq başqa, o arzuların özünə doğru sarp qayalara varmaq, ayazda, qarda o işığı axtarmaq başqa. Əlbəttə, bunların fərqi var. Hətta bir məqam da çox bənzəyir; Sevinc Çokumun qəhrəmanı "mənə susmaq yaraşardı", - deyir. Hüseynbala Mirələmovun əsərinin qəhrəmanı İnsan bütün yol boyu öz arzularına doğru, mübarizədə sonsuzluğa doğru səyahətdə bir kəlmə də danışmır. Onun səsi çıxmasa da, yaşadığı ömürdə gördükləri daim xəyalı ilə onu təqib edir. O düşünür, düşünür, düşünür... İnsan susduğu anlarda düşünmək imkanını qazanır. Bu zaman o, öz yerini müəyyən etməli, mövqeyinin düzgün olub-olmadığını özü üçün aydınlatmalıdır. "Həyat eşqi" əsərinin qəhrəmanı susduğu anlarda düşünür; ancaq nəyi, tanrıya necə yol tapmağı, əbədi həyatı necə qazanmağı... Susmağı müdrikliyin donu kimi görünən Müdrik İnsan (hər halda adı belədir, onun mənəvi mühitini tam ehtiva etsə də, etməsə də) susduğu anlarda - bütün düşüncəsi boyu bir dəfə də

olsun doğulub-böyüdüyü mühitin taleyini düşünməyib. Bir sözlə, faciəsi, faciəsinin səbəbləri onu heç vaxt narahat etmir. Ancaq özü narahatdır, daxilən nahatdır, yaşamaq, mövcud olmaq narahatlığı var onda. “Cəmiyyətdə narahat adamlar ora-bura vurnuxmaqla, gəlib post-vəzifə tutur, ziyalılıq mühitini məhv edirlər” **(Nizami Cəfərov)**. Professorun fikrindən gələn nəticə budur ki, ziyalılıq forma deyil, eləcə də ad Müdrik İnsan olmaqla insan müdrikliyin açarına sahib olmur. N.Cəfərov fikrinə davam edir: “antimilli köklər üzərində yetişmiş ziyalılar da düşünməlidirlər ki, bu millətdə köklərini tapsalar daha yaxşı olar və məhvə getməzlər. Dəqiq bilirəm ki, öz millətinə lazım olmayan bir insan heç bir millətə lazım deyil” (“Seçilmiş əsərləri”, dördüncü cild. Bakı-2007, səh.180). Bircə əlavə qalır: heç Tanrıya da lazım deyil. “Həyat eşqi” əsərinin qəhrəmanı düşüncəsində yaddaşından, keçmişindən, onu yetirən mühitdən imtina etdiyinə görə, dəyərini itirmiş insandır. Susur, ancaq düşünə bilmir.

# İDEAL - HƏYATIN MƏNASI

Ümumiyyətlə, insanlar bəzən şöhrətin çoxluğundan bezirlər. İnsanlar elə bir məqama gəlib çatır ki, ömrü boyu arzuladıqları maddi sərvətlərin hamısından imtina edirlər. Cəmiyyətdə belələri var. Bütün varidatını bir yetimə bağışlamaq, bir uşaq evinə hədiyyə etmək əvəzinə, **S.Vurğunun** çox ironiya ilə (həm də elə haqlı olaraq) cəmiyyətə tanıtdığı "London qarısı" öz varidatını, pulunu itlərə, it saxlayanlara vəsiyyət edir.

Hər halda Bakının küçələrində də öz itinin xaltasından tutub səssiz-səssiz parkları dolaşanları az görmürük. Hər halda onlar da kinoya baxmaqdan, teatra getməkdən, pul qazanmaq üçün çalışmaqdan, yaxşı bir qonaqlıqda iştirak etməkdən, nəvazişə,

qayğıya ehtiyacı olan bir qohumunu ziyarət etməkdən daha üstün tutur öz itləri ilə tənha qalmağı.

Bu, hansı hissin təsiriilədir? Bəlkə, bu hisslərlə cəmiyyətdən imtina edib, cəmiyyətdən daha yuxarılara doğru can atmaq meyli insanı öz "arealından" çıxarmışdır. Dünyanın ən çox oxunan və ən qüdrətli yazıçılarından biri **Qabriel Qarsia Markes** də jurnalistə müsahibə verərkən qəribə cavablar səsləndirir:
"- *Siz nə üçün yazırsınız?*

- *Mən yazmağa başlayanda yalnız bir məqsəd güdürəm: dostlarımdan birinə sübut eləmək istəyirdim ki, bizim nəsil də öz yazıçılarını yetirə bilər. O vaxt mənim 17 yaşım vardı.*

- *Bunu siz təkcə dostunuza deyil, bütün dünyaya sübut etdikdən sonra bir yazıçı kimi özünüz haqda nə düşünürsünüz?*

- *Düşünürəm ki, ölsəydim daha yaxşı idi. Məşhur yazıçıları olmayan bir qitədə doğulmuş və həmişə şöhrətdən uzaq qaçan bir adama düşdüyüm vəziyyətdən ağır cəza düşünüb tapmaq çətindir. Hamı məni əyləncəyə döndərmək istəyir; mənimsə televiziya verilişlərindən, yazıçı konqreslərindən, kütləvi mühazirələrdən zəhləm gedir. Mən öz oxucularımdan on min kilometrlərlə uzaqda, dörd divar arasında gizlənməyə çalışsam da, yenə məni rahat buraxmırlar, gördüyünüz kimi, evim əsl bazara oxşayır. Bu son on beş gündə verdiyim dördüncü müsahibədir"* **("Bağban". Bakı-1990, səh.323).**

Hər halda şöhrət mənəviyyatın hakimi olanların

yaxasından daş kimi asılanda artıq yükə çevrilir. Çox nadir hallarda olsa da, konkret olaraq Markesin timsalında insan bu şöhrət adlanan nəsnədən başını götürüb qaçmaq istəyir. Markes lap çarpayının altına girməyə də razı olardı. Təki onu reportyorlar tapmasınlar. Hərçənd ki, Markesin özü ömrü boyu şöhrətli bir reportyor olmaq istəmişdi. İndi İnsanla Markes arasındakı əlaqələrin hansı fəzada birləşib-birləşmədiyini axtarmaq fikrində deyilik. İnsan da cəmiyyətdən qaçır, əslində, Markes də cəmiyyətdən qaçır. Ancaq onların arasındakı səddi, bəlkə də, uçurumu da görməmək mümkün deyil. Markes müəyyən iddia ilə ədəbiyyata gəlmişdir. Sadəcə, öz nəslindən də yazıçı ola biləcəyini sübut etmək üçün. İnsan isə əbədi yaşamaq arzusunu gerçəkləşdirmək niyyətilə səyahətə çıxmışdı. Əsərin qəhrəmanı Qartal olub göylərin ənginliklərinə qalxanda qürur hissi keçirir. Çünki göylər sərhədsizdir, bölünməmişdir. Doğrudur, quşların da yuvaları var. Quşlar da gecələmək üçün yerə enməli olurlar. Sadəcə, bir yuva ilə kifayətlənirlər.

Təbiət haqqındakı filmlərdən də gördüyümüz kimi, vəhşilər həmişə öz areallarını qoruyur. İnsanın məqsədi qartal formasında olsa da, insanlıq düşüncəsi ilə özünə yem axtarmaq fikrində deyil. Sadəcə, nə vaxt ehtiyacı olursa, onda yerə enir.

İnsan təbiət kimi cəmiyyətin özünü də sərhədsiz görmək istəyir. Savannalarda şirlər, pələnglər, zebrlər, hətta meymunlar eyni vaxtda göllərdən su

içir, çəmənlərdə gəzir, yırtıcılar ancaq yem ehtiyacı hiss edəndə ən yaxında girinə keçəni, yaxud zəif olanı parçalayır.

Əsərin qəhrəmanı İnsanı cəmiyyətdən uzaqlaşdıran, cəmiyyətdən aralayıb, qoparıb, üzü Allaha doğru yol tutmağa vadar edən hissi əslində cəmiyyətdəki ədalətsizliklərə qarşı etirazdır. Axı nə üçün insan hasar tikməlidir, sərhəd çəkməlidir? Əgər insan bütün canlılardan daha şüurlusu, daha ağıllısıdırsa, nə üçün bir-birilə dil tapa bilmir. Qartal - İnsanın hələ də göylərin üzündə süzdüyü vaxtda belə cavab tapmadığı suallar bunlardır: *"Səma ağılagəlməz dərəcədə geniş və sonsuz olduğundan ərazilər bölünməmişdi, çəpərə alınmamışdı. Hündür hasarların əhatəyə aldığı malikanələr, mülklər, Allaha şükür ki, göydə yoxuydu, yalnız Yer aləmində mövcuduydu. Bu da göyün yerdən böyük üstünlüyüydü. Ağlına gəldi ki, bəlkə bir vaxt, göylər də münbit ərazilərə bölünəcək, evlər tikiləcək, saraylar ucaldılacaq, hər qarışı özəlləşəcək. Bu qorxulu fikri özündən uzaqlaşdırmağa çalışır"* **("Həyat eşqi", səh.21. Bakı-2005).**

Qayıdaq söhbətin o yerinə ki, İnsan cəmiyyətdən imtina edir. Doğrudanmı genetik doğmalarına olan hissi onun yaddaşını göynətməyəcək, qohumları yadına düşməyəcək? Qohumları ilə danışmaq, onlarla ünsiyyətdə olmaq arzusunda olmayacaq? Axı o, insan düşüncəsini saxlayır. Əsərin özündə bu suala müsbət cavab verilir. Demək, nə qədər insan öz insanlığında qalırsa - formasını, şəklini dəyişmiş ol-

sa belə, insana aid olan hisslərdən yaxasını qurtara bilməz.

Qartal-İnsan uçub köhnə həyatə gəlir, ağaca qonur, öz doğmalarını gözləri ilə ziyarət edir. Ancaq bir həqiqət var ki, o, öz arzusuna yetmək üçün demək olar ki, cəmiyyətin ona verdiyi hər şeydən imtina edir. Maddi olanlar bir tərəfə, hətta mənəvi olanlardan da.

XX əsrin görkəmli ingilis nasiri **Uilyam Somerset Moemin** (1874-1965) "Ay və qara şahı" romanının qəhrəmanı Çarlız Striklənd rəssam olmaq həvəsinə düşür. O, bunun üçün bütün dostlarına, ailəsinə, ona yaxşı dolanışıq vəd edən vəzifəsinə "tüpürür". Və inanır ki, həvəsinə düşdüyü rəssamlıq onu fəzalara qaldıracaqdır, ona qanad verəcəkdir.

İndi tənqidçilər lap elə sıravi oxucular üçün bu məsələnin həlli mübahisəli olaraq qalır. Striklənd bütün mənəvi meyarlara arxa çevirəndə düzgün hərəkət etmişdirmi? Haqlı olaraq hamının nifrətini qazanmaq ona qarşı ədalətli cəza idimi? Axı son nəticədə Striklənd dahi bir rəssam kimi xatırlanır. Cəmiyyət fərdlərə qarşı həmişə amansızdır. Əgər Striklənd həqiqətən səmalara qaxa bilməsəydi, o, özünün qüdrətli istedad sahibi olduğunu sübut edə bilməsəydi, arvadı və övladları tərəfindən həmişə nifrətlə xatırlanacaqdı. Ancaq əsərin sonunda çox güclü bədii məntiqlə Strikləndin onunla doğma olduğunu, ən azı bircə dəfə rastlaşdığını, hətta Strikləndi uzaqdan gördüyünü belə hər kəs sübut etməyə çalışır və

bununla fəxr edir.

Şübhəsiz, Striklənd öz arzusuna çatmasaydı, heç kəsin yadına düşməyəcəkdi. Ümumiyyətlə, insanlar həmişə nəticəyə qiymət verirlər: *"Təəccüb və heyrətimi kapitan Brunoya izah etməyə çalışdım, o isə susub cavab vermədi.*

*- Strikləndə rəğbətimdə təəccüblü heç nə yoxdur, - nəhayət, kapitan dilləndi, - bir-birimizdən xəbərsiz olsaq da, həyatda hər ikimizin arzusu eyni idi.*

*- Lütfən, söyləyin görüm sizinlə Striklənd kimi iki müxtəlif adamı birləşdirən hansı arzudur elə? - gülə-gülə xəbər aldım.*

*- İkimiz də gözəlliyə vurğunuq.*

*- Gözəllik geniş məfhumdur, - dedim.*

*- Yəqin bilməmiş olmazsınız ki, məhəbbət əsiri olan adamlar dünyada sevgilərindən başqa hər şeyə kar və kor olurlar. Eşqə mübtəla olanlar çarmıxa çəkilmiş qul kimidir - ağlı başında olmur. Strikləndin də qəlbinə güclü ehtiras hakim kəsilmişdi. Bu ehtiras ona məhəbbətdən az əzab vermirdi.*

*- Qəribədir, çox qəribədir, - ucadan dedim. - Lap çoxdan mən də bu fikirdəydim ki, mən Strikləndin ağlını başından alım.*

*- Strikləndin arzusu gözəllik yaratmaq idi. Bu arzu ona rahatlıq vermir, ölkədən-ölkəyə qovurdu. Onun qəlbinə girmiş iblis olduqca rəhimsizdi. Bu səbəbdən də Striklənd əbədi səyyah idi, gözəlliyə qovuşmaq həsrəti ruhuna iztirab verirdi. Adamlar var ki, həqiqət adlı mənaya qovuşmaq üçün dünyanı məhvə-*

*rindən oynatmağa hazırdırlar. Striklənd də belələrindən biriydi, lakin onun can atdığı həqiqət gözəllik idi. Ancaq onu da bilirdim ki, Strikləndə yazığım gəlir.*

*- Burası olduqca maraqlıdır. Bir dəfə Strikləndin kobudcasına təhqir etdiyi bir adam da mənə demişdi ki, ona bərk yazığı gəlir. - Azca ara verib sonra sözümə davam elədim. - Doğrudanmı mənim heç vaxt başa düşə bilmədiyim bir adamın xarakterini açmağa müvəffəq olmusunuz? Bu, hardan ağlınıza gəldi?*

*O, gülümsünüb mənə sarı çevrildi.*

*- Məgər sizə deməmişəm ki, mən də özümə görə bir rəssamam? Axı Strikləndə rahatlıq verməyən istək elə məni də için-için qovururdu. Amma Striklənd üçün bu iztirabın ifadə vasitəsi şəkillər, mənim üçün isə həyatın özüydü"* **(Somerset Moem: "Ay və qara şahı", Bakı - 1993. səh.178-179).**

Əgər insansansa, əgər insan olduğunu unutmamısansa, əgər insan olmağınla fəxr eləyirsənsə, iztirab sənin həyatının mənasıdır. İnsan öz iztirablarından bezdiyi anda canından bezmiş olur. Əgər insan bilmirsə ki, iztirab onun həyatını gözəlləşdirən yeganə amildir, onda həyat əhəmiyyətini itirir, onda həyat insan üçün əzab-əziyyət, zillət məkanına çevrilir. Bəlkə də bütün intiharların, özünü ölmə məhkum etmələrin əsasında bu dayanır. Striklənd isə iztiraba doğru gedir. O, çəkdiyi iztirablrın hələ az olduğu qənaətindədir. Onu dahiliyə aparan yol budur.

"Həyat eşqi" əsərinin qəhrəmanı İnsan da bu iztirabı ifadə vasitəsi olaraq əbədi ömür arzulayır. Əs-

linə qalsa, o iztirablarla yaşamaq, öz insan düşüncəsi ilə ağrıları, fəlakətləri seyr etmək, görmək arzusundadır. Bu iztirabdaşıma hissi, bu iztirabı görmə hissi insanın həyatını bizə sevdirir, bizi bıkdırmır, bezdirmir. Dərinliklərə vardıqda isə...

Müqəddəs ideallar var. O ideallar insanın qəlbinə hakim olmalıdır. Ancaq bu hakimlik üçün insan öz qəlbinin qapı və pəncərələrini açıq qoymalıdır. İnsan kar və kor olsa belə, özünün yaşadığını diktə edə bilər. **Mirzə Məhəmmədhəsən Nalə - Fələkzadə** adlı bir muğam ustası və şair olub. Ömrü boyu yaratdıqları kağıza köçürülmədən onun yaddaşına yazılıb. Kar və kor olduqdan sonra, həyatın əbədi olmadığını dərk etdikdən sonra əsl əbədiyyət məktəbini axtarıb - yəni əsərlərinin çapını arzulayıb.

İdeal, ideal. Sən necə gözəl, necə şirin, necə dadlısan. Sən həyatın mənasısan. Məni yaşamağa, yaratmağa sövq edən yeganə amilsən. Mənim yazmaq həvəsim, ilhamım, həyat eşqim, insanlığa sevgim... bir sözlə, idealım, sən varsan, mən də varam!..

# TANRI NƏYİ BİLİRDİ?

Bütövdən ayrılmış zərrələr yenidən tama - bütövə qayıtmağa - qovuşmağa can atır. Müdrik İnsan da (əsərin qəhrəmanı) bir tamdan (cəmiyyətdən) qopub ikinci tama (Tanrıya) can atır. Ancaq bir fərqlə; Tanrıya can atmaqla ona qovuşmaq yox, ondan ömür almaq məqsədini güdür.

Əbədi həyat arzusu onun varlığına hakim kəsilib. Onun varlığına hopan bu istək haradandır: Örnək varmı? Var, belə bir örnək elə Tanrının özüdür. Doğrudur, O, bunu nitqinə gətirmir. Ancaq Tanrının şəriksiz hakmliyini yada salmaqla, Ondan uca bir kimsəni görmədiyini... bir sözlə, böyük səmimiyyət donuna bürünərək Tanrıya yaxınlaşır. Əslində,

Tanrının ona verəcəyi pay, elə Yaradanın insana - insanlığa ironiyasıdır.

Həyat eşqi insandan qaçmaqdır, yoxsa insana doğru yol? Bəlkə də, bir qədər əsas məqsədə doğru gec gəlirəm. Yəni əsas ideya kimi götürülən sualın mahiyyətini açmaq və ona daha dəqiq və aydın cavab vermək lazım olduğu halda, fikirlər daha çox şaxələnir, hətta bəzən istiqamətlər dəyişmiş kimi görünür. Amma bu, üzdə belədir. Fikrin alt qatında yenə həmin əsas sual dayanır. Həm də bu sual təkcə bu günün sualı deyil. Bütün dünya ədəbiyyatı, dünya mədəniyyəti tarixi əslində, bu suala cavab verməyə çalışmışdır. O vaxtdan ki, insanlar mənəvi sərvətlər yaratmağa başlamışlar, o vaxtdan ki, insanlar öz sevinclərini və kədərlərini ədəbi-bədii üsullarla ifadə etməyə çalışmışlar, məhz o vaxtdan bəri bu qoyulan əsas suala da cavab vermək istəmişlər.

Təsəvvür eləyək ki, bir qəbilədən küsən qəbilə üzvü haraya üz tutacaq - başqa qəbiləyə, yoxsa tənhalığa? Əgər o, hər hansı bir qəbiləyə qoşulmasa, yaxud qəbul etməsələr yaşaya bilərmi? Həyat üçün lazım olan şəraiti özünə təmin edə bilərmi? Yəqin ki, bu, çox çətin olacaqdır. Ən azı ona görə ki, insanlar tarixən qrup halında yaşayıblar və onların yaşarılığını, müəyyən dövr ömür sürmələrini də şərtləndirən bu amildir. Ən azı insanın nəslinin kəsilməməsi üçün əks cinslərin birliyi vacibdir. Belə şəraitdə yəni ən azı iki nəfərin - qadının və kişinin birlikdə yaşaması gərəkdir...

Hüseynbala Mirələmovun “Həyat eşqi” povestinin qəhrəmanı milyon illər ərzində formalaşmış qanunauyğunluqdan imtina edir. Və imtina etdiyi üçün insanlardan qaçmaq yolu tutur. Onun getdiyi yer, ünvan məlumdur. Mənəvi olaraq bu ünvanı biz Tanrı dərgahı adlandırırıq. Amma əslində, o, təbiətə üz tutmuşdur. İnsan cəmiyyəti bu gün də təbiətlə müəyyən mənada qovuşuqdur. Bu qovuşuq əbədi təmas yaradır. Ancaq bu təmas xüsusi şərtlərlə, sərhədlərlə müəyyənləşir. Əslində, insan təbiətdən ibtidai-icma dövründən ayrılmışdır. İnsan şüur kəsb etdikcə özünün həyat tərzini yaratmış, özü müəyyən qanunauyğunluqlar formalaşdırmış və həm də bu qanunauyğunluqlara tabe olmuşdur. Məsələ burasındadır ki, insan nə vaxt o qanunauyğunluqları pozursa, fəlakətlə qarşılaşır; ya təbiət onu cəzalandırır, ya da cəmiyyət tərəfindən qanunla cəzalandırılır.

“Həyat eşqi” əsərinin qəhrəmanı İnsan nə vaxtsa peşman olacaqmı? Artıq bu sualı biz dəfələrlə vermişik. Bu, elə sualdır ki, onun cavabını bir əsərdə, bir xalqın nümayəndəsinin taleyində, yaxud hər hansı bir qitənin övladının həyatında axtarmaq lazım deyil. Bu, ümumi insanlığa aid olan sualdır və cavabı da gələcək yox, artıq bəşər tarixi çoxdan vermişdir. Təsadüfi deyil ki, müəllif öz əsərini Bəxtiyar Vahabzadəyə ithaf etmişdir. Və həm də B.Vahabzadənin “Həyat, sən nə şirinsən?” məşhur şeirindən təsirlənmə motivləri əsasında yazmışdır. B.Vahabzadənin məhşur bir misrası var: “İnsanıq, insan da bizə gərəkdir”. De-

mək, tez-gec insan Tanrının yanında olmaqdan da bezə bilər. İnsanın əzəli və əbədi duracaq yeri insanların arasıdır. Qartal İnsan bir gün Tanrı dərgahında ömrünün qurtardığını hiss edir. Bu zaman hansı düşüncələri yaşayır: *"O, yenə uca qayalıqda tənha oturub dünya üzünə baxa-baxa yenə "Allaha təvəkkül", - deyib yalnız və yalnız Tanrının özü ilə dərdləşmək istəyirdi. Çünki fürsət çatmışdı, sonra gec olacaqdı. Bu fani dünya kimə vəfa qılmışdı ki? Valideynləri bu dünyadan çoxdan köçmüş, qardaş və bacıları, onların uşaqları, uşaqlarının uşaqları da yəqin qocalıq sinninə, ömrün aşırımlı gərdişinə çatmışdılar. Qartal hiss edirdi ki, vaxt gələcək ondan da, onun yeri-göyü lərzəyə salan qıy-qışqırığından da heç bir əsər-əlamət qalmayacaq. Onun kölgə kimi bağrını yaran, bir kabus kimi təqib edən fikirlər Qartalı həddən ziyadə karıxdırır, darıxdırırdı. Hərçənd ki, qocalıq bəndi-bərəni kəsmişdi, sadiq köpək kimi qapının kandarından çəkilmək fikrində deyildi. Doğrudanmı, bu nisgilin, bu əlacsızlığın bir çarəsi yox idi?* **("Həyat eşqi", səh.37).** Qartal İnsan öz faciəsini dərk etmək məqamına çatmışdır. Bu, Qartal İnsanın mənəvi böhranının ən ağır mərhələsidir. O, bunu düşünməmişdi. Ağlına gəlməmişdi ki, canlı olan nə varsa öz ömrünü yaşayıb qurtarır və vaxt gəlir ki, ömrünü başa vurur. Onun başqa bir təskinlik istinadgahı da ola bilərdi. Yəni ki, yeni gələnə öz yerini vermək. O, öz həmcinsi ilə baş-başa qalardı. Ondan törənən qartallar səmada cövlan edər, qanad çalar, o da bu cavan qartalların uçuşundan fəxarət du-

yardı və bu dünyadan rahat köçərdi. O, bunu etməmişdir.

Burda qəribə bir eqoizm - ancaq özünüxilas düşüncəsi var. Yalnız öz həyatını hifz etmək məqsədi var. Qartal İnsan məhz həmin məqamda səhvə yol vermişdir.

**Üveys Qarani** ilə bağlı məhşur bir hədis var: "Deyilənə görə, Məhəmməd peyğəmbər öz çuxasını uzaq Nilin sahilində dəvə otaran bir şəxsə vəsiyyət edir. O, Üveys Qəranidir. Məhəmməd peyğəmbərin ölümündən sonra əsabələri həmin çuxanı Üveys Qəraniyə aparırlar. Qərani çuxanı alıb öpür, üz-gözünə sürtür. Sonra da - məni burada gözləyin, - deyib bir kənara çəkilir. Çuxanı yerə sərib onun üstündə əyləşir. Və nəsə Allaha dua etməyə başlayır. Əsabələr bir xeyli gözləyi onun gəlmədiyini görüb yaxınlaşırlar: - Sən burada neyləyirsən? - soruşduqda Üveys Qərani fikir içindəki dualarından ayrılıb cavab verir: - Bir az da gec gəlsəydiniz Allahımdan bütün insanlığa xilas alacaqdım".

Üveys Qəraninin bu parçada çox geniş və zəngin, mənəvi dünyası görünür. Qartal İnsan isə Tanrıya yalnız özü üçün üz tutmuşdur. Tanrı hər şeyi görən, bilən, duyandır. Şübhəsiz, Tanrıya məlum idi ki, Qartal İnsan gələcəkdə hansı iztirabları yaşayacaq. Madam ki, Tanrı dilə gəlmişdi, o vaxt Qartal İnsana deyə bilərdi: Mənim imkanlarımın nəhayətsizliyində sənin diləyin çox cüzidir. Sən o qədər cılız, o qədər zəif bir vücudsan ki, yalnız və yalnız özünü düşünürsən. Bəs sənin mənsub olduğun tayfa, sənin mənsub oldu-

ğun insan cəmiyyəti... həyat adlanan nəsnə təkcə sənə məxsus deyil axı? Sən bunları da istəyə bilərdin.

Nə qədər qəribə də olsa, hərdən mənə elə gəlir ki, əvvəllərdə bu dünyada yaşamışam. Elə Tanrı dərgahına can atan İnsanı da nə vaxtsa görmüşəm. Elə sağlığında ruha dönüb bu dünyanı dolaşanların olmağına da inamla baxıram: İsa Muğanna... Professor N.Cəfərovun "Məlumluqdan Məchulluğa" portret essesinin real obrazı yazıçı İsa Muğannanın Tanrı dərgahına "İdeal"la qalxdığını, onun həyati cizgiləri ilə təqdim edə bilib: "İsa Hüseynov düşüncəsinin miqyası (və tipologiyası) etibarilə ədəbiyyatdan kənara çıxır. Ümumən insanı, ümumən cəmiyyəti araşdırır". Və cəmiyyətin xilasını düşünür. "Həyat eşqi" əsərinin qəhrəmanının əksinə olaraq Muğanna Tanrı dərgahına ona görə qalxıb ki, bütün insanlığı nicat alsın. O, bizim aramızda şərti yaşayırdı. Çoxdan Tanrı dərgahında idi. "Çünki o, "nahaq dünya"da "haqq dünya"sının ruhu kimi dolaşırdı". "Həyat eşqi" əsərinin qəhrəmanı guya Tanrıya yetmək üçün dağlar, dərələr aşır, İsa Muğanna üçün Tanrı dağları onun mənəvi aləmindədir.

Bəli, Tanrı məhz insanla üzləşmə məqamında bütün bunları deyə bilərdi, çünki bunları bilirdi.

...Və əlbəttə ki, Qartal İnsanın gələcəyini də bilirdi.

# TƏNHALIĞIN ƏZABLARI

Müdrik İnsan - "Həyat eşqi" əsərinin qəhrəmanı cəmiyyətdən qopub. Bu ayrılma birinci növbədə onu tənhalığa düçar edib. Doğrudur, o çalışır ki, Tanrının özündən başqa qəlbinə heç nə yol tapmasın... Bütün bunlara baxmayaraq, təbiətə üz tutmaq hələ onun xoşbəxtliyi deyil. Alçalacaq, yoxsa ucalacaq?! Təbiətdə də olsa, hələ ki, insan düşüncəsi, yaddaşla yaşayır. Bu isə həyat - insan həyatı deməkdir.

İnsan mühiti - cəmiyyət xoşbəxtliklərin mənbəyi olduğu kimi, həm də bədbəxtliklərin, faciələrin, ağrı və kədərin də mənbəyidir. Cəmiyyətdə ayrı-ayrı fərdlər bəzən həyatın dibindən qalxıb onun ən ali məqamına yüksələ bilir. Bəzən də əksinə, ən ali məqamından yesirliyə, bədbəxtlik məkanına düşür. Bunlar

birdən-birə də ola bilər, tədricən də baş verə bilər.

Türk ədəbiyyatının qadın yazarları sırasında Suat Dərviş Xədicənin xüsusi yeri var. Böyük türk şairi Nazim Hikmət **Suat Dərviş Xədicənin** yaradıcılığını türk ədəbiyyatının qızıl dövrünün məhsulu adlandırıb. Suat Dərviş Xədicənin iki maraqlı qəhrəmanı var: birincisi, **"Fosforlu Cevriyyə"** romanının qəhrəmanı Cevriyyə ən iyrənc, şərəfsiz bir həyatın nümayəndəsidir, fahişədir, onun üçün gün ərzində görüşdüyü adamların heç bir fərqi yoxdur. Və nəhayət, Cevriyyənin görüşdüyü adamlardan biri onun qəlbində xüsusi duyğular oyadır. Bu duyğular Cevriyyənin daxili, mənəvi aləminin kataklizminə səbəb olur. Cevriyyə hiss edir ki, heç vaxt tanış olduğu adamların heç birisinə belə münasibət bəsləməyib; onun ürəyinin telləri titrəyir. Bu, artıq sevgidir. Əsl həyat sevgisi. Bu, artıq məhəbbətdir. Və bu ali duyğunun, bu müqəddəs hisslərin təsiri altında Cevriyyə durulmağa başlayır. Və əslində, həyatın dibindən baş qaldırıb qalxır. Son anda o, hətta bu ali hissin təsiri altında elə bu ali duyğular üçün özünü qurban verməkdən belə çəkinmir. Cevriyyə əsl insani məqama yüksəlmiş olur. Cevriyyə böyük eşq sayəsində həyatın dibindən Tanrı ucalığına qalxır. "Həyat eşqi"nin daşıyıcısı isə mənəvi ucalıqla yox, məsafə ilə gedir.

Suat Dərviş Xədicənin **"Ankara məhbusu"** romanının qəhrəmanı isə əksinə həyatı yaşayır. Cəmiyyətdə müəyyən mövqeyi olan, sayılıb-seçilən Vəsfi bəy bir təsadüf üzündən həbsxanaya düşür, öz işini itirir, dostları ondan üz çevirir və get-gedə səfilliyə, ən ağır

bədbəxtliyə düçar olur. Hətta bu məhvolma məqamında belə Suat Dərviş Xədicə öz qəhrəmanına zülmətin içindən bir işıq nəfəsliyi açır. Vəsfi bəy qəlbinə munis olan insanı tapanda bir təskinlik duyur. Bu, artıq onun üzünə açılmış yeni həyatın nəfəsliyidir. Bu nəfəsliyin özü də məhz Cevriyyə üçün xilas yolu olan duyğudur. Yəni Suat Dərvişin qənaətinə görə, insanları xilas edəcək bircə yol var: Bu, sevgidir - insanın insana sevgisi! Müəllifin Müdrik İnsan adlandırdığı obraz isə daxilində olan hisslərin sevgiyə çevrilməsini istəmir. Yoxsa, qoyub gəldiyi insanlara, yerə, yurda, onu böyüdən mühitə qaytara bilər həmin hisslər onu. Hər halda bu xof onun canında var.

Yeri gəlmişkən, **Hacı Zeynalabdin Tağıyevin Axund Hacı Turabla** bir mükaliməsi də yada düşür. Axund Hacı Turab Hacıya deyir ki, Tanrı bir anda səni lüt-üryan qoyar. Kifayət qədər məşhur olan bu əhvalatın təfərrüatına varmaq istəməzdim. Sovet hakimiyyətinin gəlişindən sonra Hacının taleyi necə oldu, Azərbaycan mühitində hər kəsə yaxşı məlumdur. Və Hacı ömrünün sonunda Axund Hacı Turabın sözlərini yada salır və onu Axund Hacı Turabın ayaqları altında dəfn etməyi xahiş edir. Bu, bütün insanlığa yönəlmiş çox ibrətli bir vəsiyyətdir, həyat dərsidir. Yəni ki, həyatın ümumi qanunauyğunluqları var və onu heç vaxt unutmayın. Nəhayət, bir məsələni aydınlatmaq vaxtı çatır. H.Mirələmov İnsanın simasını açmaq üçün əvvəlcə əbədi həyat arzusunu - şeytanı onun ruhuna yeridir. Yad bir virus kimi bu hissin təsiri altında onun dəyişmələrinə baxır. Tənhalıq anında, sa-

kitlik və süstlük anında insanın qəlbindən bir səs oyanır. Bu səs hansı ehtiyacdan doğulur? Diqqət etmisinizsə, elə hər birimiz tənhalıq anında bir nəğmə zümzümə edirik. İstər gündüz olsun, istər gecənin qaranlığı, o nəğməni biz kimin üçün oxuyuruq? İnsan bəzən tənhalıqdan boğula bilər və insanın qəlbindən oyanan o səs, əslində insanın xilasedicisinə çevrilir. Ömrünün müdriklik çağlarını yaşayan - 70 yaşlı **Qaçay Köçərli** məhz o tənhalıq anında oyanan səsin **"Kimdir bu gecədə oxuyan?" (Fevral, 2006)** şeirində obrazını belə yaratmışdır:

*Gecə yarı kimdi görən,*
*Oxuya-oxuya gedən.*
*Kimdi onun ürəyində,*
*Bal kimi yuxuya gedən.*

*...Qoca belə oxuyammaz,*
*Oxuyan cavan oğlandı.*
*Onun səsini eşitdim,*
*Ürəyimdə səs oyandı.*

*Elə oyanan kimi də,*
*Qalxıb insan tək ayağa.*
*O başladı ürəyimdə*
*Sahibini axtarmağa.*

Şair çox obrazlı şəkildə və həm də özünün yaşadığı hisslərin təsiri altında, tənhalıq anında insanın köksündən dilə gələn səsin qəribə, qeyri-adi obrazını yaratmış və çıxılmazlıq anında insanın xilaskarı məhz öz köksündən oyanan səsin olduğunu sübut et-

mişdir. Əlbəttə, bu, bədii sübutdur. Bu, həyatın bir parçasıdır. Və həyatın bir parçası olduğu kimi təqdim ediləndə əlavə sübut və dəlillərə ehtiyac qalmır. İnsanı xilas etmək, insanı düşdüyü tənhalıq girdabından çıxarmaq, həm də sənətin borcudur. Sənətin ən yüksək amalı elə budur...

Bu, həqiqi insandır. Varlığına əbədi həyat arzusu çökmüş - yalnız adı ilə yaşamaq istəyi daşıyan "Həyat eşqi" əsərinin qəhrəmanı deyil. Müəllif şeytan, cadugər, iblis, ölüm... və s. obrazlarla rəqabət apara biləcək bir istək - həyatda canlı olaraq (təki canlı olaraq varlığını qorusun, kimsəyə xeyiri dəyməsə də) qalmaq istəyi obrazını yaradıb. Təyyar Salamoğlunun təfsirində Çingiz Hüseynovun "Fətəli fəthi" romanında da görürük: *"Fətəli fəthi»ndə Axundovun komediya personajlarından biri kimi romana gələn Gadugər şərti obraz olaraq Axundovun iç dünyasını, düşüncələrini predmetləşdirir, qəhrəmanın dilə gətirə bilmədiyi fikirlərini «oxumaq» üçün oxucuya yardımçı olur. Azərbaycanın taleyindən söhbət düşəndə Gadugər deyir: - Özü də necə ayrılıq?! Qılıncla kəsib ikiyə bölüblər diyarı, qanlı-burulğanlı Araz sərhəd olub, necə keçəsən. Cadugərlə Fətəlinin dialoqundakı aşağıdakı məqam da çox mənalıdır: - Yəni deyirsən o uzaq sübh çağından başlamaq lazımdır?*

*- Bəlkə yeni əsrin ilk illərinə qayıdaq? - Mən ki, onda hələ doğulmamışdım, yox idim bu dünyada! - Bəs, məni nə bilmisən?! Mən ki, varam!* **(Çingiz Hüseynov** "Fətəli fəthi". Yazıçı, Bakı-1986, s.75).

*Cadugər Fətəlini əsrin ilk illərinə aparır və əsas təs-*

*virlər də burdan başlanır. Deməli, Ç.Hüseynov Cadugəri həm də keçmişlə bu gün, bu günlə gələcək arasında körpü yarada bilən vasitə kimi alır. Bu isə baş verənlərin kökünə enməyə, qəhrəmanın öz dövründə baş verən hadisələrin mahiyyətini düzgün başa düşməyə imkan verir. «Müxtəlif sosial-mənavi məsələlərin aydınlaşdırılmasında, yürüdülən fikrin daha dolğun ifadəsində bu obrazın rolu böyükdür. Cadugər, hadisələrin kəskinləşdiyi məqamlarda üzə çıxır və yaranmış vəziyyətdə «öz sözünü deyir». Mirzə Fətəlinin bir sıra xarakterik xüsusiyyətlərinin təqdimində də müəyyən qədər bu obrazın bədii imkanlarından istifadə olunmuşdur»* (**Yavuz Axundov**, "Tarix və roman". Bakı: Yazıçı, 1988, s.49). *Bunlarla yanaşı, romanın obrazlarının ümumi ansamblında Cadugər obrazı əlahiddə təsir bağışlayır, ümumi süjetlə bağlanmır, hadisələrin inkişaf xəttinin tərkib hissəsinə çevrilə bilmir, qəfil «peyda» olur və gözlənilməz gəlişi ilə sanki ümumi ahəngi pozur".* **(T.Salamoğlu "Azərbaycan ədəbiyyatı məsələləri", Bakı-2012. səh.235).** Professorun qeydlərinə və müəllif düşüncə elementlərinə istinadla təqdim olunan uzun-uzadı təfsilat mahiyyətcə bir həqiqəti ehtiva edir: İnsanı ümumi həyatın ahəngindən ayıran güc var. İndiki halda bu güc insanla onun insanlığının arasına girmiş şeytani istəkdir: əbədi həyat arzusu. Əlbəttə, söhbət cismən mövcud olan əbədi həyatdan gedir.

# BİRLİKDƏ OLSAYDIQ

Demək, tənhalıq motivi həmişə insanları düşündürüb. "Həyat eşqi" əsərinin qəhrəmanı Qartal İnsan - Ağac İnsan, Daş İnsan və nəhayət, yenə İnsan Böyük yolun sonunda insanlığa qayıdış arzusunda olur. Bir vaxt tənhalığın, həm də insanlar arasında tənhalığın, insanlardan özünü təcridetmənin əzablarını min illər boyu yaşadıqdan sonra yenidən geriyə qayıdır. Doğrudur, artıq karvan getmişdir. O, öz karvanına çata bilməz. Amma yenə olsun... o, həmin karvanın yoluna qayıdır ki, orada ömrünü bitirsin.

Bu, artıq müəllifin çox böyük uğurudur. Artıq qeyd etdiyim kimi, bu tənhalıq motivi nəinki sənətdə öz əksini tapıb, həm də sənət adamlarının daxili-mənəvi dünyalarına bir çox hallarda hakim kəsilib

və bəzən onları məhv edib. **Cek London, Sergey Yesenin, V.Mayakovski, Fadeyev**, yaxud Azərbaycanın görkəmli alim və yazıçılarından **Heydər Hüseynov, Sərdar Əsəd, Hüseyn Kürdoğlu...** bu siyahını əlbəttə, çox, lap çox uzatmaq olar - intiharının səbəblərini axtarmalı olsaq birinci tənhalıq əzablarının üstündə dayanmalıyıq.

Görkəmli rus şairi **Aleksandr Blok** gələcək arvadı **Lyubov Dmitriyevna Mendeleyevaya** (o, dahi kimyaçı Mendeleyevin qızıdır) 1903-cü ildə məktublarının birində yazmışdır: *"Mənim Lyubam, mənim yeganəm! Bu gün iki məktubunu almışam. Hətta onların nə barədə olduğu barədə heç nə deyə bilmərəm. Ümumiyyətlə, yenə belə uzaqdan, belə qeyri-adi şəraitdə səninlə danışmaq çətindir. Buradakı həyat qətiyyən insan həyatı deyil, tənbəl həyatıdır, darıxdırıcı həyatdır.*

*...Axşamlar hər şeydən təcrid olunmaq və tənhalıq kimi qəribə, qəmli hisslər qəlbimi bürüyür. Tezliklə günlərimin mənalı keçməsi üçün imkan daxilində faydalı və xoşagələn məşğuliyyət tapacağam. Dünən sənə məktub yazmağa başladım, ancaq yarımçıq qoydum. Çox solğun və boş bir şey alınırdı. Dostoyevskinin ən yaxşı əsərlərini dərindən oxuyuram, lakin belə yaramaz. Almanlar isə burjua baxımından o dərəcədə maraqsız adamlardır ki, onlar barədə heç nə yazmaq olmur. Ölkə son dərəcə işgüzar, adamayovuşmazdır. Qızılgüllərin arasından boz çöhrələr boylanır. Ağacların və çiçəklərin, cah-cəlalın, torpaqların münbitliyi qətiyyən heç nədən xəbər vermir. Qadınların sifəti son*

*dərəcə eybəcərdir, ümumiyyətlə, bircə gözəl sifət yoxdur. Hər halda biz görüşməmişik. Hamısı iri, kobud, son dərəcə kök üzlərdir. Ayaqlarını zorla çəkən, üzləri solmuş və şişmiş xəstələr, qoca kişilər və qadınlar da bu cür təsir bağışlayır. Cavanlar azdır. Onların mövcudluğu o qədər mənasız görünür ki, ilk baxışdan demək olar heç kimə doğrudan-doğruya yazığın gəlmir.*

*Hər halda əgər biz ikilikdə burada olsaydıq, müalicəyə də, müalicə olunanlara da məhəl qoymayıb özümüz üçün yaşasaydıq daha gözəl olardı. Demək olar ki, heç kimlə qarşılaşmamaq da olardı - parka, parkdan o yana, gölə, tarlaya gəzməyə çıxardıq. Yeknəsəkliyə baxmayaraq, üstünlüyümüz o olardı ki, ikilikdə qalardıq...*

*...Məktublarıma görə məni bağışla. Mən bilirəm ki, sən məndən şimaldasan və məndən yaxşısan...*

*1903-cü il mayın 30-u. Bad-Naykeym*

*Sənin olan..."* **(Yevgeni Boqat, "Onlar belə sevirdilər". səh.223).** Əslində, Blokun bu məktubunda bizim izah etməyə çalışdığımız məsələnin mahiyyəti çox böyük həssaslıqla şərh olunur. Diqqət edildisə, Blok məktubunun bir yerində belə bir ifadə işlədir: "Biz ikilikdə burada olsaydıq... daha gözəl olardı".

Əgər "Həyat eşqi" əsərinin qəhrəmanı özünün yanında kimisə görə bilsəydi, onun qəlbinin dərinliklərinə, dərdlərinə şərik olan bir hakim olsaydı, o, tənhalığa üz tutmazdı, hətta o tənhalığın adı Tanrı dərgahı olsaydı belə.

Tanrı dərgahının ən ali məqamı, ən müqəddəs ye-

ri insanların yanındadır.

H.Mirələmovun yaratdığı obraz təbiət etibarı ilə kimsəyə bənzəməsə də, nə qədər orijinal olsa da, həm də hamıya bənzəyir. Onun varlığı ayrı-ayrı insanlardan toplanmış zərrələrdən yaranıb. Ona görə də ayrılıqda heç kimə oxşamasa da, ümumilikdə cəmiyyətin obrazıdır. Əbədi həyat arzusu da tamahdır. Özü də həddi-hüdudu olmayan tamah. Hətta bu tamah o dərəcədədir ki, idarə olunmur. Yazıçı onu zaman boyu taleyin çərxi ilə sürüyür, nəhayət, onun arzusunun puçluğunu ona göstərə bilsin. Əsərin tərbiyəvi əhəmiyyəti də bundadır.

İnsanın doğru yolu. Bu, “Həyat eşqi” əsərinin içərisindən keçən yoldur. “Həyat eşqi” əsərinə və Qartal İnsan - Ağac İnsan, Daş İnsan obrazlarına sadəcə, müəllifin utopiyası, müəllifin təxəyyülünün məhsulu kimi baxmaq lazım deyil. Müəllif özü əsəri dəfələrlə müsahibələrində qeyd etdiyi kimi, yarımfantastik povest hesab etsə də, bu, real insan düşüncələrindən bəhs edən, insanı faciəyə aparan və insanı xilas edən, insanın öz içindən baş qaldıran səsə abidədir.

...O səsə ki, bütün tənhalıq məqamlarında hər birimizin sinəsindən baş qaldırır və özünü diktə edir.

# İNSANDAN İNSANA

İnsanın daxili aləmi, insanın mənəviyyatı kainat qədər geniş, kainat qədər nəhəng, kainat qədər sirlər-lə doludur. Kainatın daxilinə nüfuz etmək nə qədər çətindirsə, insanın da daxili aləminə nüfuz etmək bir o qədər çətindir. Kainatın dərinliklərinə doğru yol insa-nın üzünə açıqdır. Və bu açıqlığın özündə insan ora daxil olmaq üçün qapı tapa bilmir. Ancaq kainatın dərinliklərinə getmək üçün insan öz zəkasının gücün-dən istifadə edərək ora kosmik peyklər göndərir. Bu peyklər vasitəsilə - insan öz ağlının, gözünün, bir söz-lə, düşüncəsinin vasitəsilə tədqiqatlar aparır. Və mə-lum olduğu kimi, kosmik dünyanın, kosmik əlçat-mazlığın müasir elmi əsaslarla öyrənilməsi tarixi o qə-

dər də dərin deyil. Hərçənd ki, neçə il əvvəl də kosmik aləmin tədqiqinə təşəbbüslər göstərilmiş, astroloqlar, nücum alimləri, məsələn, konkret desək, Azərbaycanın Nizami Gəncəvi, Tusi... kimi alimləri kosmik aləmlə bağlı apardıqları müşahidələr əsasında fikirlər, mülahizələr söyləmiş, qənaətlərə gəlmişlər. Əgər desək ki, insanın milyon kilometrlərlə uzaqda olan məsafələr haqqında fikir deməsindən daha çətindir, insanın özünə doğru qapı açması - burada etiraz doğurası heç nə olmazdı. İnsan özünü öyrənmək üçün dilə yiyələnmiş, şüur sahibi olmuş, düşüncə kəsb etmiş, bütöv bir mənəvi gözəlliklər dünyası yaratmışdır mədəniyyətin və incəsənətin timsalında. Təəssüf ki, özündən özünə yol problem olaraq qalır.

İnsan aləminin gözəlliklərini vəsf edən minlərlə tədqiqat əsərləri yazılmış, bu gün də bizi valeh etməkdə olan sənət inciləri insan əllərilə yaşarılıq qazanmışdır. “Dünyanın yeddi möcüzəsi” nümunəsində yüzlərlə, minlərlə heyrətedici maddi mədəniyyət inciləri bizi heyrətdə qoyur. Amma bütün bunlarla bərabər, insan özünün daxili dünyasını öyrənib qurtara bilmir. Nəinki öyrənib qurtara bilmir, heç milyonlarla insanların ən azı yarısını bir araya gətirmək belə mümkün olmur. Bu, o deməkdir ki, hələ insanlar bir-birilə dil tapa bilmir. Əgər insan özünün daxili aləmindəki şəxsən bir fərd olaraq özünəməxsus mənəvi problemləri həll edə bilsəydi, onda ümumin özü də - cəmiyyət də bütövlükdə müəyyən harmoniya və ahəngə tabe olardı. Müəllif “Həyat eşqi” əsərinin qəhrəmanı insanın

simasında onun düşüncəsinin dərinliklərinə qədər kəşfiyyat aparır, zaman-zaman onun dəyişən simasını açmaqla həqiqəti özündən kənarda axtarmağın faciəsini göstərir. Yalnız bir nəfər insanlığın rəmzi olan insandan keçir cəmiyyətin problemləri. Yazıçı özünü cəmiyyət qarşısında borclu bilir. Cəmiyyəti düşündürən problem onun həll edə biləcəyi problemin özüdür. Ona görə də tənha insanın ağrı-acısına zaman boyu şərik olur. Ancaq insanlığın tale yolu hələ zaman-zaman qaranlıqlardan keçəcək. Bir sözlə, bütün qlobal müharibələr, xalqların toqquşması, dövlət strukturlarının dağılması və yenidən qurulması prosesləri, minlərlə insanın həlak olması, insan əllərilə yaradılmış maddi mədəniyyət nümunələrinin məhv edilməsi məhz insanın özünün daxili aləmindəki problemlərinin toqquşması ilə bağlıdır. Cismən yaşamaq, öz varlığını nəyin bahasına olur-olsun qoruyub saxlamaq onu özünün daxilində hərdən baş verən qarşıdurmalardan xilas edə biləcəkmi? Onun daxilindəki qüvvələr nisbəti necədir?

Azərbaycanın mütəfəkkir şairi, bir vaxt təkliyin və tənhalığın iztirablarını yaşamış **Hüseyn Cavid** İblis obrazına təsadüfi müraciət etməmişdi. Budur İblisin mahiyyəti: *"Mən heçlə doğan ulu qüvvət, ulu qüdrət: Bir qüdrəti-külliyyə ki, aləm mənə bədxah, Dünyada əgər varsa rəqibim o da: Allah!.. (qəhqəhə) Həp din ilə, məzhəblə, siyasətlə cahanda Hər fırtına qopmuşsa, əvət, mən varam onda. Hər yerdə ki, vardır əzəmət, qəhr ilə dəhşət, Hakimdir o yerlərdə bu qarşındakı xil-*

*qət"* **(Hüseyn Cavid. Əsərləri. II cild. Bakı - Yazıçı. 1982.səh.322).** Burda düyün açılır. Artıq çox dəyərli nəsr əsərləri, ədəbi-fəlsəfi məzmunlu publisistikası, maraqlı dram əsərləri ilə geniş oxucu və tanınmış tamaşaçı kütləsi tərəfindən tanınan Hüseynbala Mirələmovun insana sevgi ilə qaynar bir həyat içində təsvir olunan qəhrəmanlarından fərqli olaraq "Həyat eşqi"nin daşıyıcısı Müdrik İnsan nə üçün bu aləmdəki - real aləmdəki - həyatdakı həyatından imtina edir? O, qırx yaşa qədər nə üçün cəmiyyət içərisində öz istinadlarını tapa bilməmiş, özündən cəmiyyətə doğru, insanlara doğru yol çəkməmişdir. Bəlkə, Müdrik İnsan insanların daxili dünyasına hakim olan İblisdən qorxmuşdur? İnsan düşüncəsinin sərhədsizliyində inadın mahiyyəti göstərir ki, əbədi həyat arzusu (cismən varlıqda) şeytani hissdir. Nizami Gəncəvi İskəndərin dirilik suyu axtarışında bu şeytani hissin puçluğunu əbədi dəyər gücündə verə bilib. Bu puçluğu H.Mirələmov onun Tanrıya gedən yolunda insanı sonsuzluğacan yaşatmaq cəzasına məhkum etməklə göstərir. Nə qazandın, nə itirdin?.. İnsan son anda belə bir labüd-məntiqi sual qarşısındadır. İnsan həyatının mənası onun düşüncəsi və bu düşüncəni nə dərəcədə reallaşdırması ilə bağlıdır.

O, kimsənin bədxahı deyil. O, kimsənin qazandıqlarına sahib çıxmaq iddiasında deyil. O, qırx yaşına qədər yaşadığı dünyadan heç nəyi özüylə aparmaq fikrində də deyil. Onu konkret olaraq cəmiyyətə bağlayan övladı olmasa da, ata-anası, digər qohum-əqrə-

baları var axı. Bəs onda o, hansı güc sayəsində (bəli, bu imtina da insandan güc tələb edir) bu qohumluq əlaqələrindən də imtina etmə məqamlarına gəlib çatmışdır. Müdrik İnsanın - artıq bir neçə dəfə qeyd etdiyimiz kimi, faciəsinin əsas səbəblərindən biri odur ki, onun qəlbinin sevgi qapıları, məhəbbət qapıları bağlıdır. O, kimsənin gözlərinə baxmaq fikrində deyil. Əgər sevgi dolu hisslərlə, məhəbbət duyğuları ilə hər hansı bir gözə baxmış olsaydı, əks cinsin ahənrüba gücündə olan duyğularına tabe olardı.

Filosoflar bu məsələdə də müxtəlif qənaətlərdə olsalar da, əsasən eyni nöqtədə birləşirlər: *"Sevgiyə rasional-yaradıcı yanaşmaya təkcə məhəbbət mahiyyətinin dərk edilməsi kimi deyil, eyni zamanda dünyanı dərketmə formalarından biri olaraq, böyük əhəmiyyət verməliyik. Bizim doğum və ölüm qütblərimizin arasında qabiliyyət, əxlaq və kamillik ifadəsi olan məhəbbətimizin doğulması mərhələsi yerləşir. İnsan bu mərhələdə öz məhəbbət gücünü dolğun təzahür etdirə bilibsə, onu kamil şəxsiyyət adlandıra bilərik. Cahillər məhəbbəti dərk etmək iqtidarında olmurlar. Onların məhəbbətə münasibəti realizmə köklənir"* **(Gündüz Quliyev "Məhəbbət psixologiyası". Bakı - 2005. səh.178).** "Həyat eşqi" əsərinin qəhrəmanında da böyük məhəbbətin təzahürünü görürük. Doğrudur, bu məhəbbət əks cinsə qarşı, yəni qadına qarşı olmasa da, hər halda var. Bu məhəbbətin ünvanı Tanrıdır. Müdrik İnsanın tam mənəvi gücü ilə inandığı Yerin, Göyün hakimidir. İndi gəlin görək, bu Allaha sevgi, Allahla

dilləşə bilmək qüdrəti, Allahın yanında yüksək hörmət və ehtiram mərtəbəsi onu xilas edə bilmişdimi? O, Qartal olub göylərdə süzəndə, Palıd olub yerin dərinliklərinə öz kökünü işlədəndə, dağ-daş olub, qaya olub min illər boyu cansız-cansız, həm də canlı olaraq təbiətin zaman axarını müşayiət edəndə də özünü xoşbəxt bilirmi? Əgər o özünü xoşbəxt bilsəydi, qartal olmaq arzusuna yetincə daha başqa fikrə düşməzdi. Burada qarşıya çıxan daha bir sual var: Müdrik İnsan Tanrıya dualarında (yalvarışlarında, bəzən bu yalvarışlar sədəqə istəyən dilənçinin mənəvi durumu qədərində olsa da) ona sevgisini izah edir. Tanrıya sevginin onun üçün hər şey olduğunu, onu xoşbəxt etdiyini bildirir. Şübhəsiz, Tanrıya məlumdur ki, Tanrı insana sevgi hissini ona görə bəxş edib ki, insan öz dünyasının, insanların qədrini bilsin. Tanrını sevməklə insanları sevməyin xoşbəxtliyini dərk etsin. Bu zaman insan həyatın mənasını öz əməlində görər, həyatda özündən sonra qoyduğu izdə görər. Cismən əbədi yaşamaq hissi insanı xoşbəxt edə bilməz. Bütün tərəflərilə "Həyat eşqi" əsərinin qəhrəmanı oxucu üçün maraqlıdır. Oxucu onu sevə bilməsə də, ona Tanrının rəhmini arzulayır. Bir sözlə, ona yazığımız gəlir. Müəllif bir ömürdə yaşayan insanın haqqında heç nə deməsə də, cismən əbədi yaşayan insanın fonunda onun daha üstün olduğunu təsdiqləyir.

# RUHUN ÖLMƏZLİYİ

Bəlkə, Müdrik İnsan onun başının üstünü kəsdirən ölüm qorxusundan qaçır. Əgər o, Tanrının qüdrətinə inanırsa, demək, bir ruh kimi, əbədi yaşamaq haqqına da inanmalı idi. Axı ruhların ölməzliyi haqqında Allahın hökmü bütün müqəddəs kitablarda təsdiq olunub.

"İncil" də ruhun ölməzliyi üstündə köklənib, "Quran" da. Ümumiyyətlə, digər dinlərdə də və dini məzmunlu kitablarda da əslində ruhun ölməzliyinə etiraz yoxdur. Amma gəlin real həyata qayıdaq. İnsan ölümlə barışmır. Ölümün əbədi və dəyişilməz bir hökm olduğunu bilsə belə barışmır. Ölümün yaxınlaşma anında nəinki insanın özü, hətta onun yaxınları, doğmaları vahimələnir və bəzən kimliyindən asılı ol-

mayaraq hər bir insanın qəlbindən bir gizilti qopur.

"Həyat eşqi" əsərindən oxuyuruq: *"Əvvəlcə palıdı dəhşət bürüdü, o, xeyli müddət özünə gələ bilmədi. Yaşı min ili haqlasa da, yaşamaqdan doymur, artıq ölümün yaxınlaşdığını duyur, məhv olub əbədiyyətə qovuşmaq qorxusu bütün varlığını titrədirdi. Necə yəni məhv olmaq, biryolluq bu dünyadan silinib getmək?! Adam kimi, qartal kimi min ilin dizini yerə vurmuş, bir zamanlar möhtəşəmliyi, əzəməti, uzunömürlü olması ilə bütün canlılara meydan oxuyan palıd yox olmağı, izsiz-tozsuz bu dünyadan həmişəlik silinib getməyi ağlına gətirəndə dərinliklərə işləmiş köklərindən, nəhəng gövdəsindən budaqlarına, yarpaqlarınacan titrəyir, əsim-əsim əsirdi. İnsanın da, qartalın da ömrü sanki bir su içimi qədər qısa olduğundan, başqaları dünyanın gözəlliyinə, naz-nemətinə, ləzzətinə, bəzənsə gərəksiz qayğılarına qarışdığından fikirləşib ulu Tanrıdan daha çox, daha uzun ömür diləyə bilmədiklərinə yanıb-tökülür, içərilərindən aramsız sızıltılar keçirdi. Qırx il yaşayıb yetkinlik, müdriklik yaşını haqlamış İnsan da, yüz il ömür sürmüş Qartal da həyat tərzlərini dəyişib başqa şəkildə, başqa formada yaşamağa başlayanda yaddaşlarındakı bu dünyada çox ömür sürmək həvəsindən, ehtirasından başqa hər şeyi unutmuşdular. Minillik palıdın genetik yaddaşına ötürülmüş ancaq və ancaq hər şeydən güclü bir arzu, istək, sönməyən bir duyğu çırpınmaqdaydı - nəyin bahasına olur-olsun, yaşamaq, bu dünyada əbədi var olmaq eşqi!* **(H.Mirələmov "Həyat eşqi". Bakı - 2005. səh.57).** Filosoflar kimi, ən dəhşətli müharibələ-

rin səbəbkarları olan Cahangirlər, Fatehlər, cəngavərlər, hətta ölümün nə olduğunu bilən və hər an ölümlə üzbəüz yaşayan, edam hökmü altında dayananlar belə bu anın - yaşamaq anının ömrünü uzatmaq, ölümün qarşısını az da olsa kəsmək istəyirlər. Təsəvvür edək ki, ölüm soyuqdan donma anıdır. Dəhşətli dərəcədə şaxtanın, soyuğun qarşısında insan bədəni hissə-hissə ölməyə başlayır. Donmaya qarşı daha güclü olanın keçirdiyi hisslər yaxınındakı əzizinin donmasının qarşısını almaq üçün əlacsızlıq anındakı duyğular bu mübarizənin mahiyyətidir.

Azərbaycanın görkəmli filosof şairi, ictimai-siyasi xadimi **Vaqif Səmədoğlunun** "Uzaq yaşıl ada" (1999) kitabından götürdüyümüz "İndicə günəş doğacaq" (1986) şərti adı ilə təqdim edilən şeirində bu ana çox gözəl poetik məna verilmişdir: "*Donma, donma, səbr elə indicə günəş doğacaq, isti işıq düşəcək üstünə. Görürsənmi, Şərqdə üfüq qızarır? Yox, yox, canavar gözü deyil, günəşdir! Donma, sən Allah, donma...*" (səh.283). Həyat, yaşamaq hissi... Donmanın qarşısını almaq, başqa yol yoxdursa, ümid vermək. Özündən əvvəl başqasını qorumaq. Bu, başqa məsələdir. Cismən var olmaq, ancaq özünü hifz etmək. Bunun üçün Tanrıya yalvarmaq. Hətta başqalarına da bunu təlqin etmək. Məhz bu hissdir Müdrik İnsanı rahat buraxmayan. İndi daşa dönüb yaşamaq keçir onun könlündən. Halbuki əbədiyaşarılığı bəlkə də, havaya çevrilməklə, yerin - planetin özünə dönməklə Tanrıdan ala bilərdi Müdrik İnsan.

Çünki daş da ovulub tökülür, aşınır, necə ki, Qartal bir gün ömrünü başa vurdu, necə ki, Palıd qəfləti çaxan şimşəyin odundan alışıb-yandı.

Daşa dönüb yaşamaq... Bu, onun düşüncəsinin hələlik həddidir. Ancaq başqa saatlar da var; heç vaxt dayanmayan, vaxt axarından qopmayan, əbədi işləyən saatlar. Professor Rafael Hüseynov belə bir saat - "Sabirin saatı" haqqında deyir: "Sabirin Zamanın heç vaxt sönməyən ocağındakı Sözləri həmişə qaynardır. Sabirin O sözlər həmin ocaqdan heç zaman ayrı qalmayacaq. Sabirin Saatı qeyrəti, sədaqəti Vətəndaşı olduğu Yurdun, sevimli yavrusu olduğu Millətin, bütün sərhədləri vizasız keçərək balası olduğu bəşərin saatıdır. O, lap çoxdan, hələ öz sağlığından bir xalqın övladı olmaq çərçivəsindən çıxıb. Hələ Sabir heykələ çevrilərək dünyanın çox şəhərlərində ucalacaq. Hələ Sabir çox dillərə çevriləcək, indiyədək danışmadığı, çox dillərdə danışmağa başlayacaq, hələ çoxları bu söz və təfəkkür planetini özləri üçün yenidən kəşf edəcəklər. Hələ biz bundan sonra uzun illər boyu yanılan, geri qalan saatlarımızı Sabirin doğru, dəqiq işləyən Saatı ilə düzəltməyə çalışacağıq. Sabirin Əbədi Saatı işləməkdə davam edir" **(R.Hüseynov, "Sabirin saatı" Bakı, 2012, səh.16).** Kimin ömrü daha uzundur? Müəllif məhz mənəvi ömür sahiblərinin əbədi yaşarılığının mənasını, dəyərini, gücünü göstərmək üçün cismani əbədiyyətin puçluq, mənasızlıq mahiyyətini bu qədər təfərrüatla təqdim edir.

# YADDAŞ - İNSANIN SİMASI

Ancaq Tanrının özünün əbədiliyindən başqa heç nə əbədi deyil. Necə ki, milyard illər bundan əvvəl yerin özü, yerdəki həyatın özü yaranma prosesi keçirirdi. O şey ki, yaranır və bir gün ömrünü də başa vurmalıdır. Peyğəmbərlik iddiasına düşmək olar, ancaq Allahlıq iddiasına düşmək - bu, yəqin ki, mümkün olmazdı. Çünki Allahın özü özünə şərik istəmir. Yəqin ki, Müdrik İnsan bunları bildiyindən daha Allahlıq təmənnasında ola bilmir. Min illər boyu yaşayan istər daş cildində, istərsə də digər canlılar formasında düşüncəsini saxlayan insan əzab və iztirabdan yaxa qurtara bilmir. Bəs onu tərk etməyən bu əzab və iztirabın səbəbi nədir? Səbəbi odur ki, o, yaddaşını itirmir.

Yaddaş isə insanın həyatının mənasıdır.

Azərbaycanın tanınmış və öz sözü ilə xüsusi nüfuza malik ədəbiyyatşünas tənqidçilərindən biri **Qurban Bayramov** böyük Azərbaycan alimi XX əsr Azərbaycanın ədəbi-fəlsəfi tənqidi fikir tarixində böyük yeri və rolu olan, ədəbi-mənəvi proseslərin idarə olunmasına böyük təsir göstərmiş və istiqamətləndirmiş **Yaşar Qarayevin** yaddaşla bağlı prinsiplərini şərh edərkən yazır: *"Yaddaş" insana məxsus fizioloji bir prosesdir və şəxsiyyətin formalaşmasında, insan kimi özünütəsdiqdə əsas fizioloji, psixoloji, bioloji anatomik aktdır. Eləcə də "skleroz" - yaddaşsızlıq, unutqanlıq şəxsiyyəti itirməyin bir aktıdır... Yaşar Qarayev ağlı və təfəkkürü "YADDAŞ"ı bu kiçik, dar, fizioloji, anatomik aktdan çıxarır və onu qlobal miqyasda götürərək yeni məna çaları verir, "yaddaş"ın fəlsəfi, estetik, ictimai-siyasi məzmununu "kəşf" edir. Adi bir fərdə, insana, şəxsə məxsus fizioloji prosesə tarixi məna verir və tarixin, cəmiyyətin, millətin mənsubluq aktının mühüm formulu kimi götürür, ədəbi-bədii fikrin əsas izah amilinə çevirir"* **(Qurban Bayramov, J.Qurbanqızı "Yaşar Qarayev: Milli yaddaş təlimi - azərbaycançılıq", Bakı - 2001, "səh.77).** Əlbəttə, burada söhbət kimin məsələyə necə münasibət bəsləməsindən getmir. Məsələnin məğzi ondadır ki, Müdrik İnsanın - Böyük İnsanın düşüncəsinin yaşaması onun insanlığını, insan olduğunu qoruyur. Artıq burada forma əhəmiyyət kəsb etmir. Yaddaş insanın, şəxsiyyətin əsas təyinedicisidir. Bütün əsər boyu qəhrəman əslində, öz yaddaşına

qarşı vuruşur. Və yaddaşına qalib gələ bilmədiyi üçün yenidən ən üstün həyata - insan həyatına qayıtmağa üz tutur.

Hər halda H.Mirələmovun “Həyat eşqi” əsərinin qəhrəmanı həyatın gözəlliyini yerdə - insanlar arasında və insan olmaqda görür.

Yaddaş “Həyat eşqi” əsərində xüsusi bir obraz kimi görünür. Əsər boyu bütün obrazların təcəssüm olunan forması var. Ayrı-ayrı obrazlar görünür, müşahidə olunur. Məsələn, Qartal real həyatda görünən obrazdır, ancaq onun digər qartallardan fərqli xüsusiyyəti yaddaşa sahib olmasıdır, eləcə də Palıd da belədir. O, adi ağacdır, palıd ağacı. Meşədəki digər ağaclardan formasına görə fərqlənə bilər. Ancaq bu palıdın gözlə görünə bilməyən əsas xüsusiyyəti ondan ibarətdir ki, o, insan kimi düşünə bilər. Ömrünü torpağın üstdə bitdiyi yerdə yaşasa da, xəyalı ilə yerlə-göyün arasında dolaşa bilir. Onun xəyalı Tanrının yanına uça bilir, Tanrı ilə dilləşə bilir, insanların onun üstünə necə gəlməsini görə bilir. Kəsilən budaqları üçün iztirab çəkir. Burda da gözlə görünməyən, təsəvvür olunmayan yaddaş obraz özünü göstərir. Ümumiyyətlə, əsərin əsas qəhrəmanı müdrik insan olsa da, görünməyən əsas obraz yaddaş olaraq qalır.

Müdrik İnsanın yaddaşı Tanrı tərəfindən qorunur. Tanrı əslində onu ağaca döndərən də, qartala döndərən də yaddaşını əlindən ala bilərdi. Əgər belə demək mümkünsə, bununla da Tanrı öz yaxasını Müdrik İnsanın əlindən qurtara bilərdi. Ancaq Tanrı sanki çox

böyük ucalıqdan uzaq gələcəyi gördüyü üçün, bildiyi üçün Müdrik İnsanı yaddaşını qoruyur. Zaman keçdikcə, vaxt keçdikcə Müdrik İnsan Qartal ömrünü başa vurub Palıd ömrünü yaşayanda və nəhayət, bu ömür də başa çatanda onun keçirdiyi iztirabların müqabilində böyük həqiqətə doğru yolun qapısını açıq qoyur. Necə deyərlər, Tövbə qapısı həmişə açıqdır. Təmizlənmək istəyənlər, günahların yumaq yoluna qədəm qoyanlar buyura bilərlər. Beləcə, Müdrik İnsan təbiətlə təmasda yaşamaqdan - qeyri-insani varlıq olaraq yaşamaqdan bezəcəyi anı Tanrının özü də ancaq özünə xas təmkin və səbirlə gözləyir. İnsan nə qədər yaşaya bilər? H.Mirələmov onu izləyir, müəllif olaraq onun düşüncəsində gedən prosesi izləməklə (yazmaqla) bu qədər uzun həyatda mənəvi zənginlik qazana bilməsinə təəssüf edir. İnsanın kimliyi, haradan gəlib - haraya getdiyi birinci növbədə onun özünə məlum olmalıdır. Onda yaşamağın - cismani və mənəvi fərqini və müddətini də daha yaxşı bilər, bunun üçün onun bəsirət gözü olmalıdır. Milli-epos təfəkkürünün özünəməxsus təzahür aktı, tipi, ...Koroğlunun özünü yetirmiş intibah təfəkkürünün məhsulu" (Nizami Cəfərov) məşhur "Bənzərsən" rədifli qoşmasına diqqət edək: Burada insan həyatının dialektikası, yaşın hərəkəti, ömrün psixoloji mühiti çox real cizgilərlə verilib. Burada Allah həyatın qanunauyğunluğu kimi təzahür edir. Müdrik İnsan isə Allahı taleyin fanatik idarəedicisi kimi təsəvvür edir.

Dünya ədəbiyyatının istər şifahi, istərsə də yazılı

örnəklərində Allah insan münasibətləri həmişə diqqət mərkəzində olub. Bir çox hallarda Tanrı insanların arzularına uyğun, yaxud əməllərinə görə onlara tale bəxş edir. Məsələn, Homerin qəhrəmanları allahlara necə münasibət bəsləyirlərsə, həmin münasibətin müqabilində də tale alırlar. Odisseyin allahlara qarşı etinasızlığı onu böyük bəlalara düçar edir. Və elə məqamlar gəlib çatır ki, Oddisey allahların hüzurunda öz gücsüzlüyünü etiraf etməli olur. "Həyat eşqi" əsərinin qəhrəmanı da bütün həyatı boyu min illər ərzində azad və firəvan bir ömür sürsə də, heç kimdən və heç nədən qorxmasa da Allahın başı üstündə olduğunu bir an da olsun unutmur. Allah onun başının üstündə Tantal daşıdır. İstənilən vaxt onun başına düşə bilər. Halbuki bir ömrü müstəqil və ağılla yaşamaq üçün Tanrı insana kifayət qədər təbii qabiliyyət bəxş edib.

Onun düşüncəsinə görə, yaddaşı qoruyan Allahdır. Bu, əsərdən gələn qənaətdir. Allah bütün əsər boyu əzəməti ilə, gücü və qüdrəti ilə görünür. İnsan sarsılır, yerdəki təlatümlər onun başı üstündə oynayır. Ancaq Allah çox böyük ucalıqdadır və bu yerdəki təlatümlərin heç birisi ona gedib çatmır. Zənnimcə, əsərin baş qəhrəmanı, əsas qəhrəmanı, yaddaşdan uca qəhrəmanı Allahdır. Həm də əsər belə bir fikri təlqin edir ki, Allahın işinə qarışmaq, Allahın iradəsində olanlara müdaxilə etmək nəinki mənəvi prinsiplərə ziddir, həm də insanın özünü sonu görünməyən bəlalara düçar edə bilər. Yaddaşını itirə bilər, yaddaşı

olmayan canlı artıq insan deyil.

Kimin az, kimin çox yaşamasından asılı olmayaraq, insani həyatdan üstün heç nə yoxdur. Çünki insani həyatın yaddaşı var.

Müdrik İnsanla müqayisədə dövrümüzün **Bəxtiyarını** yada salaq: Onun düşüncə, mübarizə yolunu gözlərimizin önünə gətirək. Onun ömrü narahat bir ömürdür. Bir ömürdə neçə ömür yaşamaqdır: ***"Hələ 60-cı illərdə yazdığı bir şerində təbiətindəki narahatlığı şair aşağıdakı şəkildə ifadə edirdi:***

*Gecə-gündüz, səhər-axşam*
*Mən yazıram, oxuyuram.*
*Yazılarım kitab-kitab.*
*Nə olsun ki,*
*Ürəyimə çoxu yatmır.*
*Şerimdə də nəsə çatmır,*
*Sözümdə də nəsə çatmır.*
*Könlümüzdən*
*Keçənlərin arxasınca bir qoşuruq,*
*Çalışırıq, vuruşuruq.*
*Səsə düşür məramımız,*
*Əməlsə bu səsə çatmır*
*Düzü budur -*
*Sözümüzdə hər şey çatır,*
*Özümüzdə nəsə çatmır…*

***O, şair kimi hərəkət edir, filosof kimi hərəkətlərini dərk eləməyə çalışır, ictimai xadim-publisist kimi həmin hərəkətlərinə qiymət verir"* (N.Cəfərov, "Seçilmiş əsərləri, 2-ci cild. səh.174).** Ancaq bununla iş bitmir.

Professorun yada saldığı kimi XX əsr Azərbaycan müdriki - "Həyat eşqi" əsərinin qəhrəmanından fərqli olaraq bir ömür yaşamalı olduğunu elə bir ömrün özündəcə neçə ömrün gücünü göstərməyin mümkünlüyünü sübut etmişdir: *"Yaradıcılığa başladığı dövrdən bu günə qədər Bəxtiyar Vahabzadə eyni məhsuldarlıqla yazıb-yaratmışdır - bu baxımdan onu Azərbaycanın heç bir müasir yazıçısı, filosofu, yaxud ictimai xadimi ilə müqayisə etmək mümkün deyil. Yüzlərlə lirik, onlarla epik şeirlər və poemalar, mənzum dramlar, hekayələr, teleradio pyesləri, ssenarilər, monoqrafiyalar, saysız-hesabsız elmi, elmi-publisistik və publisistik məqalələr, xatirələr, tərcümələr, televiziyada, radioda, müxtəlif səviyyəli yığıncaqlarda çıxışlar, universitet auditoriyalarında mühazirələr… Əgər buraya B.Vahabzadənin çoxtərəfli ictimai-siyasi fəaliyyətini də əlavə etsək, etiraf olunmalıdır ki, o, həqiqətən, azman bir yaradıcıdır - onun yaradıcılığının miqyasını ancaq Azərbaycan ədəbiyyatı və ictimai fikri tarixində möhkəm yer tutmuş möhtəşəm şəxsiyyətlərin yaradıcılığının miqyası ilə müqayisə etmək mümkündür. Eyni zamanda, 50-ci illərdən bu günə qədər Azərbaycanın ictimai-siyasi, mənəvi-ideoloji həyatında elə bir hadisə olmamışdır ki, B.Vahabzadə ya yaradıcılığı, ya da ictimai fəaliyyəti ilə ona birbaşa, yaxud dolayısıyla toxunmamış olsun - Bəxtiyarın miqyaslı, məzmunlu yaradıcılığı, milli ideallara xidmət edən ictmai fəaliyyəti, böyük düşüncə potensialı onu müasir dövrün ən böyük, nadir şəxsiyyətlərindən biri etmişdir"* **(N.Cə-**

**fərov, "Seçilmiş əsərləri, 2-ci cild. səh.175)**. Bəs sonluq? Bu labüd sonluq milyon-milyon insanda fərqlidir. B.Vahabzadə (və N.Cəfərov) əbədi yaşamaq haqqını mənəvidə görür. Onun özünün bütün şüurlu həyatı da buna hesablanıb.

İnsanlar kimdən daha çox ibrət götürür? Bəxtiyar Vahabzadə Azərbaycan xalqının yaratdığı obrazdır. Müdrik İnsan insan xislətinin təzahürüdür. Fantastik təxəyyüldə Tanrı ona yaddaşdan (insan yaddaşı) başqa heç nə verməyib. Bu yaddaşdan isə istifadə etmək, həyata qayıdıb bu həyatı bir daha mənalı etmək və onu daha da gözəlləşdirmək haqqında heç düşünmür də. Müəllif canlı ola-ola, yaddaş sahibi ola-ola, zamanlar boyu cismani varlığını qorumağın rəzilliyini, bədbəxtliyini, bir sözlə, ən ağır faciəsini təsvir edərkən real həyatdan qaynaqlanır. "Həyat eşqi" əsərinin qəhrəmanı ötüb keçən zamanların fonunda sanki dünyanı deyil, öz faciəsini izləyir.

# DÜNYALARIN ƏN GÖZƏLİ

Təbiət və insan, insan və Allah, Allah və külli-kainat - bu tərəflər arasındakı münasibətlər tarazlaşanda hər hansı bir tərəfin köməyindən asılı olmayaraq hər iki tərəfin birgə səyilə, ən doğrusu, istəyilə müvazinət qorunanda yerlə göyün ümumi nizamı da qorunmuş olur. Yerlə göyün nizamının qorunmasından asılı olaraq təbiətin də, insanın da və bu fonda mənəvi müvazinətin də qorunması labüddür.

"Həyat eşqi" əsərinin qəhrəmanı Müdrik İnsandan fərqli olaraq Qartal İnsan, Palıd İnsan və nəhayət, Daş İnsan öz ömrünü ona görə yaşaya bilir ki, yerlə göy arasındakı ilahi nizam qorunmuş olur. Qartal İnsan nə qədər Göylərdə süzsə də, Palıd İnsan öz əzəmətilə ağaclar aləmində, meşələr dünyasında qüd-

rətli görünsə də, Daş İnsan milyon illər, hətta zərrəcik halında olsa belə, yaşasa da, insan həyatının özünəməxsus gözəlliklərindən kənarda qalmış olur. İnsanı Tanrı dərgahında darıxdıran - baxmayaraq ki, o, meşədədir, baxmayaraq ki, o, qanadlarını açıb göylərdə süzsə də öz yuvasını qayalarda, daşların arasında, uca zirvələrdə və nəhayət, yerdə qurub və yenə də baxmayaraq ki, o, palıd olaraq meşənin ən əzəmətli, ən hündür, ən gözəgəlimli ağacıdır və nəhayət, baxmayaraq ki, zəlzələlərin, tufanların, istinin, soyuğun kar etmədiyi, təsir etmədiyi, min illər ərzində tab gətirdiyi sal qaya parçasıdır, daşdır - bir sözlə, insandan, insanlıqdan uzaq düşməsidir. Bəli, Daş İnsandır... İndi o kimdir, yoxsa nədir?.. Daş İnsandır dedik. İnsan necə daş ola bilər? Ümumiyyətlə, hissləri, duyğuları korşalmış olana, həyatı sevə bilməyənlərə, həyatdan mənəvi zövq almaq iqtidarında olmayanlara "qəlbi daşdır" deyirlər. Bir sözlə, "qəlbi daşdır" ifadəsi insan üçün əslində, faciədir. Facianə tale içərisində olanların ünvanına deyilmiş mənəvi rütbə kimi bəlkə də, daha dəqiq desək, tənə yarlığı kimi "qəlbi daşdır" ifadəsi öz hökmünü həmişə diktə etmişdir. Bu ifadədən sonra ünvan haqqında biz nə düşünürük? Ya ona acıyırıq, ya da qeyri-insani varlıq kimi yanaşırıq, qəzəblə, hətta bəzən nifrətlə.

İnsan ruhən, mənən daşlaşmasına qarşı özü birinci olaraq durmalıdır. Müqavimət gücünü insan özündə tapmalıdır. Məşhur monqol yazıçısı **Sengiyn Erdene** (1929) "Ürəkdə daş" hekayəsində insanın daş-

laşmaya qarşı mübarizəsini çox real cizgilərlə verə bilib. Monqol aymaklarından (əyalət) birində Donoy adlı bir kişi yaşayırmış. O, sadə adam deyil. Bir xalq sənətkarıdır. Gənc oğlunu itirdikdən sonra yenə ruhdan düşmür, maraqlı fiqurlar düzəltməkdə davam edir. Düzəltdiyi ağac fiqurlarından ən yaxşı nümunələri həmkəndlilərinə göstərir, onların razılığını gördükdə fəxr edir, sevinir. Bununla onun həyatı daha mənalı olur. Yazıçı hekayənin sonluğunda belə bir epizod təqdim edir: *"Günlərin birində Donoy dağa qalxdı və orada qəribə bir kök tapdı. Həmin kök əlləri ilə dizlərini tutmuş, beli bükülmüş insana oxşayırdı. Donoy onu evə gətirib, üzərində işləyəndə ürəyində daş olan beli bükülmüş insan fiquru alındı. Donoy fiquru cilalayıb, üstünə lak çəkib, bunu alaçığın görməli yerinə qoydu. Ürəyində bir daş olan, beli bükülmüş kişi fiquru Donoyun gözünə sataşanda, onun halı dəyişir, ağırlaşırdı. «Birdən nə vaxtsa mənim ürəyimdə də belə daş olsa, mən özümü necə hiss edərəm?»* - *deyə onun beyninə qəribə bir fikir gəldi. Bu vaxt Donoyun başına kədərli, qəmli xatirələr daxil olurdu… Bir neçə il bundan əvvəl o, yeganə oğlunu itirmişdi. Deməli, o fiqurda olduğu kimi, mənim də ürəyimdə daş var. Sakitləşmək üçün Donoy, meşədən topladığı ağac köklərindən hazırlanmış şən fiqurlara diqqətlə tamaşa etməyə başladı. Yəqin onun xasiyyəti belə idi: o, istəmədiyi fikirlər haqqında, düşünmək istəmirdi. Qəmli, kədərli fikirlərin onu təqib etdiyi bir gündə o, beli bükülmüş adam fiqurunu götürərək, onun sinəsindəki boz daşı çıxarıb kə-*

*nara atdı. Daşın yerində dərin qəhvəyi bir dəlik əmələ gəldi, sanki insanın özü onu ürəyindən çıxarıb atmışdı. Donoy astaca fiquru götürüb, balta ilə onu parçaladı və xeyli uzağa atdı ki, ondan əsər-əlamət belə qalmasın".* Sengiyn Erdene beləcə insanı daşa qarşı qoyur, insani hissləri daha uca tutur.

Amma burda bir məsələ də var. Elə qayalar var ki, elə daşlar var ki, təbii olaraq onlar insan heykəllərinə bənzəyir, insana çox oxşayır. Biz belə təbii heykəllərə çox vurğunluqla baxırıq. Orda özümüzü, yəni insanı görmək istəyirik. Və bu məqamda təbiətin yaratdığı heykəllərdə təbiətin insana məhəbbətini duymaq, görmək istəyirik.

"Həyat eşqi" əsərinin müəllifi onu düşündürən qlobal problemlərə öz münasibətini bildirmək istəmişdir. Baxmayaraq ki, qəribə, nisbətən qeyri-təbii təsir bağışlayan epizodlardan da yan keçə bilməmişdir. Bütün əsər boyu nəinki insanın, hətta planetin və özü də təkcə bizim planetin yox, ümumiyyətlə, bizim qalaktikanın dəyişmə prosesinə öz münasibətini bildirməyə çalışmışdır. Müəllifin fikrincə, əgər sivilizasiyalar dəyişməli olsa yer özünün mahiyyətini, indiki forma və məzmununu dəyişməli olsa belə, özündən əvvəlki Yerdən bir zərrəni qəbul etmiş olacaq. Və həmin zərrə yeni sivilizasiyanın, yeni Yerin əsasını təşkil edəcəkdir. Əlbəttə, bütün bunlar müasir elmi, cəmiyyəti və həm də dünyanın bütün alimlərini, sənət adamlarını - yazıçılarını düşündürən problemlərdir.

Şübhəsiz, müəllif məlumatlı yazıçıdır. Həm də

elmlə professional şəkildə məşğul olan alimdir. Nanotexnologiya sahəsində yenilikləri, ciddi tədqiqatları var. Yəqin ki, o, - yazıçı Hüseynbala Mirələmov dünyanın ən məşhur elm korifeylərindən biri və müasir dünyamızın elmi, iqtisadi, mənəvi həyatına təsir etmək gücündə olan Lütfi Zadənin qeyri-səlis məntiq nəzəriyyəsindən xəbərdardır. Çünki bu əsərdə əslində, qeyri-səlis məntiqin tələblərinə uyğun motivlər sözün gücü ilə üzə çıxır. Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, burada qeyri-səlis məntiqin elmi hökmü, yazıçı intuisiyası ilə birləşir, müəllifi düzgün nəticəyə gətirir. Yəni hər bir məhv olan sivilizasiya özündən əvvəlki sivilizasiyadan nəsə əxz etmiş olur. Yəni sivilizasiyalar arasında bu və ya digər şəkildə indiki elmi təfəkkürlə qəbul olunan, yaxud da qəbul olunmayan əlaqələr mütləq olacaqdır.

"Həyat eşqi" əsərinin son akkordlarını dinləyirik: *"...Və nəhayət, gözə görünən və görünməyən bu çevrilmələrdən, dönüşlərdən yenidən ayrı-ayrı orqanizmlərə qida, güc, enerji kimi daxil olanlar da bir-birindən seçilib-fərqləndiyi, bir-birinə bənzəmədiyi kimi, həm də hansı xüsusiyyətlərinə, hansısa xassələrinə görə bir-birinə oxşayır, bir-birini tamamlayırdı.*

*Qaya İnsandan qopub parçalanmış bir toz zərrəciyinin yaşı milyardı ötmüşdü. Gördüyü, şahidi olduğu neçə-neçə sivilizasiyaların, o sivilizasiyaların dağılaraq yer üzündə nişanələrinin, izlərinin itib yox olmalarının şahidi olmuşdu. Adi gözlə görünməyən toz zərrəciyinin biri hansı sivilizasiya dönəmindəsə Yer kürəsindən çox-*

*çox uzaqlarda olan planetə uçaraq oradan geri dönə bilməyib partlamış süni peykin içərisindən çıxaraq neçə-neçə milyon illər çəkisizlikdə, boşsuzluqda formasını dəyişmədən tək-tənha üzməkdən doymuşdur, o, toz zərrəcik gecə-gündüz yatmadan, yeyib-içmədən, dincəlmədən Ulu Tanrıya aramsız, fasiləsiz dualar etdiyindən özü də çevrilərək sevinci, kədəri duyub-hiss edən bir dua olmuşdu* **("Həyat eşqi", səh.70).** Bir sözlə, H.Mirələmovun "Həyat eşqi" əsərində qaldırdığı müxtəlif problemlərlə bağlı olaraq gəldiyi nəticələr var. O nəticələrdən biri də bundan ibarətdir ki, bəzi nihilist alimlərdən fərqli olaraq necə ki, zaman əbədidir, necə ki, kainat əbədidir, kainatın timsalında məkan əbədidir, eləcə də həyat əbədidir. Bu əsər düşüncənin alt qatından gələn bir səslə oxunan - həyatın ölməzliyi haqqında, həyatın əbədiliyi haqqında sözlərlə cilalanmış bir nəğmə təsiri bağışlayır.

Həyat, sən nə qədər gözəlsən. Sənin havan da, suyun da, sənin bütün nemətlərin də sənin gözəlliyini tamamlayan vasitələrdir. İnsan ona görə qartala da dönsə, ağaca da dönsə, daş olsa da və daş olub insan şüurunu, düşüncəsini milyon illər hifz etsə də yenə o həyatın özünə qayıtmaq istəyir. O yerə ki, orda insanın özü var, o yerə ki, orda insanın yaratdığı mənəvi sərvətlər var, gözəlliyinin ucu-bucağı görünməyən mənəvi bir dünya var.

# TANRININ YANINDA

Müəllifin əsər boyu diktə etdiyi, əslində, diktə yox, sübut etməyə çalışdığı həqiqətlərdən biri də budur ki, bütün sivilizasiyalar boyu insanların tapındığı bir ehkam olacaqdır. O ehkam nədirsə, öz gücünü qoruyacaqdır. Əgər belə demək mümkünsə, o ehkam Allah olaraq qalacaqdır. Artıq biz "Həyat eşqi" əsərində Allah obrazının özünəməxsus şərhini görürük. Deyilənə görə, Azərbaycanın XX əsr ədəbiyyatının görkəmli korifeylərindən biri Hüseyn Cavid "Allah" adlı bir əsər yaratmalıymış. Bu əsər H.Cavidin "Peyğəmbər" və "İblis" əsərlərini tamamlamalıymış. Trilogiyanın üçüncü əsəri kimi, dramatik poemanın qüdrətli bir nümunəsi kimi  ortalığa çıxası olan "Allah" əsəri Yaradan obrazını bəşərin düşüncəsi fonunda

təqdim etməliymiş. Allah kimdir, yoxsa nədir? Allahın hissi, duyğusu varmı? Hansı məqamda Allah görünə bilər? Və Allahı ancaq kimlər görə bilər? Hər halda indiki dini-mistik düşüncəyə qədər Allahı ancaq iki varlıq görə bilir?;Allahı ancaq peyğəmbərlər görə bilər və bir də şeytanlar, iblislər görə bilər. Digər mələklər yer varlığı deyil, onlar həmişə Allahların yanındadır. Allahı şairlərin görməsi haqqında da düşüncələr var. Bu, təbii ki, doğru deyil. Allahı şairlər görmürlər, ancaq Allahın diktə etdiyini eşidirlər. Şeytanı Allah görür. Şeytanı Allah gördüyü kimi, şeytan da Allahı görür. Ancaq şeytanın Allahdan izni olduğu üçün o, istənilən ürəyə, istənilən qəlbə girə bilir. Burada istənilən sözü nisbidir. Ancaq o şəxslərin qəlbinə girə bilir ki, onlar Allahı unutmuş olurlar.

"Həyat eşqi" əsərinin qəhrəmanı cildini nə qədər dəyişsə də, müxtəlif donlara düşsə də bircə anlığa da olsun Allahı yaddan çıxarmır; onun mənəvi dünyasında Allahdan başqa heç nə yoxdur. Ona görə yoxdur ki, o, insanlar arasında, əslində, Allahı axtarmışdır, ancaq tapmamışdır. Onu insanlardan ayıran istək Allaha qovuşmaq və bu qovuşmada ömür payı almaq istəyidir. Əsər boyu onun gördüyü, müşahidə elədiyi dünyaya münasibəti ancaq Allaha münasibəti ilə əvəz olunur.

Müdrik İnsan Allahın yanında əziz olub yerə xoşbəxtlik diləmək niyyətində deyil. Yəni onun peyğəmbərlik iddiası yoxdur.

H.Cavidin Peyğəmbər obrazı insanları haqq yola

çağırır, insanları şərdən, bədxahlıqdan xilas etmək istəyir, insanların qəlbinə şeytanın yolunu bağlamağa çalışır. Və o, insanlar arasında olmaq istəyir. Bütün bunların əksinə olaraq şeytan - İblis öz missiyasına sədaqətini qoruyur. İnsanların arasına nifaq toxumu səpir. İnsanlara fəlakət gətirir. Onun bircə ali məqsədi var - Yer üzündəki həyatı məhv etmək!

"Həyat eşqi" əsərinin qəhrəmanı isə Tanrının yanında o qədər əzizdir ki, o, istəsə bütün insanlığı şeytandan əbədi hifz edə bilər. Yer üzünə o qədər bərəkət diləyər ki, insanlar bir qarın çörəkdən ötrü dərd çəkməzlər. Fəqət bunların əvəzində o, ancaq dünyanı seyr etmək, uzun illər ərzində öz varlığını qorumaq diləyi ilə Allaha üz tutur. Və bu üztutmaların hamısı son nəticədə duaya çevrilir, Allahın mədhinə çevrilir. Allahın isə heç bir mədhə ehtiyacı yoxdur.

Burada məqsəd yazıçının insanı Tanrı ilə qarşılaşdırması deyil. Əsas odur ki, sözlə, insanın daxili aləminin lap dərinliklərində belə yatan hissləri üzə çıxarmaq mümkün olsun. Nobel mükafatı laureatı **Joze Saramaqo** (1922) əsərin qəhrəmanı haqqında danışarkən (müsahibələrinin birində) deyir: *"Bəzi qəhrəmanların öz şəxsi həyatlarının olması və müəllifin onların həyatına müdaxilə edə bilməsi məsələsinə inanmıram. Qəhrəmanlar tam müstəqil deyillər. Qəhrəmanlar yazıçının əlində əsirdirlər və onlar özləri bunun fərqində deyillər. Sanki bir növ iplə bağlıdırlar, lakin bu ip nisbətən sərbəstdir; qəhrəmanlar azadlıq, müstəqillik xəyalından həzz alırlar, ancaq bir yazıçı kimi mənim*

*istəyim olmadan onlar heç yerə gedə bilməzlər. Belə olarsa, müəllif ipi çəkib deməlidir: Burada mənim sözüm qanundur! Qəhrəmanlar hər zaman süjetin mərkəzində dayanırlar. Qəhrəmanların tamlığı, bütövlüyü dedikdə - onu şəxsiyyətinin, daxili psixolojiyasının hərəkətlərində təzahürünü nəzərdə tuturam. Çünki əsərdəki surətlər bir növ şəxsiyyətdirlər. Məsələn, "Hərb və sülh"də Nataşa, "Cinayət və cəza"da Raskolnikov, "Qırmızı və qara"da Julien. Ədəbiyyat dünya əhalisinin sayını artırır. Biz onları sadəcə, kitab adlandırdığımız kağızlar toplusu üzərində mövcud olan surətlər tək deyil, həqiqi insanlar kimi təsəvvür edirik. Məncə, bu, bütün yazıçıların arzusudur - qəhrəmanlarından biri nə vaxtsa "hansısa real insan" olacaq"* **("The Paris Review" jurnalı, 1998).** Göründüyü kimi, əsərin qəhrəmanı düşündüyümüz qədər azad deyil. Müdrik insan da müəllifin girovudur. Onu Tanrı hüzurunda girov saxlamaqla müəllif insanın kimliyini cəmiyyətə açmaq üçün vasitəyə çevirir. "Həyat eşqi" əsərinin qəhrəmanı Tanrı ilə dualar dililə danışır və yalnız bu sferada azaddır.

Ancaq Allah onun mədhlərinin səmimi olduğunu həmişə görür və duyur. Bu duaların müqabilində onun istəklərini cavabsız qoymur. Bu barədə bir qədər sonra...

# TƏBİƏT İNSANIN ÖZÜDÜR

H.Mirələmov insan və təbiət münasibətlərilə bağlı öz əsərlərində dəfələrlə fikir və mülahizələr söyləmiş, təbiət və insan müvazinətinin pozulduğu anlarda yaranan faciələri yüksək bədii detallarla göstərməyə çalışmışdır. Onun hələ gənclik illərində qələmə aldığı "Meşədə tənha ev" əsərinin qəhrəmanı insanlardan təcrid olunur, təbiətə sığınır. Ancaq o, şüurlu surətdə özünü insanlardan təcrid etdiyi üçün təbiət onu qoruya bilmir, deməzdik - təbiət onu qorumur, - desək, daha düzgün olardı. İnsandan başqa insan olmadığı yerdə insan vahimələnir, şüuru pozulur, dəlilik həddinə çatır. Demək, yazıçı hələ ilk gəncliyindən təbiət-insan münasibətlərinin necə böyük problem olduğunu dərk etmiş və ona düzgün münasibət göstərməyə çalışmış-

dır. Yaxud, müəllifin son illərdə nəşr olunmuş "Cəza" povestində də təbiətlə insan arasındakı müvazinətin pozulmasına və bu müvazinətin pozulmasından nələrin baş verəcəyinə münasibət aydın görünür. İnsan təbiəti qədərindən artıq yükləyəndə təbiət dözmür, öz etirazını sürüşmə şəklində, sel-su şəklində, bir sözlə, ölüm və fəlakət donunda təzahür etdirir. H.Mirələmov insan və təbiət qovuşuğunu, insanın elə təbiətin özü olduğunu yaradıcılığında dönə-dönə vurğulayır. "Gəlinlik paltarı" romanının şərti olaraq "Durna hekayəti" adlandırdığımız bir parçasına diqqət edək: *"...Dənizin qırağında balaca bir gölməçə var idi. Yuxarılardakı neft buruqlarından süzülən mazutlu su bu gölməçəyə axırdı. Gölməçədə nə isə tərpənirdi. Rahibə yaxına getdi. Uzun boynu, nazik boğazı, caydaq ayaqları olan bir quş gölməçəyə düşmüşdü. Bu, durna idi. Rahibə təəccübləndi. Axı durnalar çoxdan köç eyləyiblər. Necə olub ki, bu durna öz qatarından ayrı düşüb? Bəlkə, yemə aldanıb? Dəniz qırağında istirahət edən adamların süfrələrindən qalan qırıq-quruqlar quşların, heyvanların yemi olardı. Bəlkə, nə vaxtsa bir durna köçü elə bura düşübmüş? Sonra dəstə qalxıb gedəndə bu durna qalıb. Bəlkə də, mazutlu çirkab gölünə düşdüyünə görə qanadları açılmayıb, uça bilməyib?.. Durnanın gözündən yazıqlıq yağırdı. Sanki Rahibədən imdad diləyirdi. Rahibə əlini uzadıb qamışların arasına pərçim olmuş durnanın qanadlarından yapışdı. Durna heç çırpınmadı da. Bəlkə də, çırpına bilmədi. Çünki qanadlarından mazutlu çirkab süzülürdü.*

*Rahibə quşlar haqqında filmlərə həmişə həvəslə baxardı. Durnaları da ən çox havada uçduqları vaxt görmüşdü. Durnalar səmada çox gözəl görünürlər. Onların gözəlliyi cərgə ilə uçmağında, bir yerdə olmağındadı. Dəstədən ayrılmış durnanın çox vaxt mənzil başına yetişməyə gücü çatmır. Qayalıqlarda məskən salmış quşlar da yəqin ki, tənha durnanın hayava qalxmasına macal verməzdilər. Onu görən kimi şığıyıb caynaqlarına alar, sonra sakit, əldən-ayaqdan uzaq yuvalarına çəkilər, bıçaq kimi iti dimdikləri ilə ətini ləzzətlə parçalayardılar. İnsanlar da belədir - zəiflər həmişə güclülərə yem olur… Rahibə durnanı dənizin qırağına gətirdi, suya saldı, mazutunu yumaq istədi. Durnaya yazığı gəldi - düşündü ki, dənizin şor suyu indi onun yaralarını göynədir. Amma bununla belə, onun mazutunu yumaq, çirkabını təmizləmək, qanadlarını açmaq istəyindən də vaz keçmədi. "- Səni kim bu hala saldı?" - Sualı ilə durnanın qırpılmayan gözünə baxdı. Ona elə gəldi ki, durna danışır: - "Kimsəni günahlandıra bilmərəm". "- Hə, onda, demək, təqsir özündədir". - "Belə çıxır…" "- Bədbəxtliyin yolunu özün seçmisən". Rahibə elə bildi ki, durna ağlayır. Amma deyəsən, ağlayan durna deyildi, özü idi. Ürəyi sıxıldı. Caydaq ayaqları üstə güclə dayanan durnanın tir-tir əsməyi ona da sirayət etmişdi. Deyəsən, özü də ayaq üstə güclə dururdu, üşüyürdü. Üzünü durnaya tutub dedi: "- Gərək dəstəndən ayrılmayaydın". "- Biz hamımız gölə düşmüşdük. Başımız yemə qarışmışdı. Birdən güclü külək əsdi. Heç bilmədim ki, mazuta nə vaxt batdım. Ha çapaladım, çıxa*

*bilmədim...” “- Sənin xoşbəxtliyin qanadlarındadır. Gərək qanadlarını qoruyaydın. Sən səmada uçanda, pərvaz edəndə gözəl olursan... Hələ tellərin...” Rahibə durnanın islanıb mazuta bulaşmış tellərini sığalladı, dəniz suyundan ovuc-ovuc götürüb yudu. Ancaq nədənsə mazutla birgə zavallı quşcuğazın telləri də qopub töküllürdü”.* **(H.Mirələmov, «Gəlinlik paltarı» Bakı-2004. səh.486).** Nadir səhnədir. İnsanın təbiətə çevrildiyi, təbiətin insanla danışdığı səhnədir. Yalnız təbiəti insanın özü kimi duymaqla bu səhnəni yaratmaq olar.

“Həyat eşqi” əsərinin qəhrəmanı da insan və təbiət münasibətləri müstəvisində daha çox görünür. Bu müstəvidə insan təbiətə qarşı düzgün və əsərə görə, Allahın iradəsilə əqli münasibət göstərir. Elə buna görə də bu məqamlarda təbiət və Allah obrazları birləşir. Təbiətin və Allahın vəhdəti - əgər belə demək mümkünsə, məhəbbəti, sevgisi, qəzəbi, nifrəti eyniləşir. Müdrik İnsanın ən müxtəlif formalarda bircə məkanı var - o təbiətdir. Müdrik İnsan ən müxtəlif formalarda olanda belə təbiətin bakirəliyinə toxunmur, təbiətin gözəlliyinə heç bir xələl gətirmir. Və elə buna görə də təbiətlə onun arasında bir əbədi dostluq, bir əbədi bağlılıq var.

Yazıçı demək istəyir ki, bu əbədi bağlılığı qorumaq elə insanın özünü qorumaq deməkdir. Həyatın əbədiliyini ancaq o vaxt qorumaq mümkün olar ki, biz təbiətlə özümüzün aramızdakı münasibətləri düzgün tənzimləyə bilək.

# DİLİN GÜCÜ

H.Mirələmovun "Həyat eşqi" əsərində həyatın dərinliklərinə, kainatın ənginliklərinə nüfuz etməyə gücü çatan dil təzahürü var. Sözlər dilin ən aşağı qatlarından belə süzülüb gəlir, hər kəlmənin, hər ifadənin özünəməxsus məna çaları üzə çıxır. Dil sanki kainatın dərinliyi qədər zəngin olduğunu diktə edir. Dil həyatın özü qədər çoxrəngli olduğunu göstərə bilir. Sadəcə, təbiət hadisəsinə münasibətdə dilin nəhəng sinonimik cərgələrinə diqqət edək: *"...Min illər ötmüşdü. Daş İnsan yaşını çoxdan unutmuşdu. İldə bir arpa boyu ağac kimi boy atan təpənin ətəyindən neçə-neçə bulaq suyunun qovuşub əmələ gətirdiyi iti axan balaca dağ çayının suları da zaman-zaman torpağı yuyaraq*

*gətirdiyi qumla, çınqılla, hər yaz gətirdiyi qayalarla sal daşları oyaraq dərin dərəyə çevirmiş, zamanın bir vaxtında alçaq görünən həmin təpəlik indi başı şiş, azman bir dağa çevrilmişdi. Bu nəhəng dağ kimi onun başındakı həmin qocaman boz qaya da tezliklə zəlzələnin olacağını duyur, milyon illərdən sonra yerini, formasını, rəngini tezlikdə dəyişəcəyini hiss edirdi. İlk təkandan dağın başındakı, döşündəki dibi boşalmış daşlar, qayalar diyirlənib bir-birinə dəyə-dəyə, torpaq yamaca güclü zərbə ilə toxunub toz-duman qaldıraraq dağ çayına tökülüşdü"* **("Həyat eşqi", səh.62)**. Sözlər zəncirvari şəkildə bir-birinə bağlanaraq tökülüb gəlir. Və hər bir söz insanın daxili aləminin ucqar qaranlıqlarınacan işıq salır. Sözün gətirdiyi çalarlar, rənglər gözlə görünməyən insan mənzərələrinin rəngarəng tablosuna çevrilir. Bəlkə, elə "ədəbiyyat" sözü insana mənəvi yaşarılıq bəxş etməyilə "əbədiyyət" sözünü xatırladır. Professor **Nizaməddin Şəmsizadə** H.Mirələmov haqqında yazdığı "Yazıçı ömrünə uvertüra" (monoqrafik variasiyalar) tədqiqatında ədəbiyyat və söz, həqiqət, söz məcnunluğu... və bu yolun Tanrıya doğru istiqamətlənməsi, könüllərdən gələn işıq motivlərini sözün gücü kimi şərh edir: *"Ədəbiyyat - əbədiyyətdir. Yazıçı əbədiyyət yolçusudur. Haqdan gəlib, həqiqətə gedir. Əgər sufi tərkidünyalıqdan əbədi dünyaya gedirsə, yazıçı dünyasevərlikdən əbədiyyətə yol gedir: sözün işığında, fikrin nurunda! Məcnun bu dünyadan imtina etdi, sevgisi özündən əvvəl çatdı Allaha! Özü nura dönüb sevən*

*könüllərə paylandı".* Burada professor N.Şəmsizadə "Söz və Allah", "Ədəbiyyat və əbədiyyət", "Məcnunluq və könüldaşlıq" obrazlarına təsadüfi müraciət etmir. Bu obrazların daşıdığı yük sözə çevrilib insanın ruhunu təqdim etməklə, ona əbədiyaşarılıq bəxş edir. İnsanın əbədi yaşamaq arzusu yalnız bu yoldan keçir. N.Şəmsizadə Mirələmovun yazıçı obrazını xarakterizə edərkən yenə əsas güc mənbəyi kimi sözə güvənir: *"Yazıçı sözün qalasına doğru gedən fatehdir. Sözün qalasını top-tüfənglə almaq olmaz, ruhla, məhəbbətlə, səmimiyyətlə fəth etmək olar. İnsan təfəkkürünün hüdudları çərçivəsində bir neçə çətin iş var ki, yalnız səmimiyyətə təslim olur: dua, söz, sevgi! Bunları zorla fəth etmək olmaz"...* **(Nizaməddin Şəmsizadə, "Yazıçı ömrünə uvertüra". Bakı -2010. səh.6.)** Doğrudur, ***söz, sevgi və dua*** anlamları bir-birinə çox yaxındır. Hətta deyərdim ki, qohum motivlərdir. Səmimiyyət sevgidən keçməklə duanı və sözü də özündə ehtiva edir.

H.Mirələmov insanı sevməsəydi, insanın böyüklüyünü və hətta Tanrı ucalığına qədər böyüklüyünü dərk eləyə bilməsəydi, Müdrik İnsan uzun-uzadı həyatı ilə onu yorar, bezdirərdi. Və beləcə, sözlər də bitib-tükənər, başqa sözlə, insanın yolu yarıda qalardı. Qayıdaq "Həyat eşqi"nə: *"Qaya İnsanın baş-gözü, bədəni neçə yerdən yaralanı əzilmiş halda bir şırnanın, şəlalənin başına düşmüşdü. İti axan dağ çayı uzun müddət Qaya İnsanın altındakı boşluqdan axmışdı, sular özü ilə gətirdiyi qumu, daş qırıntılarını günlərlə, illərdə Qaya*

*İnsana dəlicəsinə çırpdığından onun qarnında oyuqlar, yalaq yerləri əmələ gəlmişdi. Günlərin bir günü dünyanın bütün qara buludları sanki sözü bir edib üzə-üzə gələrək dağların başında bir anlıq dayandılar, yağmura çevrilərək dağlara, yamaclara, düzlərə ələndilər, irili-xırdalı selovların-dərələrin suları bir-birinə qovuşaraq ağlagəlməz böyük nəhrə çevrildi, sular-sellər aşıb-daşdıqca, çoxalıb bir-birinə qovuşduqca hirsi-hikkəsi yerə-göyə sığmır, qarşısıalınmaz bir qüvvət, sonsuz bir güclə nəhəng-nəhəng meşə ağaclarını, azman qayaları qabağına qataraq toz-duman içində başıaşağı hellədir, qayalar sal daşlara dəyib nərilti, gurultu qoparırdı. Nəhəng bir qayanın hikkəli, qəzəbli zərbinə duruş gətirə bilməyən Qaya İnsan şırna-şəlalə sularının zaman-zaman oyub qazdığı dərinliyin üstündən yüngül odun parçası kimi tullanaraq çay aşağı başqa daşlara toxuna-toxuna, sürtünə-sürtünə, aşa-aşa yombalanır, hansı bəndə, hansı qayaya ilişib sanki bir hovur nəfəsini dərmək istəyəndə arxasınca gələn başqa bir zırpı qayanın ona çatıb zərblə kəllə vurmasından ortasından çatlayır, növbəti toqquşmadasa ikiyə bölünür".* **("Həyat eşqi", səh.63).** Mətndən gətirilmiş parçada sözlərin ilhamla sıralanması yazıçının dil harmoniyasının təzahürüdür. Professor Nizami Cəfərov filologiyamızın müxtəlif sahələrinə dair tədqiqat aparan mütəfəkkir kimi, o cümlədən, dilə münasibətində də ardıcıl müşahidələri ilə seçilir. O, N.Mirələmovun əsərlərini - yaradıcılığının müxtəlif sahələrini izləyir. Və bu izləmə, bu ardıcıl izləmə ona imkan verir ki, yazıçının dil və üslub

xüsusiyyətləri haqqında əsaslandırılmış fikirlər desin: *"H.Mirələmov sadə yazır, əgər belə demək mümkünsə, elə əzəldən - ilk hekayələrini qələmə aldığı 60-cı illərdən mürəkkəb, çoxcümləli və şaxəli nəsr təhkiyyəsindən imtina etmişdir. Ancaq görməmək mümkün deyil ki, onun sadə, mürəkkəb konstruksiyasız təhkiyəsində bir genişlik var. Hər bir cümlə mətnin aparıcı ideyasına xidmət edir və bu səbəbdən də heç bir cümləni həmin mətndən çıxdaş etmək olmaz".* Professor məsələyə köklü yanaşır. H.Mirələmovu fərqləndirən dil xüsusiyyətlərini önə çəkir. Yazıçının dil imkanlarının genişliyini, belə demək mümkünsə, hüdudsuzluğunu təqdir edir. Bu zaman istər-istəməz sovet dövrü Azərbaycan ədəbiyyatındakı monoton dil və üslub məsələlərinə də münasibət bildirir: *"Azərbaycan nəsrində, xüsusilə, sovet dövründəki nəsrdə gizlətmək lazım deyil ki, monoton bir üslub hegemonluq edirdi və bu üslubun diktəsilə çox zaman bir yazıçının dilini, işlətdiyi bədii təsvir vasitələrini və məcazlar sistemini digər bir yazıçının dili, bədii təsvir arsenalından seçmək, fərqləndirmək o qədər də asan olmurdu. Dildə bu cür avtoritar, hegemon üslub fərdi üslubların meydana çıxmasına özünü müstəqil, fərdi üslub hadisəsi kimi göstərməsinə maneçilik törədirdi. Yaxşı ki, 60-cı illərdən başlayaraq Azərbaycan nəsrində fərdi üslublar yaratmağa meyil gücləndi. Yalnız belə olduğu təqdirdə - ədəbi dilin ayrı-ayrı fərdi üslublarda təzahürü prosesində ümumi dil mədəniyyətindən, onun inkişaf dialektikasından söhbət gedə bilər".* N.Cəfərovun

təbirincə desək, yazıçı H.Mirələmov sadə və zəngin, mətndə yeri olan hər bir sözünə görə dilin azadlıq imkanlarını təmin edən müəlliflərdəndir. "Gəlinlik paltarı" romanının dili üzərindəki müşahidələrini professor belə yekunlaşdırır: *"H.Mirələmovun öz əsərlərində yaratdığı Dil Ərazisi də müasir Azərbaycan ədəbi dilinin çox geniş (Şimallı, Cənublu) ərazisinin kiçik bir hissəsidir. Azərbaycan ədəbi dilinin özünəməxsus şəhdi-şəkəri məna və forma incəlikləri bu kiçik dil ərazisində də öz ifadəsini, təcəssümünü tapa bilir"* **(N.Cəfərov, "Gəlinlik paltarı" romanına "Ön söz"dən).** "Həyat eşqi" əsəri H.Mirələmovun Dil Ərazisini kifayət qədər göstərə bilən əsərdir. Bu əsər müəllifin yaradıcılığının qaynar mərhələsində qələmə alınıb. İstər-istəməz insan və cəmiyyət problemi hər bir yazıçını düşündürən problemdir. İnsan tabe olduğu varlıq qarşısında həmişə məsuliyyət daşıyır. Ona görə də hərəkətlərinin, əməllərinin və sözünün oyada biləcəyi təsir haqqında da düşünməli olur. Bu mənada Müdrik İnsan da hakim qarşısındadır. O, önündə açılan imkandan axıracan istifadə etmək əzmilə mübarizə aparır. Və bu mübarizəni biz Qaya-İnsanın təsvirində hiss edirik. Təbiidir ki, qaya cansızdır. Amma yazıçı təxəyyülün gücü ilə - o, həm də yaddaş daşıyıcısıdır - milyon illər ərzində Yer planetində qərar tutsa da, yenə yaddaşını itirmir, zaman-zaman bu yaddaşın gücünə yenidən insana qayıdış uğrunda mübarizə motivində düşünür, yenə onun çıxış yolu Tanrıya bağlıdır. Tanrının hədsiz, tükənməyən

imkanlarına bağlıdır. Bütün bunları vermək üçün yazıçının əlində yeganə vasitə qələm, qələmin timsalında sözdür: "*Sonra o parçalar da əzilir, ovulur, beləcə qopa-qopa, parçalana-parçalana formasını, şəklini dəyişir, düzənliyə çatanda sağa-sola yayıldığından gücünü itirmiş sular daha ona məhəl qoymadığından Qaya İnsan vuruş meydanında yorulub əldən düşmüş döyüşçülər təkin yavaş-yavaş çay boyunca könülsüz-könülsüz aşaraq dığırlanırdı*" **("Həyat eşqi", səh.64).**

Dil əsərin ümumi ruhuna uyğun bəzən kükrəyib qalxır, vulkan kimi püskürür, bəzən düzənlikdə axan çay kimi sakit-sakit öz pıçıltıları ilə danışır. Bütün məqamlarda qəhrəmanın əhvalına uyğun sürətlə hərəkət edir. Dil özü canlı orqanizm kimi çıxış edir. "Həyat eşqi" kimi bir əsəri yazmaq çox böyük söz ehtiyatına malik olmaq deməkdir. Heç yerdə, əsərin heç bir məqamında dilin gücsüzlüyünü görmürük. Əksinə, dilin zəngin çalarları müxtəlif bədii təsvir və ifadələrindən istifadə ilə üzə çıxır, oxucunu öz arxasınca çəkib aparır. Heç cürə dildən ayrılmaq istəmirsən. Cümlələr səhrada ahəngdar yeriyən böyük karvanın hərəkət zənginə bənzəyir. Bu zənglər o qədər ahəngdar, o qədər cəlbedici, o qədər rəvandır ki, onu dinləməkdən, ruhuna çəkməkdən yorulmursan. Bu, həyat eşqinin sonsuzluğudur. İnsanın köksündə döyünən ürəyin ahəngdar sədalarıdır. Dilin gözəlliyə çevirdiyi gözəllik. Yaşamağın, yaratmağın gətirdiyi məmnunluq taleyin bəxş elədiyi uzun ömürdən daha üstündür. Bir an və bir ömür. Anın gücü orasındadır ki, vaxt azlığında

mәna vә mahiyyәt kәsb edir. İnsanın özündәn sonrakı mәrhәlәdә hәyatının davamını tәmin edir. Biz nә qәdәr xatırlanırıqsa bir o qәdәr yaşayırıq. Əslindә, bu günә qәdәr yaşamış olan insanların - әlbәttә, milyon-milyon insanların ümumi sayı ilә müqayisәdә biz çox az adam tanıyırıq - bizim tanıdığımız, adını qürurla çәkdiyimiz insanlar hәyatını qürurla yaşamış insanlardır. H.Mirәlәmovun "Hәyat eşqi" әsәrindәki dil görünmәyәn insan mәnzәrәlәrinin gözәlliyini tәmin edәn zәngin bir dildir.

Görünür, hәyat eşqi insan üçün әbәdi olaraq әn uca bir duyğu kimi qalacaqdır.

# BÖYÜKLÜYÜN SƏRHƏDLƏRİ

Əsərlər də insanlara bənzəyir. İnsanların təbiəti nə qədər fərqlidirsə, bədii yaradıcılıq nümunələri də bir o qədər fərqlidir. Lap ayrı-ayrı düşüncələrin, dünyagörüşlərin məhsulu olmasa belə, yenə də əsərlər bir-birindən fərqlənəcək. Çünki hər hansı bir fikir və söz düşüncə, fikir axarından keçir. Bu isə zaman deməkdir. Bir an özündən əvvəlki anı təkrarlamır. İnsan düşüncəsi də statik - durğun olmadığı üçün yeni cizgilər, yeni duyğularla sözə çevrilir və yaradılan nə varsa özündən əvvəlkindən fərqli olur. O başqa məsələdir ki, bir əsər daha çox diqqəti cəlb edir, başqa birisi diqqətdən kənarda qalır. Əlbəttə, söhbət ondan da getmir ki, hər hansı bir əsərin bədii məziyyətlərinin zəifliyi, sənətkarlıq qüsurları, ədəbi zövqsüzlük yara-

dılmış əsəri birküncə atır. Nə qədər zəhmətin sərfindən asılı olmayaraq, həqiqi ədəbi nümunə meydana gəlmirsə, o məhvə məhkumdur. Ancaq burada məqsədimiz başqadır. Bəzən ən dərin hissləri ifadə edən bir əsər də qəddarlıqla unudulur. Bəlkə də əsərləri insanların taleyi ilə yox, elə müəlliflərin taleyi ilə müqayisə etmək daha düzgün olardı.

Mən XIX əsr rus ədəbiyyatının bir şairini - **Delviqi** yada salmaq istərdim. Doğrusu, mən Delviqin yaradıcılığı ilə tanış deyiləm. Ancaq ara-sıra rastıma çıxan mənbələrdə Delviqin Puşkindən daha güclü şair olduğu haqqında məlumatlar görmüşəm. Ancaq zaman Delviqə qismət elədiyi repressiyanı hələ də onun üstündən götürməyib. Görünür, qəza-qədər ən gözəgörünməz məqamlarda, ağlagəlməz anlarda öz işini görür. Ən güclü insan da, ən müdrik idrak sahibi də özündən güclü görünməz bir varlığa, bir qüdrətə inam gətirir. Və bu zaman insanın dilindən səslənməsə belə, beynindən, düşüncəsindən dualar silsiləsi keçir. Bu yalvarışlar gücsüzün güclü qarşısındakı etiraflarıdır.

Hüseynbala Mirələmovun "Həyat eşqi" əsərində qüvvələr nisbətinin bu cür bölgüsünü - güclülərin və zəiflərin bölgüsünü görürük. Tanrının ucalıq taxtına qaldırdığı dünyanın bütün madiyyatlarından əl çəkmiş, ancaq özünün mənəvi dünyasına qane olan insan və onun şəxsində, onun timsalında təbiət və cəmiyyət - burda artıq canlı və cansız aləmin hamısı gedir - digər tərəfdə isə ancaq bircə qüvvənin təmsilçisi dayanır - Allah. Əsərdə onun adı müxtəlif cür - Tanrı, Ya-

radan, Yerin-göyün Sahibi və s. kimi təqdim olunsa da, eyni qüvvədir. Demək, Allah güclünün timsalı, insan gücsüzün rəmzidir. Təbiətdə və cəmiyyətdə güclü və gücsüzlər arasında ədalətsiz bölgü hakimdir. Təbiətdə güclü vəhşi gücsüzü parçalaya bilir, məhv edə bilir. Ancaq gücsüz də tamam imkansız yaranmamışdı. O, instinklə özünümüdafiə yolları tapır, həyatını qorumağa çalışır və çox vaxt buna nail olur. Və ona görə də gücsüz heyvanın nəsli kəsilmir. Ya sürətlə qaçıb ölümdən xilas olur, ya asanlıqla gizlənə bilir, yaxud da o qədər doğub-törəyir ki, o qədər çoxlu nəsil verir ki, nə qədər öldürülsə belə, yenə yaşaya bilir. Bu zümrədən olanlar sanki həyatlarını bir-birinə güzəştə gedə bilirlər. Bitkilər aləmində də buna bənzər xüsusiyyətlər var. Günəşi daha çox görənlər, daha uca boylular öz yaşarılığını təmin edir, kölgədə qalanlar, havadan, Günəşdən məhrum olanlar məhv olur. Və zaman-zaman bu cür bitkilər də öz yaşarılıqlarını təmin etmək üçün şəraitə adabtasiya olunur, uyğunlaşır və bu yolla ömür qazanır. İnsanlar arasında münasibətlər daha mürəkkəbdir. Güclülər zəiflər üzərində hakimiyyət hüququ qazanır. Və ən müxtəlif vasitələrlə öz hakimiyyətlərini qoruyurlar. Biri digərinin gücünü, enerjisini istismar edir, onu daim itaətdə saxlamağa çalışır. İnsan nəsli daim bu bölgünün əleyhinə çıxmış, həmişə mübarizə aparmışdı. Bütün çevrilişlərin, inqilabların, üsyanların, qətillərin, qarətlərin, müharibələrin əsasında məhz etiraz durur.

İnsan insanı zor gücünə tabe edə bilər, ancaq

onun arzularına, diləklərinə, xəyallarına sədd çəkə bilməz. Arzuların, diləklərin, xəyalların öldürülməsi üçün insan düşüncədən məhrum edilməli, yaxud da bu mümkünsüz olduqda öldürülməlidir. Bunu tiranlar da, cahangirlər də, fatehlər də yaxşı bilir, öz hakimiyyətlərini hifz etmək üsulu olaraq bundan həmişə bəhrələnirlər.

H.Mirələmovun "Həyat eşqi" əsəri sanki bu ideyaya, bu amala, insan yırtıcılığına cavab olaraq yazılmışdır. Müəllif insanı daha uca, daha əbədi, daha qayğısız, daha dinc, daha ağıllı, daha müdrik görmək istəyir. Elə buna görə də onun yaratdığı insan tipi yalnız bircə qüvvəyə sığınır. Bu qüvvə artıq yuxarıda qeyd etdiyimiz kimi, Yaradandır. Yarananın Yaradana sığınması təbiidir. Müəllifin ədalətli düstur hesab etdiyi və "Həyat eşqi" əsərində əsaslandırmağa çalışdığı məsələlərdən biri də bundan ibarətdir. Ünsiyyət vasitəsi olaraq Yaradanla yaranan arasında əlaqə nədir?! İnsan, yəni yaranan Allahla, yəni Yaradanla xəyalları, düşüncələri ilə ancaq özünəməxsus bir dillə danışır. Bu dilin adı duadır. Dualar paklığa, təmizliyə söykənməlidir. Bütün duaların əsasında etiraflar dayanır: *"Kainatın boşluğunda, sonsuzluğunda dua şəklində üzməkdəydi: "Ya Rəbbim, ey başlanğıcın və sonsuzluğun, ədəbiliyin Sahibi, ey böyüklərin, azmanların və gözəgörünməz varlıqların ədalətli, mütləq Yiyəsi, ey sonsuz pərdələr arxasında gizlənmiş sirlərin Bilicisi, ey haqqın carçısı, gözəlliyin, sevgi-məhəbbətin, nurun mənbəyi olan Böyük Allahım, belə yaşamaqdan yoru-*

*lub bezmişəm, böyüklüyünə bağışla məni, mən artıq Sənin xoşlamadığın, bəyənmədiyin tamah, nəfsi, acgözlüyü, xəyanəti, paxıllığı, satqınlığı, riyakarlığı, insana rəva bilmədiyin bütün pis, naqis cəhətləri özümdə öldürmüşəm, Ulu Tanrı, bəlkə mənim son xahişimdə yenə bir tamahkarlıq, biclik işartısı seziləcək, belə olarsa, böyüklüyünə bağışla məni, mən indən belə milyon, milyard il ömür diləmirəm, bir su içim müddəti qədər, əgər bu çoxsa, bir göz qırpımı qədər yaşamaq üçün mənə görməyə göz, eşitməyə qulaq, danışmağa dil, bircə udum nəfəs, duymağa - hiss etməyə bircə an ver. İstəyəndə bütövü parçalayıb toza-zərrəyə, zərrələri birləşdirib bütövə - tama çevirən qüdrətli Allahım, Səndən son diləyim - yenidən bircə anlıq insan olmağımdır..."***("Həyat eşqi" səh.70).** Nəhayət ki, yazıçı öz qəhrəmanını girovluqdan azad etmək qərarına gəlir. Daha doğrusu, milyon illərlə ona yaş vermək böyük sınaq meydanının tam açımı ilə başa çatır. İnsan dərk edir ki, qaya parçası olub milyon illərlə yaşamaqdansa, nəhayət insanlığa qayıdış daha üstündür. H.Mirələmov heç yerdə demir ki, ey insan, sən qayıt öz insanlığına. Və yaxud əsərin ən möhtəşəm obrazlarından biri - Tanrı da işin sonluğunu bilsə də qabaqcadan İnsana heç nəyi bildirmir. Yalnız onun istəklərinin, arzularının səmimiyyətinə inanaraq ona istədiklərini bəxş edir. Burada bir məqsəd də daha qabarıq hiss olunur; insan ancaq əməlində yaşaya bilər. "Həyat eşqi" əsərinin qəhrəmanı isə əməl sahibi deyil. Yazıçı da elə bunu demək istəyir ki, insan yaşamaq

üçün əməlinin Tanrıya xoş getməsini istəməlidir. Bunun üçün cəmiyyətin içərisində olmaq, cəmiyyətin mənafeyinə xidmət etmək, cəmiyyəti daha sağlam görmək naminə yaşamaq və mübarizə aparmaq lazımdır. Yazıçı əsərin sonluğunu çox ustalıqla əsərin özünün təlqin elədiyi qanunauyğun sonluqla bitirir: *"Dan yeri sökülürdü. Günəşin nurlu, dürlü təbəssümü düzü-dünyanı öz bakirəliyinə, öz sehrinə bələyəndə toz-zərrəcik bu nurun, bu saflığın, bu paklığın içində xoşbəxt-xoşbəxt üzürdü..."* **("Həyat eşqi" səh.70).** Milyon illərlə ömürdən sonra nəhayət ki, insan dərk edir. İnsan olmaq, insanlığa qayıtmaq... Bundan üstün heç nə yoxdur.

# HƏYAT DAHA GÖZƏLDİR

Artıq qeyd etdik ki, hər bir əsərin taleyi özünə aid olan yol keçir. Zənnimcə, "Həyat eşqi" əsərini yadda saxlayacaq məziyyətlərdən biri də yarananın Yaradan qarşısındakı bu cür səmimi etiraflar olacaqdır. İndi qəribə sual meydana çıxır. Əgər dua dili insanları da bir-birinə doğmalaşdıra bilərsə nə üçün ondan hər kəs yetərincə bəhrələnmir? Əgər insan dua ilə Allahın ucalığını etiraf edib ona sığına bilirsə və Allah bu duaları qəbul edirsə, elə insanlar da bir-biri ilə bu dualı dili ilə danışmaqla dil tapa bilməzlərmi? Görünür, insanların bir-birinin böyüklüyünü etiraf etməyə gücləri çatmır. Yoxsa, çox asanlıqla nə qədər intriqalar, münaqişələr, başa düşülməzliklər

bir anda havaya sovrula bilərdi. Qəribə də olsa, bir faktı yada salmaq istərdim. Gəlin etiraf edək. Amerika Birləşmiş Ştatları güclü dövlətdir. Onun gücü hərbi qüdrətindədir. Öz hərbi gücü ilə mənəm-mənəmlik azarına yoluxmuş, özündən gücsüz dövlətləri diz çökdürmək iqtidarındadır. Ən sadə, siyasətdən baş çıxarmayan adamlar da belə, bilirdilər ki, Amerika Birləşmiş Ştatları İraqı diz çökdürə bilər. Bəs onda nə üçün **Səddam Hüseynin** timsalında İraq iqtidarı düzgün nəticə çıxara bilmədi, halbuki, düzgün nəticə çıxara bilsəydi İraqda bu qədər qan tökülməz, insan əli ilə yaradılmış, böyük zəhmətlər bahasına başa gəlmiş, alın təri ilə yoğrulmuş şəhərlər, yaşayış məskənləri, gözəlliklər məhv edilməzdi. Ümumiyyətlə, müharibə qaçılmaz ola bilərdimi? Fikrimcə, bu, mümkün idi. Daha bu barədə geniş danışmaq istəmirəm. Ancaq istəyirəm onu deyim ki, Müdrik İnsanı - "Həyat eşqi" əsərinin qəhrəmanını insanlardan baş götürüb getməyə, insanlar arasından qaçmağa vadar edən budur. İnsan öz gücünü, qüdrətini dərk etməyə qadir olmalıdır. Gəmini idarə edə bilməyən gəmiçi təkcə özünü məhv etmir. Gəmi ilə birlikdə gəmidəkiləri də məhv edir. Söhbət dua dilindən gedirdi. Paklığın dilindən, təmizliyin dilindən, müqəddəsliyin dilindən gedirdi. Amma onun əksi də var. Yəni qəddarlığın dili də var, zalımlığın dili də var. İnsanın insanı diz çökdürməyə, onu mənən məhv etməyə xidmət edən dil də var. Bu iki dildən fərqli olaraq, daha bir dil də var: səfalətin dili, aclığın, yoxsulluğun, ka-

sıblığın düçar elədiyi, insanı mənən sıradan çıxardığı, insanı milyon il əvvəlki sürü halına qaytardığı bir aləm də var ki, ona səfalət deyirik. Səfalətin qurbanı olanların bir adı var: səfillər. **Viktor Hüqo** "Səfillər" romanında cəmiyyətin görünən və görünməyən üzünü - səfaləti - bu qeyri-adi obrazı ən kəskin boyalarla yarada bilmişdir. Səfalətin - səfillərin dili arqodur. Romanda oxuyuruq: *"Bəli, bu beldir, hər nə deyilsə də, "arqo" sözünün bu cür başa düşülməsi onun geniş surətdə izah edilməsindən irəli gəlir ki, bununla hamı razılaşmır. Lakin biz bu sözün əvvəlki dürüst, məhdud və müəyyən mənasını mühafizə edəcəyik, bir arqonu o biri arqodan ayıracağıq. Lap qədim zamandan bəri yaşayan bütün bir aləm təşkil edən əsl arqo, ən təmiz arqo, - əgər bu iki sözü birləşdirmək mümkün isə bəli, ən təmiz arqo biz təkrar edirik, səfalətin çirkin, qorxaq, gizlin, xain, zəhərli, sərt, ikimənalı, iyrənc dərin kök salmış məşum dilidir. Bütün zəlalətlərin, bütün bədbəxtliklərin son nöqtəsində hədsiz və dəhşətli bir səfalət vardır; bu səfalət qiyam edir, cəmiyyətin bütün rifahı ilə, hakim hüquqla mübarizəyə, dəhşətli bir mübarizəyə girişir, o eyni zamanda həm zəif, həm amansız olduğu halda, gah hiyləgərlik, gah zorakılıqla ictimai qayda-qanuna hücum edir, qəbahətlər tikanı ilə ona sancılır, ya da cinayət dəyənəyi ilə ona zərbələr endirir. Səfalət bu mübarizə üçün döyüş dili icad etmişdir ki, bu da arqodur. ...Buna biz ancaq bir sözlə cavab verəcəyik. Doğrudan da, əgər bir millətin, ya əyalətin danışdığı dil diqqətə və öyrənilməyə layiqsə,*

*onda diqqətə və öyrənilməyə daha artıq layiq olan səfalətin danışdığı dildir"* **(Viktor Hüqo "Səfillər" səh.394-395).**

Hüqonun təbiri ilə desək, səfalətin danışdığı "dil" nə qədər mövcud olacaqsa demək səfalət də yaşayacaq. O dili yaradan mühiti aradan götürmək, bir sözlə, insanların səfalətə doğru gedən yolunun qarşısı kəsilməlidir. Yaradanla yaranan arasındakı dua dilinin hakimliyinə qədər görünür, hələ səfalət dili də mövcud olacaqdır. Paklığın və müqəddəsliyin dili, yəni dua dili, etiraflar dili yalnız o zaman hakim ola bilər ki, o gözəllik dilinə, sevgi, məhəbbət dilinə söykənsin. İnsan o qədər arınmalıdır ki, insan o qədər dua dilindən keçməlidir ki, sevgi dilinə, gözəllik dilinə, məhəbbət dilinə sahiblənə bilsin. Əgər dua dilinin hansı məqamındasa bircə anlıq qeyri-səmimiyyət çaları sezilsə, o, Tanrı dərgahında qəbul olunmayacaqdır. "Həyat eşqi" əsərinin qəhrəmanını Tanrı dərgahında əziz edən dua dilinin səmimiyyətidir. Dua dilinin səmimiyyəti ilə bağlı, onun müxtəlif çaları ilə bağlı dünya ədəbiyyatından istənilən qədər misallar gətirmək olar. **Çingiz Aytmatov** "Əsrə bərabər gün" romanının qəhrəmanı Boranlı Yedigeyin dilindən səmimi yalvarışların motivini belə verir: *"Soyuqdan tükləri biz-biz olsa da, donsa da Yedigey ətrafı gözdən qoymur, dənizdən öz balığını gözləyirdi. "Niyə ləngiyirsən axı, qəribəsən vallah, sən qorxub eləmə", - deyə o balıq barədə fikirləşdi. Deyirəm ki, qorxub eləmə, səni təzədən suya buraxacam. Deyirsən*

*belə şey olmaz. Təsəvvür elə ki, olur. Axı mən səni yemək üçün gözləmirəm. Yemək üçün evimizdə hər cür balıq var, artıqlamasıyla. Görürsən ki, balığın üçü də qayığın içindədir. Yemək üçün olsaydı, səni gözləyərdimmi, qızıl məkrə! Başa düş, bizim ilkimiz dünyaya gəlməlidir. Sən də bu yaxınlarda arvadımın yuxusuna girmisən, o vaxtdan da dincliyini itirib, bunu dilə gətirməsə də özüm görürəm. İşin niyə belə gətirdiyini deyə bilmərəm, onu bilirəm ki, vacibdir ki, səni görsün, əlində tutsun, söz verirəm, elə o dəqiqə də səni dənizə buraxacağam"* **(səh.191)**. Söhbət balığın - Qızıl balığın Yedigeyin tilovuna düşüb-düşməməyində deyil, onun niyyətinin saflığındadır, məqsədinin, məramının aydınlığındadır. Yerikləyən qadının, dünyaya uşaq gətirəcək ananın keçirdiyi həyəcanları, mənəvi aləmində baş verən təbəddülatların, vurnuxmanın, narahatlıqların və nigarançılıqların bircə dərmanı var, əlacı var; əgər o qadın o Qızıl balığı əlində tutsa, bütün qorxu-qada sovuşub gedəcəkdir. Adama elə gəlir ki, o Qızıl balıq Yedigeyin Allah timsalında tutub yalvardığı balıq onun tilovuna gəlməyə bilməz, çünki Yedigeyin dilindən qopan yalvarışlar məhz Tanrı ilə insan arasında körpü yaradan dua dilidir. İnsan təbiətdə və həyatda gördüyü istər mənəvi, istər təbii gözəllikləri özünün daxili dünyasından keçirib təzədən insanlara qaytaranda, o gözəlliklər daha üstün gözəlliklərə çevrilir. Əgər insan buna nail ola bilirsə, bu, artıq istedadın gücü deməkdir. **T.Drayzerin** "Dahi" əsərinin qəhrəmanı Yucin Vitlanı yada sa-

laq: Yucin həyatdakı gözəlliyə səcdə edir. O, yarada bilmədiyi gözəlliyi elə həyatın özündə görmək istəyir. Tərcüməçi-alim **Zeydulla Ağayev** məhz bu məqamı belə qiymətləndirir: *""Dahi" çap olunan kimi onun əleyhdarları Drayzeri çılpaq naturalizmdə günahlandırır, bu əsərin real zəmindən qopduğunu iddia edirdilər. Drayzeri Amerikaya ləkə salmaq istəyən "alman mühaciri" adlandıranlar da vardır. Ancaq C.London, C.Rid, S.Luis kimi sənətkar Drayzeri müdafiə edərək romandakı realizmi ön plana çəkirdilər. Naturalizm elementləri Drayzerə öz qəhrəmanının sənətkarlıq çırpıntılarını açmaq, onun düşüncələrinin dərinliyinə enmək üçün lazım gəlmişdir. Axı əli fırça tutmayan, beynində bütün rənglər qarışmış Yucin Vitla öz ehtirasının girdabından çıxmaq istəmir, o, rəssam kimi dahi əsərlərində canlandıra bilmədiyi bütün gözəlliyi qadınlarda görür. Yucin qadınlarla yaxınlıqda həm də öz yaradıcılıq vüsətini axtarır. Beləliklə, Yucinin xislətində iki əks qütb birləşir. Yucinin gözəllik axtarışları ölməkdə olan sənətkarların son çırpıntıları kimidir"* **(T.Drayzer "Dahi" əsərinə "Ön söz"dən səh.5).**

Yucindən fərqli olan və Yucinlə birləşən məqamlar "Həyat eşqi" əsərinin qəhrəmanı Müdrik İnsanın təbiətində də görünür. Yucin gözəllik axtarışındadır. Müdrik İnsan həyat axtarışında. Həyat və gözəllik əslində mahiyyətcə bunlar çox yaxın, qohum və bir-birini tamamlayan məfhumlardır. **C.Londonun** "Martin İden" əsərinin qəhrəmanı axtardığı həyatı tapanda onun puçluğun görür. Və çırpıntılar arasın-

da qalır. İçindən çıxıb gəldiyi və gələ-gələ yandırdığı körpülərlə o həyatın içərisinə qayıtmaq istəmir - deməzdim, qayıda bilmir. Bütün körpüləri yandırdığı halda, mənəvi bağları qırdığı halda necə qayıda bilər? Əlbəttə bu, Martinin böyük faciəsidir. "Həyat eşqi" əsərinin qəhrəmanı isə sadəcə insanlardan qopmayıb, onun qəlbi, düşüncəsi, mənəviyyatı insanlarla bağlıdır. Milyon illər keçdikdən sonra belə, yenidən insanların arasına qayıtmaq fikri, qayıtmaq məqsədi onu tərk etmir.

Hüseynbala Mirələmov Müdrik İnsan obrazının yaradıcısı olaraq onu sonuncu arzusuna qovuşdurur: *"Günəşin bu mehriban, bu hərarətli, bu təbəssümlü təması onu sevindirirdi, Üzü gülürdü..."* **(H.Mirələmov "Həyat eşqi" səh.71).** Bu, insanlığa qayıdışdır. Bu, artıq həyatdır. Həyat eşqinin sonsuzluğudur, tükənməzliyidir, həyata sevgidir. Təbii ki, insan həyatına sevgi. Qədrini bildiyimiz, bilmədiyimiz, bəzən bizə qismət olan ömrü israfçılıqla xərclədiyimiz, bəzən sevgisiz, məhəbbətsiz bir daş kimi sinəmizdən asaraq yaşatdığımız və yaşadığımız həyatın gözəlliklərlə dolu aləmi niyə bu qədər sehirli-sirlidir, möcüzəli, ecazkardır?!

...Bir döyüşçünün son anda gülləni özünə yönəltməsi ilə həyatın çıxılmazlıqlarından baş tapa bilməyən insanın intiharı arasında fərq var. Döyüşçü həyatın mənasını dərk etdiyindən ölümü özünə götürməklə həyatı daha mənalı edə biləcəyinə inamdan bu yolu seçir. Ona görə də biz döyüşçü ölümünü idealın

gücü kimi qəbul edirik. “Həyat eşqi” əsərinin qəhrəmanı isə bütün gücü ilə döyüşçünün qəbul edə biləcəyi ölümdən qaçır. Onun intihar məqsədi də yoxdur. Əslində, Müdrik İnsan həyatın gözəlliyini dərk edə bilmədiyindən, cəmiyyət içərisində, insanlar arasında yaşamağın gözəlliyini duymadığından, bəlkə də, qəbul edə bilmədiklərinə qarşı mübarizə apara bilmədiyindən həyatdan (cəmiyyətdən) imtina edir. Bu imtina ona milyon illərlə cismən var olmağın əzabları bahasına başa gəlir.

Cəmiyyət və həyat, İnsan və Tanrı... bu qarşılaşmaların, bu tərəflərin hər birinin öz təyinedicisi var. İnsanın əsas təyinedicisi cəmiyyət içərisində yaşadığı həyatdır.

## ÖLÜM QORXUSU

Həyatın ağrı-acısını dadmış, yaşamağın mənasını və mahiyyətini dərk etmiş insan üçün gərək ölüm qorxusu olmasın. "Həyat eşqi" əsərinin qəhrəmanı müxtəlif adlarla təqdim olunsa da, onun bir adının üzərində müəllif daha çox dayanır. Və hətta Yaradanla onun arasındakı münasibət körpüsünün qurulmasında bu ünvan daha əsas görünür - Müdrik İnsan adını nəzərdə tuturam. Ancaq Müdrik İnsanın riyakarlıqla gizlədilməmiş, bəlkə onun özünə də şübhəli olan anlaşılmayan bir hiss onu əvvəlcə uzun ömür, sonra da əbədi ömür arzusuna gətirib çıxarır. Bu gizlində qalan hiss nədir? Zənnimcə, bunu konkret və aydın şəkildə belə ifadə etmək olar - ÖLÜM QORXUSU.

İşıqlı dünyadan üzülmək, günəşi, ayı, ulduzları, dağı, dərəni, təmasda olduğu insanları görməmək qorxusu, onlardan əbədi ayrılmaq qorxusu. Bütün bunlar nəhayətdə Müdrik İnsanın qəlbinə ömrün elə şirinliyini təlqin edir ki, o, bu hissdən yaxa qurtara bilmir, bu şirinlikdən əl çəkmək istəmir.

Ən qədim Şərq rəvayətlərində, həmçinin Azərbaycan mifologiyasında əbədi ömür arzuları müxtəlif formalarda öz əksini tapıb. "Avesta"da iki qüvvə üz-üzədir: Ahuraməzda (Hürmüz) və Anqramanyu (Əhrimən). Bu qüvvələrdən birincisi xeyir, ikincisi şərdir. Əslində, onların da mübarizəsinin mahiyyətində ədəbiyyət qazanmaq haqqı, arzusu dayanır. Xeyir öz hakimiyyətini, əbədi hakimiyyətini, yaşarılığını istəyir, şər onun qarşısını kəsmək, onu məhv etmək, özünün əbədi hakimliyini güdmək niyyətindədir.

Qədim Şumer mətnlərində, xüsusilə, "Bilqamıs" dastanında da əbədilik arzuları çox qabarıq xətlə qədim gil yazılarından keçir. Bilqamısın mübarizələri, döyüşləri, Enkidunun arzuları, lirik-psixoloji duyğular elə bugünkü insanın arzu və istəkləridir, elə bugünkü insanın keçirdiyi duyğulardır.

Doğrudan da, kim yaşamaq istəməz? Qəbiristanlıqdakı hündür baş daşıları nəyin rəmzidir? Daşların üstünə həkk olunmuş yazıların alt qatında hansı məna ifadə olunur? Ən qədim epiqrafik mətnlərin hamısında əbədiyyət arzuları görünür, açıq-aşkar duyulur. Və sanki həyatdakı ömrünü başa vurmuş insan məhz epiqrafik mətnlərdəki kövrək sözlərlə, qəribə naxışlı

ornamentlərlə bizimlə danışır və sanki gözəgörünməz olsa da, canlanır və hər dəfə o epiqrafik mətn oxunduqca dirilir, bizimlə birgə nəfəs alır.

"Koroğlu" dastanındakı Qoşabulaq əfsanəsi heç də təsadüfi deyil və o, sadəcə Koroğluya güc, qüvvət, səs vermək üçün coşub-çağlamayıb. Qoşabulaq əfsanəsində çox incə bir məqam var. Qoşabulaq daim axan bir bulaqdır. Ağac arasından çıxır, dağların arasından süzülür və dərələrlə üzüaşağı axıb gedir. İlk baxışdan tanış bulaqdır. Azərbaycanın təbiəti, mənzərəsi gözlərimizin qabağında canlanır. Azərbaycanın dağlıq ərazilərində belə bulaqlar çoxdur. Bəs nə üçün digər bulaqların hamısı və elə Qoşabulağın özü də daimi, əbədi olaraq sehirli gücə malik deyil. "Koroğlu" dastanındakı Qoşabulaq əfsanəsindəki qeyri-adi məqam Məşriqdən (şərqdən) və Məğribdən (qərbdən) bir-birinə doğru gələn iki ulduzun qovuşmasının sayəsində güc, qüvvə kəsb edir. Dastanda ulduzların ayrılma məqamı göstərilmir. Ancaq çox güman ki, bulağın az müddətdə sehirli güc kəsb etməsi, köpükləşməsi, coşması iki ulduzun yaxınlaşması ilə bağlı olduğu kimi, bulağın qeyri-adilikdən adiliyə qayıtması da, əslində, ulduzların ayrılması ilə bağlıdır. Demək, ən qədim insan da gücün, məhz sehirli gücün göylərdən gəldiyinə inanmışdır.

Günəşin tutulması, Ayın tutulması ilə bağlı maraqlı rəvayətlər də var. "Həyat eşqi" əsərinin qəhrəmanı da panteistlərdən (Allah təbiətdən kənarda deyil) fərqli olaraq Allahı, Yaradanı, bütün istəklərin

hamısına çarə edə biləni məhz göylərdə gəzir, səmalarda görür, çox yuxarılarda axtarır.

Əbədiyyət arzusunu yerlərdə axtaranlar da var. Ən müxtəlif dava-dərmanlarla, müalicə ilə ömrü uzatmaq, müxtəlif bitkilərin tibbi və yaxud da sehirli gücə malik olduğunu düşünərək onun axtarışında olanlar da var. Məsələn, Azərbaycan nağıllarında qeyri-adi aləmdən gətirilmiş almanı yeməklə 80-100 yaşlı qoca dönüb bir gəncə çevrilir. Elə bunun özü də həyat axtarışıdır, həyatdan doymazlığın təzahürüdür. İsgəndəri-Zülqərneynlə bağlı əfsanə də yada düşür. İsgəndər əbədi həyatın zülmətdəki axtarışına çıxır. Əslində, tarixdə yaşamış olan Aleksandr Makedonski (Makedoniyalı İsgəndər) çox az bir ömür yaşayıb - təqribən otuz üç il. Otuz üç illik ömründə çox böyük fatehlik gücünə, sərkərdəlik məharətinə malik olduğunu sübut edib. O, qüdrətli sərkərdə olmaqdan başqa, həm də çox güclü bir döyüşçü, yenilməz bir cəngavər idi. Həm mifdəki İsgəndər, həm də tarixdə yaşamış İsgəndər (qeyd edim ki, onların oxşar və fərqli cəhətləri çoxdur) həqiqi arzusuna çata bilmir. Zülmətdəki dirilik suyu (abi-həyat) mifdəki İsgəndərin əbədi ömür arzularını doğrultmur. Tarixdə yaşamış İsgəndər də çox böyük var-dövlət qazansa da, zəngin xəzinələr sahibi olsa da, nəhəng, dünyanı sarsıdan saysız-hesabsız ordular sərkərdəsi olsa da, əbədi yaşamaq yolunu tapa bilmir, bir növ qəzavü-qədərin ona elə gənc yaşlarında gətirdiyi ölümün qurbanı olur.

Əfsanə və nağıllarda Adəm peyğəmbərin və Süleyman peyğəmbərin, xüsusilə, "Bibliya" qəhrəmanlarının uzun ömür yaşamalarından bəhs olunur. Maraqlıdır ki, bu uzun ömür sahibləri də yaşadıqları ömür ərzində sonuncu arzularına belə çata bilmirlər. Bu, onu göstərir ki, insanın arzu və istəkləri onun duyğuları ilə, hissləri ilə bağlıdır, bu arzu və istəklərin tükənməzliyinin mənbəyi insanın düşüncəsidir. İnsan nə qədər düşünürsə, bir o qədər onun arzuları təzələnir və nəhayətsizlik, sonsuzluq kəsb edir. Ümumiyyətlə, həyatını bitirməkdə olan insanın vəsiyyətləri və nəsihətləri də diqqəti çəkəndir. İnsan sonuncu nəfəsində belə həmin nəsihət və vəsiyyətlərilə öz arzularını onun son həyat işartılarının şahidi olanlara bağışlayıb dünyadan köçür. Mənə elə gəlir ki, insanın bu xüsusiyyəti ən yüksək ali bir keyfiyyətdir və mütləq təqdir olunmalıdır. O başqa məsələdir ki, kim ömrünün sonunu necə qarşılayır. İnsan həyata, ömrə nifrətlə dünyadan köçmək istəsəydi, onun özündən sonrakı nəsillər üçün bu, çox böyük zərbə olardı. İnsanın həyata, dünyaya, yaşamağa inamı qırılardı.

"Həyat eşqi" əsərinin qəhrəmanı Yaradanın iltifatı ilə ona öz iltimasları sayəsində əvvəlcə uzun ömür (bir neçə yüz il), sonra daha uzun ömür (min il) və daha sonra demək olar ki, milyon illik ömür qazanır. Bəs nəticəsi necə olur? Əsərin özündən də göründüyü kimi, insan nəhayət, dərk edir ki, onun həyatının mənası ancaq öz zəmanəsindədir, öz dövründədir. İnsanın öz dövründən sonrakı ömrü ancaq xatirələrdə ya-

şaya bilər. Gərək insan öz ömrünü elə yaşasın ki, xatirələrdə o, hörmət və ehtiramla yad olunsun, yaddaşlarda əbədiyyət qazansın. Bu, ancaq insanın əməli ilə bağlıdır. Təbii ki, bəd əməl sahibləri, qəlbi, mənəviyyatı şeytan yuvası olan insanlar yaddaşlarda hörmət və ehtiramla xatırlana bilməzlər.

XVII əsr ispan mütəfəkkiri **Baltasar Qrasianın** "Yalnız özünə qulaq asma" tezisi var. Bu tezisi o, özü belə açıqlayır: *"Əgər başqalarının xoşuna gəlmirsənsə, özünün özünü bəyənməyinin nə mənası var? Adətən, təkəbbürlük ümumi nifrətlə cəzalandırılır. Özün özündən vəcdə gəlirsən, ancaq hamı sənə nifrət edir. Yalnız özünlə danışmaq və özünə qulaq asmaq da mümkün deyil, özünə danışmaq - ağılsızlıq, başqaları ilə danışıb ancaq özünə qulaq asmaq - ikiqat ağılsızlıqdır. Özünü dartan adamların bir pis adətləri var, özlərindən çox razı halda və hökmlə danışırlar. "Mən düz dedim?" və ya "Məgər belə deyil?" kimi sözləri ilə özlərinə ya tərif, ya da bəraət qazandırmağa çalışırlar. Buna adamın əsəbləri dözmür. Qaşqabağını tökən təkəbbürlü adamlar da belədirlər. Onların hər boş sözlərinə gurultulu əks-səda lazımdır. Nitqləri qeyri-təbiilikdən axsayır, ona görə də hər sözün - "çox gözəl dediniz!" - kimi axmaq dəstəyə ehtiyacı vardır"* **(B.Qrasian, "Kamillik elmi". Bakı - 2001. səh.54).** Zənnimcə, yazıçı Müdrik İnsanın əbədi həyat axtarışlarına öz mövqeyini bildirmədən gülmüşdür. Müdrik İnsan adı ilə təqdim olunan əsərin qəhrəmanı nəhayətdə öz müdrikliyinin yarımçıqlığını dərk edir (yada salaq onun insan ömrünə

qayıdış arzusunu). O, necə müdrikdir ki, öz müdrikliyinin bar-bəhərini insanlara verməkdən imtina edir. Biz ona necə müdrik deyə bilərik ki, həyatda onun görmək istədiyi bir iş, qoymaq istədiyi bir iz yoxdur. Axı bu müdrikliyi ona (əgər o, həqiqətən müdrikdirsə) doğulub-böyüdüyü mühit - insan cəmiyyəti vermişdir. Əgər o, qazandıqlarını yalnız Yaradanın sayəsində əldə etmiş olsa belə, Yaradan bütün bunları ona insan olduğu üçün vermişdir və Yaradandan aldığını insanlara qaytarmağa borclu idi. O, məhz bu borcdan imtina edir. Anasının həsrətlə "necə də mənim oğluma oxşayır" - deyən səsini, sədasını Qartal qulağı ilə eşidir. Anasının oğulsuzluq həsrətini Qartal gözlərilə görür. Və bu vaxt o, nə üçün yenidən anasının ağuşuna sığınmaq istəmir. Bu, artıq onun faciəsidir. Doğrudur, biz Müdrik İnsanın faciəsinə gülmürük, ancaq acıyırıq. Çünki onun ara-sıra, təkəmseyrək, nakamil, nadan insanlar haqqındakı epizodik düşüncələrinin fərqində olmasaq, o, bütövlükdə insanlara nifrət etmir, o, insanlardan qədərsiz pislik görməyib və hətta bu pisliklər olmuş olsaydı belə bağrından qopduğu insanları pisliklərin arasında qoyub getdiyi üçün ona bəraət vermək çətindir.

Nə qədər ağır olsa da Müdrik İnsanı mühakimə etmədən onun əməlində bəşəri cinayət motivi var - İnsanlıqdan imtina cinayəti.

Fəlsəfə elmləri doktoru, professor **Ağayar Şükürov** qədim atəşpərəstlikdən, "Zərdüşt"dən və "Avesta"dan danışanda **Zərdüştün** fikirlərinə də söykənə-

rək yazır: *"Dindar atəşpərəstlər oğurluq və talançılıq etməməli, başqasının mülkiyyətinə toxunmamalı, özünə qarşı da cinayət işlətməməli idi... Zərdüşt elan edirdi: "Mən o şəxsəm ki, pak bir təbiətlə insanların ruhunu qorumaq üçün təyin olunmuşam: çünki Ahura Məzdanın yaxşı əməl üçün verəcəyi mükafatdan xəbərdaram. Ta nə qədər güc və dözümüm vardır, doğru yolla getməyi insanlara öyrədəcəyəm". Sonra Zərdüşt insanlara müraciət edərək onları haqqa, ədalətə, düzlüyə çağırırdı. Onlara əməl edənlərin gələcəyinin xoş keçəcəyinə təminat verirdi: "Ey insanlar, əgər Məzdanın müqərrər etdiyi əzəli hökmdən faydalansanız, bu dünya və o dünyanın xoşluğundan, əbədi əzabdan, yalana tapınanların zərərindən, düzlük istəyənlərin xeyir və faydasından agah olsanız, onda həmişə gələcəyiniz yaxşı keçəcək". Zərdüşt yalanın qəti düşməni olmuşdur. O, düzlüyə əməl edənləri Ahura Məzdanın istəklisi hesab edirdi. Məzdanı "doğruluq atası" adlandırırdı"* **(Ağayar Şükürov "Fəlsəfə", Bakı - 2002. səh.180).** Göründüyü kimi, ən qədim insanın düşüncəsi ilə bugünkü insanın düşüncələri arasında çox ciddi oxşarlıqlar var. Bu, adi oxşarlıq deyil. Əbədi dəyərlərlə bağlı olan oxşarlıqlardır. Görünür, elə dəyərlər var ki, (biz ona əbədi dəyər deyirik) insanın özü ilə əbədiyaşarılıq haqqı qazanmışdır. İnsan özü bir fərd olaraq əbədiyaşarılığı öz cismində qazana bilməsə də, əbədi dəyərləri yarada bilir.

"Həyat eşqi" əsərinin müəllifi öz qəhrəmanını kifayət qədər ədalətli cəzalandırır. Və bu ədalətli cəzanın

ömrünü onun istədiyi qədər uzadır, min illərin sınağından keçirir, sanki dəfələrlə öldürüb-dirildir və bu cəzanın müddətini onun əsl həqiqəti dərk etməsinə qədər uzadır.

Ümumiyyətlə, hər hansı bir əsərdə yazıçı müəyyən bir problem qoyur. Bu əsərdə qoyulan problem də insanın əbədi həyat arzusudur. "Problem qoyur" ifadəsi də bəlkə bir qədər şərtidir. Çünki o problem deyilən nədirsə, o, yazıçının təfəkküründə çox dumanlı şəkildə bulud kimi dolaşır. Yazıçı isə ilk sözü yazmağa başlayanda o duman söz şəklində süzülüb gedir. Doğuluş baş verir, yaradılışın yeni mərhələsi başlayır, inkişaf olur və sona çatır. Ortalığa çıxan, görünən əsər olur. Əsərlə ilk danışan oxucudur. Hətta müəllif belə öz əsərini özü oxumağa başlayanda oxucu rolunda çıxış edir. Müəlliflə oxucu arasında mükalimə-dialoq sonrakı mərhələnin mövzusudur - müəllif nəyi, necə həll edib. Məhz ədəbi əsərdə qoyulan problemlə bağlı filologiya elmləri doktoru, professor **Kamal Abdullayev** belə mülahizələr yürüdür: *"Problemin qoyuluşu, bizcə, intuitiv yox, məqsədli xarakter daşımalıdır və yalnız belə olarsa, müəlliflə oxucunun "açıq söhbəti" baş tuta bilər. Qeyd etmək lazımdır ki, heç bir problem konkret bir nəsr əsərində və yaxud bir yazıçının yaradıcılığında öz bütöv və tam təcəssümünü tapmır. Problemin müxtəlif aspektləri, müxtəlif konkret halları olur ki, hər bir əsərdə bunların biri öz ifadəsini tapır. Və digər tərəfdən əgər problemin bütövlüyündən söhbət gedirsə, bu, həmin problemin konkret təzahür halları-*

*nın cəmindən yaranmış bütövlükdür desək, səhv etmərik. Yuxarıda qeyd etdiyimiz kimi, ədəbi problemi hissə-hissə, aspekt-aspekt, yön-yön yığmaq lazımdır, bu problemi qaldıran yazıçıların əsərləri əsasında bərpa etmək lazımdır. Biz də indi belə problemlərdən biri kimi insan şəxsiyyəti ilə, onun mənəvi aləmi, həyat tərzi, psixoloji əsası ilə bağlı olan, insanın daxili iztirabı və sarsıntısı nəticəsində ortalığa çıxan, daha çox ömürgün, zaman, mənəvi rahatlıq, vicdan barədə düşüncələrə sövq edən bir problemi göstərmək, bu problemin müəyyən qrup və müəyyən nəsil yazıçılarının yaradıcılığında tutduğu yerdən danışmaq istərdik"* **(Kamal Abdullayev, "Müəllif-əsər-oxucu". Bakı-1985. səh.85).** Zənnimcə, bizim də müəlliflə - onun qoyduğu problemlə bağlı söhbətimiz baş tutdu. Əsərdə kəskin qarşılaşmalar və bu qarşılaşmaların yaratdığı dialoqlara çox yer verilmir. Əsas dialoqlar insan və Allah, yaradılan və Yaradan arasındadır. Bu qısa dialoqlarda müəllif Yaradanın səbrini, təmkinini, ümumiyyətlə, Yaradanın daxili-mənəvi aləmindəki genişliyi, böyüklüyü və əlçatmazlığı verməyə çalışmışdır. Ayrı-ayrı istək və arzuların insanın dilindən səslənişi onun xarakterini açır. Müdrik İnsan obrazının həyati tələbatlarla bağlı bir tamahkarlığı görünməsə də, olmasa da, onun ömürlə bağlı tamahının intəhasızlığı göz önündə canlanır.

Ümumiyyətlə, "Həyat eşqi" əsəri insan haqqında, insanlıq haqqında, insan arzularının sonsuzluğu haqqında fəlsəfi düşüncələr silsiləsi kimi qavranılır. İnsa-

nın həyatının mənası nədədir sualına cavab verilir. Müəllif bütün əsər boyu daxili məntiqlə bir-birini tamamlayan hadisələrin təsviri ilə təbiətdə və cəmiyyətdə gedən dəyişiklikləri və bu dəyişmələrin ayrı-ayrı fərdlərin həyatına təsirini də göstərir.

Müasir Azərbaycan nəsrinin ən yaxşı ənənələrindən faydalanma məqamları az deyil. **Anarın** "Macal", **Mövlud Süleymanlının** "Köç", **Sabir Əhmədlinin** "Dünyanın arşını", **Şamo Arifin** "Məni qınamayın"... və sair kimi qiymətli ədəbi nəsr nümunələrində "Həyat eşqi" əsərində qoyulmuş problemin müxtəlif şəkillərdə və müxtəlif dövrlərdə təzahürünü görürük. Bu mənada "Həyat eşqi" əsəri və onun əsas qəhrəmanı İnsan təsadüfi yaranmayıb, artıq yuxarıda qeyd etdiyimiz kimi, min illər bundan əvvəlin mifə, əfsanəyə çevrilmiş insan arzuları və diləklərilə çox bağlıdır. Əsərdə zamanın dəyişməsi ilə bahəm insanların dünyagörüşlərindəki dəyişmələr, elmin və texnikanın dəyişməsi də nəzərdən qaçırılmır. İnsanın düşüncəsi bu dəyişmələrə uyğunlaşdırılır.

Əbədi həyat axtarışı... bu sənətdədir, sənətə gətirən yoldadır. Heydərbaba adlı dağ nə qədər yaşayarsa, Şəhriyar da bir o qədər yaşayar. Demək, akademik **İsa Həbibbəyli**nin təfsirində əbədi həyatı gördüyümüz kimi duyuruq: *"Heydər babaya salam" poemasında dağ obrazı özünəməxsus yer tutur. Hiss olunur ki, Şəhriyar Heydərbaba dağına daha çox Vətənin bir rəmzi, həm də uşaqlıq xatirələrinin şahidi kimi üz tutur. Bundan başqa, şairin Heydərbaba dağına müraciə-*

*tində "dərdini dağa demək", yaxud da "Məcnun dərd əlindən dağa çıxdı" motivi də nəzərə çarpmaqdadır. Poemanın birinci hissəsində Xoşginab mühitində keçmişdə, şairin uşaqlıq çağlarında baş vermiş ayrı-ayrı olaylara işıq salınmışdır. Bu məqamda maraqlı və qiymətli cəhət bundan ibarətdir ki, Şəhriyar bir kəndin dərdini geniş mənada insanlığın dərdləri kimi ümumiləşdirə bilmişdir" (***İsa Həbibbəyli, "Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı-2007, səh.276).** Bir insan ömrünün əzəli və axırı. Kənddən başlayan uşaqlıq və davam edən ömür - əbədi həyat budur.

"Həyat eşqi" əsərində xammal olaraq ən böyük sərvət dildir. Sanki yazıçı çox böyük zamanın ayrı-ayrı dövrlərini dildə yatan sinonimik cərgələrin gücü ilə göstərir. Dəyişən zamanlar sözlərin sıralanması ilə həmahəng səsləşir. Əsər Yer kürəsinin üstündən əsən külək nəğməsi kimi oxunur. Bunun özü də qəribə bir məntiqə söykənir. Sanki müəllif demək istəyir ki, bu dünya da əbədidir, bu küləyin nəğməsi də əbədi oxunacaq. Gəldi-gedər olan insandır. Məhz insan ona görə daha məsuliyyətli olmalıdır, ona verilmiş ömür payını elə yaşamalıdır ki, ömrünün azlığına heyfsilənməsin.

İnsanın ən xoşbəxt anı onunla görüşə gəlmiş ölümü xoş təbəssümlə qarşılamasıdır.

Göylər də gözəldir, elə yerlər kimi. Bu gözəlliyin bircə sahibi var - insan, insan və yenə də insan.

# OLUM, YOXSA ÖLÜM

Aktyor, yoxsa yazıçı. Aktyor hər hansı bir səhnəni canlandırmaq üçün üzünün mimikasından, başının hərəkətindən, yaxud bədəninin ayrı-ayrı orqanlarının hamısından istifadə etmək imkanına malikdir. Bircə təbəssümlə, bircə sərt hərəkətlə münasibətini bildirir. Qoyulmuş sualın "hə" və yaxud "yox" cavabını verir. Bircə təbəssüm bəs eləyir ki, başa düşək, biz "olumun" qabağındayıq, yaxud "ölümün"?

"Həyat eşqi" əsəri qeyri-adi aktyorun qeyri-adi səhnədəki ömrünün təcəssümünə bənzəyir. Biz gözümüzün qabağında bu qeyri-adi səhnədə min illərlə davam edən hadisələri görürük. Yazıçı sözün qüdrətinə tapınaraq böyük zamanı sıxılmış kütlə halında bizim

qarşımızda açır. Yazıçı həmin o bircə təbəssümün əvəzində sözün qüdrətindən istifadə etməklə zamanı sıxa bilir, sözlə, bütün keçilməzliklər səddini aşır. Və o təbəssüm mənzərəsini sözlə çəkməli olur. Yazıçı insan həyatının mənasını, bu həyatın qədərsiz ölçüsünü, heç nə ilə əvəz olunmayan qiymətini verir.

**Nizami Gəncəvi** insan həyatının gözəlliyini vəsf etməkdən ötrü bir "Xəmsə" yaratmışdır. O, insan idrakının, insan düşüncəsinin sonsuzluğunu və insan mənəviyyatının zənginliyini verməkdən ötrü hər bir beyti dünya xəzinələrinin bəzəyi olan incilər timsalında əsərlər yaratmışdır. Və təbii ki, dünya ədəbiyyatının ən qüdrətli inciləri sırasında başqa sənət nümunələrinin də adlarını çəkmək olardı. Bütün bu əsərlərin məğzində nə qoyulur sualına cavab vermək tələb olunsaydı, ikicə kəlmədən də istifadə etmək mümkün idi: "İNSAN TALEYİ". Və təbii ki, **M.Şoloxovun** "İnsanın taleyi" povesti yada düşür. Nəhəng "Sakit Don"un Qriqori Melexovu yada düşür.

Artıq biz insanlığı nəhəng ağaca bənzətmişdik. Ayrı-ayrı xalqlar bu ağacın budaqları və o budaqların ayrı-ayrı yarpaqları, tumurcuqları fərdlərdir. O ağacın meyvəsi fərdlərin yaratdığı mənəvi dəyərlərdir. Söhbət bu ağacı qorumaqdan gedir. Bəs bu ağacı kim qorumalıdır? Və necə etməliyik ki, bu ağacı qoruya bilək? - sualını vermək daha düzgün idi. Təsadüfi deyil ki, Nobel mükafatı laureatı **E.Heminquey** "Əcəl zəngi" romanının epiqrafı üçün **Con Donnun** bu sözlərini seçmişdir*: "Elə bir insan yoxdur ki, Ada*

*kimi tək-tənha dayanıb dursun: hər insan Qitənin bir parçası, Qurunun bir parçasıdır: Dalğalar sahildə dikələn Qayanı qoparıb dənizə aparsa, sahilin bir guşəsini qoynuna alsa, ya sənin Dostunun Qəsrini uçurub dağıtsa, Avropa kiçilər; hər insanın ölümü də eləcə mənim ömrümü qısaldar, çünki mən bəşəriyyətlə vəhdətdəyəm, ona görə kilsə zənginin harayını eşitsən, heç vaxt soruşma ki, kimdir dünyadan köçən? Sənsən dünyadan köçən". Con Donn"* **(E.Heminqueyin "Əcəl zəngi" romanına epiqraf)**. Necə də üst-üstə düşür. Nəhəng insanlıq ağacı və zəng səslərinin harayını dinləyən insanın kimliyi.

Demək, əslində, zaman boyu bütün mütəfəkkirləri düşündürən bu sual öz aktuallığını, problem olaraq qaldığını bu gün də diktə edir. Bəşər tarixi min illər boyu dəhşətli müharibələrin şahidi olmuşdur. Nəhəng xilafət ordusuna qarşı döyüşə qalxmış **Babəkin** - Xürrəmilərin Həştadsər döyüşü, Napoleonun Vaterloo döyüşü, məşhur Borodino döyüşü, İkinci Cahan savaşının Stalinqrad vuruşması, Birinci Cahan mübaribəsinin sonunda bir gecədə 90 min türk əsgərinin həlak olması... tarixin yaddaşından silinmir. Xirosima və Naqasaki... atom fəlakəti, Sonqmi faciəsi, Xatının məhvi, Xocalı soyqırımı... daha yenə bu siyahını artırmaq mümkündür. Bəşəri hədələyən ölüm qorxusu bəşərin başının üstündən "Domokl qılıncı" kimi asılmışdır.

Bəlkə "Həyat eşqi" əsərinin qəhrəmanı bütün bu fəlakətlərin hamısını bildiyi üçün, bu dəhşətlər, ölüm-

lər, bu fəlakətlər yolu ilə gedən insanlığı öz yolundan döndərə bilmədiyi üçün nəhayət, insanlardan baş götürüb qaçmaq, yalnız öz canını xilas etmək yolu seçmişdir. İndi biz onun əməlinə haqq qazandıraqmı? Axı elə bu günün özündə də insanlar ölümlə üz-üzədir. Bir dəlibaş rəhbər, bir neçə başıpozuq, psixikası zədəli ideoloq nəyinsə naminə insanları ölümlə, fəlakətlə hədələmirmi?

Qədim Romanın **Neronu** insan əliylə yaradılmış cah-cəlalı alovlara bürüyərək qurduğu qanlı səhnədən ilham ummurdumu? Elə bu günün özündə endirdiyi ölüm zərbələrinə baxıb fərəh duyan azdırmı? Faşizmin ancaq ölümlə öz istəyinə yetmək, ancaq öldürməklə öz məramını diktə etmək idealı bu gün yaşamırmı? Madam ki, E.Heminqueyin "Əcəl zəngi" romanını yada saldıq, onda ölümə qarşı insanın necə mərdanə sinə gərməsini bir qədər də qabartmaq üçün bu əsərə yazılmış "Ön söz"dən (Konstantin Simonov) bir parçaya da diqqət edək: *"Heminqueyin fikrincə, faşizmə nifrət etmək azdır. Yazıçı, bu nifrətin mübarizədə öz əksini tapmasını tələb edirdi... Bu roman faşizmə qarşı təkcə yazıçı qələmi ilə deyil, əldə silah əsgər kimi vuruşan bir insan tərəfindən yazılmışdır. Və bu əsər faşizmə qarşı Heminqueyin özünün də mübarizə apardığı qanlı mübarizənin acı məğlubiyyətlə sona çatdığı bir zamanda yazılmışdır...*

*"Əcəl zəngi" romanı iki böyük döyüş arasındakı fasilədə yazılmışdır və bu faktın özü, əsərin mahiyyətini daha dərindən dərk etməyə imkan yaradır.*

*Romanın finalında əsərin qəhrəmanı Robert Cordan əli titrəməsin deyə, dəstənin başından gələn faşist zabitini pulemyotdan çox ehtiyatla, üsulluca nişan alarkən, biz artıq hiss edirik ki, romanın başa çatdığından sonrakı anda Cordan tətiyi çəkib faşistləri atəşə tutacaq. Müəllifin özü simvolikaya heç vaxt meyl etməsə də, bu səhnənin çox böyük rəmzi mənası var.*

*Şəxsən özü üçün sonuncu olan bu döyüşdə ölümünü gözləyən Robert Cordan düşünür: "Əgər indi hücum da baş tutsaydı... Sən nə istəyirsən axı? Hər şey. Mən hər şey istəyirəm, ancaq özümlə nə mümkünsə, onu götürəcəyəm. Eybi yoxdur, qoy bu hücum uğursuzluqla qurtarsın, o birisi uğurlu olar". Roman qəhrəmanının bu son düşüncələri Heminqueyin əsər üzərində işi başa çatdırarkən keçirdiyi əhval-ruhiyyə ilə səsləşir"* **(E.Heminquey, "Əcəl zəngi", Bakı-1986. səh.4).** XX əsrin böyük rus yazıçısı **K.Simonov**un həmin parçadakı mülahizələri məhz bizim fikrimizlə üst-üstə düşür. Demək, insanlar ölüm qorxusu ilə idealdan əl çəkə bilməzlər. Yoxsa, **Nəsimi** bircə kəlmə sözlə canını qurtarar, dərisinin soyulmaq əzabına düçar olmazdı. **Cordano Bruno** tonqalda yandırılmaz, Babək xilafət meydanında doğranmazdı. Əgər belədirsə, onda nə üçün belə bir ritorik sual verməyək? İdeal nədirsə o, insan həyatından daha ucadır. Amma insan həyatını inkar deyil. İdeal ölümdən güclüdür, o, ölümü qəbul edir. Ancaq onun naminə qəbul edir ki, özündən sonrakılar üçün daha gözəl, daha mənalı həyatı təmin etsin. Ölümdən xilas üçün Allaha yalvarış ideyası -

“Həyat eşqi” əsərinin qəhrəmanı Müdrik İnsanın Allaha üz tutması artıq dəfələrlə qeyd etdiyimiz kimi, insan düşüncəsi üçün təzə deyil. İnsan ayrı-ayrı məqamlarda onu yaxalayan ölümdən xilas olmaq istəyir. Bunu H.Mirələmovun Müdrik İnsanı da arzulayır. Onun dualarına bürünmüş, yüksək səmimiyyət çaları ilə ifadə olunan dualarının bircə məqsədi var: Tanrı onu eşitsin, ona ömür versin.

“Dədə Qorqud Kitabı”nda da **(yeri gəlmişkən qeyd edək ki, böyük türkoloq alim Tofiq Hacıyev özünün yubileyində çıxış edərkən elmi ictimaiyyətə üz tutub “Kitabi-Dədə Qorqud” termini əvəzində “Dədə Qorqud Kitabı” ifadəsinin işlədilməsini xahiş etdi - Ə.X.)** bu ideya var. “Dədə Qorqud Kitabı”nın qəhrəmanlarından biri onu boğazlayan Ölümə yalvarır. Bu yalvarışın müqabilində cavab gəlir ki, əgər sənin əvəzində kimsə ölümünə razılıq versə, onda sənin həyatın bağışlanar. Burda məqsəd mifin həyatın dəyərini göstərmək istəyidir. Yəni həyat o qədər şirindir ki, kimsə asanlıqla başqasının əvəzində ölmək istəmir. Yuxarıda qoyulan sualla mif arasında ziddiyyət varmı? Zənnimcə, burada heç bir ziddiyyət yoxdur. Hər iki halda həyat ideal olaraq qəbul olunur. Ancaq o həyat ki, o şərəflə yaşanır, ancaq o həyat ki, həqiqətlərin məcmuyudur. Saxtalıqların, yalanların yox, həyata sevginin, həyatı gözəlləşdirmək əzminin məcmuyudur.

Əsgər müharibə meydanında özündən sonrakıları xilas etmək üçün ömründən keçməlidir. Və əsgər tərəddüd etmədən sinəsini ölüm saçan mazğalın ağzına

verir. Əsgərin ürəyi döyünməkdən qalır, ancaq mazğal da susur. Əvəzində əsgərdən sonrakılar ideala daha bir neçə addım yaxınlaşmış olurlar. Ən azı ölüm saçan bir səngər susdurulur.

Qladiator döyüşləri - bir tərəfi ölüm, bir tərəfi qələbə. Ancaq bu ölüm və bu qələbə yuxarı səhnədən baxan üçün həzz mənbəyidirsə, onun hər iki tərəfi nifrətə layiqdir. İnsan bu cür ölümü qəbul edə bilməz, necə ki, bu cür qələbəni də qəbul edə bilmir. Əsas nifrət mənbəyi bu səhnəni yaradanlardır. Burda ölümdən qaçmaq, yaxud özünün fərdi qələbəsinə nail olmaq da rəzillikdir. **Spartak** böyük idealı bu cür dərk edir.

Spartak qüdrətli cəngavərdir. O, qədim Roma zindanlarından xilas ola bilir. Və çox asanlıqla qaçıb canını qurtara bilər. Hansısa uzaq bir guşədə məskən sala bilər, adını da dəyişə bilər, başqa ad altında da yaşaya bilər. Ancaq o, bunların heç birisini qəbul etmir. Əks tərəfin insanlığa qənim olan idealına qarşı vuruşmaq yolunu seçir. Və öz qüvvəsinin tükəndiyini, nəhəng Roma imperiyasının sütunlarını silkələsə də onu dağıda bilməyəcəyini dərk edir və son anda barışıq və sülh istəyən düşmənlə razılaşmaq məqamına gəlir. Ancaq razılaşa bilmir və canından keçir. Nə üçün?

Spartakın sevgilisi Valeriya Messalaya məktubunu oxuyaq: *"Spartak füsunkar Valeriya Messalaya salam göndərir və xoşbəxt olmasını arzu edir. Mənim füsunkar Valeriyam, səni sevdiyim üçün Mark Krassla görüşdüm, dedim ki, silahı yerə qoyuram. Sənə və bi-*

*zim əzizimiz Postumiyaya bəslədiyim məhəbbət xatirinə mən hər şeyə razı olardım. Lakin Siciliya pretoru mənə veriləcək həyatın və azadlığın əvəzində məndən xəyanət tələb etdi. Mən sənə qarşı nankor, qızıma qarşı rəhmsiz olmağı, qardaşlarıma xəyanət etməkdən, adımın əbədi rüsvayçılıqla ləkələnməsindən üstün tutdum. Bu məktubu alandan mən yəqin ki, daha sağ olmayacağam; qarşıda böyük və qəti vuruşma durur, bu vuruşmada mən həyatımı şərəflə sona yetirəcəyəm. Ədavətli taleyin hökmü belədir. Ey mənim füsunkar Valeriyam, bu qədər ki, səni dərdlərə saldım, bunun üçün ölməzdən əvvəl səndən üzr istəmək ehtiyacını duyuram. Məni əfv et, ömrünü şən keçir. Ölərkən sənin yüksək, mərd qəlbinə, nəcib, sevən ruhuna xeyir-dua verirəm. Möhkəm ol, yaşa; mənə olan məhəbbətin xatirinə, o məsum körpənin xatirinə yaşa - ölən adamın son arzusu, son xahişi budur. Göz yaşından boğazım qəhərlənir, nəfəsim tutulur, yalnız bir fikir mənə təsəlli verir: o da daha yaxşı bir dünyada səni, sənin ölməz ruhunu qucaqlayıb bağrıma basmaq ümididir. Mənim son busəmi qəbul et, sənin Spartakının son fikri, qəlbinin son çırpıntısı sənə doğru can atır"* **(Rafaello Covanyoli "Spartak". Bakı-1986. səh.552).** Mən bilmirəm, həqiqətən Spartakın belə bir məktubu olub, ya olmayıb. **Rafaello Covanyole** özünün "Spartak" romanında Spartakın dilindən verdiyi həmin məktubla ölümdən güclü insanın qüdrətini təqdim edir. Bu tale Babəkin taleyinə çox bənzəyir. Babək də belə şərəfsiz barışığa boyun əymir, ölümü seçir.

Bəs “Həyat eşqi” əsərinin qəhrəmanı hansı yolu seçir? Artıq onun seçdiyi yol məlumdur və ən müxtəlif şəkildə bu yola münasibətimizi bildirmişik. Ancaq indi məsələnin başqa tərəfinə diqqət edək. Müəllif sanki Müdrik İnsanın seçdiyi yolun ən doğru yol olduğu qənaətindədir. O, qətiyyən əsərin qəhrəmanına mane olmur. Hətta ilk baxışdan oxucuya elə gəlir ki, müəllif bu yolu təqdir edir. Və yeri gəlmişkən burda bir məqama da münasibət bildirmək olar. Müdrik İnsan adını müəllif əsərinin qəhrəmanına təsadüfi verməyib və burda çox gizlin ironiya, tənə var. Və o ironiya və tənəni əsərin axırına qədər sezdirməməyə çalışır. Yəni ki, gizli ironiya ilə Müdrik İnsan adlandırılan qəhrəman öz cəzasını - ədalətli cəzasını almalıdır, başı daşdan-daşa dəyənə qədər bu yolu getməlidir. Müdrik İnsan isə öz aləmindədir. O, bəlkə də qartal kimi göylərdə süzəndə özünü xoşbəxt hiss edir. Amma həqiqətən burda təqdir olunan bir məqam var. Bir qartal olaraq təbiətin qoynunda asudə yaşamaq, təhlükəsiz yaşamaq, göylərin ənginliklərində süzmək və bol yem ehtiyatından qidalanmaqla qayğısız ömür keçirmək xoşbəxtlik deyilmi? Bəli, bəlkə də bu, qartal ömrü üçün kifayətdir. Bu şərtlə ki, onun insan düşüncəsi olmayaydı, başqa sözlə, o, elə insan olmayaydı. İnsana fantastik qartal forması verməklə müəllif onu göylərə qaldırır və onun arxasınca baxıb düşünür: indi özünü necə hiss edirsən, bu həqiqətənmi xoşbəxlikdir?

“Həyat eşqi” əsərində oxuyuruq: *“Palıd xoşbəxt*

*ömrün şərəf-şan gətirən qürurunu, ləzzətini duyurdu... Bitdiyi geniş yal-yamac, ətraf mühit, düz-dünya mehriban qonşularla doluydu. Düşmənçilik də heç birinin ağlına gəlməzdi. Bunu Tanrının qartaldan palıda çevirdiyi ağac düşünürdü. Çünki Allahın yaratdığı torpaq, hava, günəş, işıq, su yetərincə vardı və bütün ağaclara bəs edirdi. Onlar bir ailənin üzvləri kimi bütün gecəni yarpaq dillərində bir-birilə danışır, pıçıldaşır, dərdləşir, gündüzlər mürgü vurur, toran qovuşanda yuxulu gözlərini açırdılar. Palıd yatağan olmasa da, mışıl-mışıl uyumağı mürgüləməyi xoşlayırdı. Və qəribəydi ki, əvvəlki insan və qartal həyatını da yuxuda görürdü. Deməli, fikri-düşüncəsi, təfəkkür tərzi eynilə qalmışdı. Nə baş verəcəyini əvvəlcədən hiss eləyirdi və bilirdi ki, bu, keçmiş həyatından qalma xoş bir mirasdır. Genin təsdiqidir..."* **(H.Mirələmov, "Həyat eşqi", Bakı-2005. səh.40).** Burdaca müəllifin görünməyən və eşidilməyən qəhqəhələri var. İstehzalı gülüşləri var. Budurmu sənin müdrikliyin? Budurmu sənin xoşbəxtliyin? İnsanın yaddaşı pozulmayıbsa, yaddaş öz hökmünü diktə edirsə, demək, mənəviyyatın hakimi odur. Və onun mühakiməsindən qaçmaq mümkünsüzdür. Bu artıq o məqamdır ki, Qartal öz qanadlarından qürur duyur, bu, o məqamdır ki, Palıd özünün nəhəng gövdəsiylə lovğalanır, dəyişən təbiətin ahənginə uyğun ömür sürür. Bu, o məqamdır ki, o, özünün Daş üzü ilə milyon illəri yola salır. Və o məqamdır ki, hələ Müdrik İnsan özünü dərk edə bilmir. O, hələ bilmir ki, lap milyard il də yaşasa

məhv olub gedəcək və heç kimin yaddaşında qalmayacaq. Çünki o, bu həyatı gözəlləşdirmək naminə, bu həyatı özündən sonrakılara daha yaxşı vermək naminə heç nə etməyib. O, qısırdır, doğub-törəyə bilməz. Onun varislik hüququ yoxdur. Çünki özündən əvvəlki nəsillərdən imtina etmişdir, demək, özündən sonrakı nəsillərə də heç nə verə bilməz. "Qısırdır" ifadəsi onun ən böyük yarlığıdır. Təbiətin bəxş etdiyi, taleyin qismət elədiyi fiziki, cismani şikəstliyə ağız büzmək mənəviyyatsızlıqdır. Bundan böyük idbarlıq yoxdur. Ancaq mənəvi şikəstlik mütləq üzə çəkilməli, onun islahının yolu axtarılmalıdır.

Müəllif də Müdrik İnsanın insanlıqdan imtina yolunun mənəviyyatsızlıq olduğunu ona başa salmaq üçün, ona anlatmaq üçün, onun özünü dərk etməsinə yol göstərmək üçün bu uzun yolu seçmişdir. Təsadüfi deyil ki, ömrün qırx yaşı insanın kamillik çağı hesab olunur. Və bu qırx illik ömründə özünün bir çox cəhətlərilə fərqlənən və bu qırx illik ömürdə təmkin, dözüm qazanan insan bu keyfiyyətlərilə insanlığa doğmalaşa bilmir. Onun qısırlığı mənəvi qısırlıqdır. O, törədicilik xassəsinə fiziki cəhətdən qadir olmasaydı, təbii ki, bizim bu ifadəmiz yerinə düşməzdi.

Qədim yunan mifologiyasında **Niobeya** və **Latona** obrazları var. Niobeyanın yeddi uşağı var, Latonanın iki övladı var. Niobeya yeddi övladı olmağından lovğalanır, Latonanı qısır adlandırır. Bundan qəzəblənən Latonanın oğlanları Artemida və Apollon təhqirə qarşı çıxır və qanlı savaş başlayır. Niobeyanın

övladlarını Latonanın oğlanları oxlayıb öldürür. Bu fiziki qüsuru - hərçənd ki, Latona qısır deyildi - fiziki şikəstliyi lağa qoyan, istehza obyektinə çevirən mənəviyyatsızlığın cəzası idi. Baxmayaraq ki, bu cəza ilə də biz barışmırıq. Ancaq mif sərt və qəddar bir hökmlə mənəviyyatsızlığın cəzasını verir. Qeyd olunduğu kimi, söhbət Müdrik İnsanın fiziki qüsurundan getmir. Söhbət onun mənəvi qüsurundan gedir. Bir fərdi ömrün uzadılması naminə öz dövrünün insanlarına vurduğu zərbədən gedir. Böyük həyat idealına xəyanətdən gedir.

# ÜRƏK TELLƏRİ

Hər bir yazıçının, sənətkarın özünəməxsus elə sənətkarlıq xüsusiyyətləri var ki, bununla fərqlənir, bəlkə elə bu keyfiyyətlərilə tanınır, özünü təsdiq edir. Çox vaxt yazıçı müxtəlif "izm"lərin, müxtəlif ədəbi cərəyanların məqsəd və məramlarından xəbərdar olmur, ancaq həyat məktəbindən keçərək qazandığı dünyagörüşün, mənəviyyatında formalaşmış müəyyən idealın təsir dairəsində fəaliyyət göstərir. O, özünün yazı masası arxasına əyləşəndə hansı yolla gedəcəyini bəlkə də, tam aydın görmür. Ancaq mənəviyyatından onu çağıran idealın işığına yol gedir. Bu işıq onu yaradıcılıq axarında müşayiət edir, ona ilham verir, bir növ çəkib sahilə çıxarır. Realizm və romantizm. Uzun müddət bu ədəbi cərəyan-

ları bir-birinə qarşı qoymaqla, cəmiyyətə təsir dairəsinə görə birinə üstünlük verməklə, digərini inkara cəhd etmişlər. Xüsusilə, sovet dövründə formalaşmış sosializm-realizm prinsipi hakim olmuş, daha çox sosialist realizminə və bundan çıxış edərək nisbətən tənqidi realizmə meyil daha güclü olmuşdur. Romantizm bir çox hallarda zərərli ədəbi cərəyan kimi dəyərləndirilmiş və bununla da yazıçının qanad açan xəyalları, təxəyyül imkanları məhdudlaşdırılmış romantik üslubda yaradılan əsərlər inkarla tənqid olunmuş və belə əsərlərin müəllifləri hətta repressiyalara, təqiblərə məruz qalmışdır.

Görkəmli ədəbiyyatşünas alim **Cəfər Xəndan** 1955-ci ildə "ədəbi stil: metod və cərəyanı haqqında danışarkən yazırdı: *"Romantizmdə bir-birindən fərqlənən iki istiqaməti ayırmaq lazımdır: passiv romantizm - bu, insanı ya varlıqla barışmağa çağırır, varlığı bəzəyir, yaxud da varlıqdan uzaqlaşdırıb öz mənasız daxili aləminə qapılaraq, xəyallara - "Həyatın qəzavü-qədərlə dolu tapmacalar"ndan bəhs edən xəyallara, məhəbbətə, ölüm haqqındakı düşüncələrə - "əqlin" həll edə bilməyəcəyi "tapmaca"lara, təsəvvürə - yalnız elm yolu ilə həll oluna bilən təsəvvürlərə aparıb çıxarır"* **(Cəfər Xəndan, "Seçilmiş əsərləri", Bakı-1972. səh.104).** Təsadüfən bu fikrə söykənmirəm. Ona görə bu fikrə söykənirəm ki, Hüseynbala Mirələmovun "Həyat eşqi" əsərində daha çox romantik üslubun təsirini görürəm. Xəyalların qanadlanması, insanın varlıqda əsası olmayan istək və arzuları, bu

arzuların gerçəkləşməsi naminə ədəbi qəhrəmanın mübarizələri və bu mübarizələrin sözlə ifadəsi (məhz nə cür ifadəsi) bu qənaətə gəlməyə kifayət qədər əsas verir. Söhbət fantastikadan, insanın qartala çevrilməsindən, onun qanadlanıb uçmasından, yaxud ağaca döndərilib ona min illik ömür bəxş edilməsindən, uzaq gələcəkdən, həmin insanın uzaq gələcəkdəki dəyişmələrindən (eyni zamanda, varlığın dəyişmələrindən) getmir. Qanadlanan xəyalların arxasınca gedən yazıçı qəhrəmanını cəmiyyətə sırımaq qəsdində deyil. Əslində, cəmiyyətdən qopan insanın faciəsini göstərmək üçün bu yolla getməli olmuşdur.

"Həyat eşqi" əsərinin müəllifi ədəbiyyat aləmində birdən-birə yer tutmamışdır. O, bu yolu çox böyük əzab-əziyyətlə keçməkdən bezməmiş, usanmamış, sanki "Həyat eşqi" əsərinin qəhrəmanı kimi əbədi həyat axtarışında ədəbi həyatın özünə gəlib çıxmışdır. Bu məqamı akademik **Bəkir Nəbiyev** də dəqiq müşahidə etmişdir. Hər hansı bir əsərilə qəflətən parlamaq və ədəbi aləmdə elə o bircə əsərilə yaşamaq haqqı qazanan yazıçılar çoxdur. Ancaq ümumi yaradıcılığı ilə ən müxtəlif sahələrdə qələmini sınamaqla özünü təsdiq edən yazıçılar da vardır. Akademik Bəkir Nəbiyev haqlı olaraq Hüseynbala Mirələmovu belə müəlliflərin sırasında görür. Yəqin ki, elə bu səbəbdən Bəkir müəllim "Hərənin öz yolu var" sərlövhəli qeydlərində göstərir: *"Az-çox izləməyə müvəffəq olduğum çağdaş ədəbi prosesdə ayrı-ayrı yazıçıların bədii yaradıcılıq aləmində tanınıb təqdir*

*olunması, məşhurlaşması müxtəlif yollarla baş vermişdir. Məsələn, qocaman Xalq yazıçısı Sabir Əhmədov ilk "Arabaçı" hekayəsindən diqqəti cəlb etmiş, o vaxtın çox mötəbər və tələbkar tənqidçilərindən Mehdi Hüseynin afərinlərinə, əhsənlərinə layiq görülmüşdü. Çingiz Aytmatov elə "Cəmilə" povesti ilə əvvəlcə keçmiş SSRİ məkanında, azacıq sonra isə Avropa miqyasında ad çıxarmışdı. Xalq yazıçısı Əkrəm Əylisli "Dağlara çən düşəndə"ni nəşr etdirəndən təravətli təsvir üslubuna malik bir yazıçı kimi sənət aləminə daxil olmuşdu. "Qətl günü"ndən əvvəl və sonra sayca o qədər də çox olmayan bəzi əsərlər yazsa da Xalq yazıçısı Yusif Səmədoğlu məhz adı çəkilən romanı ilə ədəbiyyatımızda özünəməxsus yerini tutmuşdur.*

*Elə qələm sahibləri də var ki, onların ilk yazıları zamanın çoxjanrlı, çoxsaylı əsərlər axarında hansısa fövqəladə bir xüsusiyyətlə fərqlənmir, onlar sənət pillələrini aram-aram qalxır, öz istedadı, ədəbi cəfakeşliyi sayəsində qələmləri getdikcə püxtələşir, təkmilləşir, bundan sonra nəzəri cəlb edir, ədəbi mühitimizdə diqqət mərkəzinə çıxırlar. Hüseynbala Mirələmov məhz bu yolu keçən ədiblərimizdən biridir"* ***("Kredo" N38(399) 9 sentyabr 2006-cı il)***. Sanki bu qeydlərdən çıxan nəticə olaraq Mirələmovun hər hansı bir əsərini onun yaradıcılığından götürməklə, yaxud sadəcə, çıxdaş etməklə onun bir yazıçı, bir sənətkar kimi mövqeyi yenə də toxunulmaz qalacaqdır. "Həyat eşqi" əsəri də bu baxımdan istisna deyil. Ancaq hər halda "Həyat eşqi" əsəri düşüncəyə, həyat hadisələ-

rinə, tarixi-ədəbi prosesin ən müxtəlif məqamlarına baş vurmağa əsas verir. Və elə bu cəhətinə görə "Həyat eşqi" əsəri H.Mirələmovun yaradıcılığında önəmli yerlərdən birini tutur.

Müəllif insanın xəyallarının dolandığı yerlərlə, istək və arzularının zirvəsilə onun ayağının dəydiyi yeri insanın özü ilə birləşdirir. Yəni yer və göy - hər ikisi birlikdə, əslində, insanın məkanıdır. İnsanın xəyalları göydə yaşasa da, özü yerdədir. Bu mənada yerlə göyün sərhədləri qovuşuqdur və bir-birindən təcrid olunmayıb. Ancaq yerdə elə bir mənəvi gərginlik mühiti var ki, insan bir çox hallarda buna dözə bilmir, yaxud bu gərginliyə dözmək istəmir. Məhz o zaman insan varlığını dəyişmək, ona qəfəs olan mühitdən baş götürüb qaçmaq istəyir.

XX əsr Azərbaycan poeziyasının klassiki, "Həyat sən nə şirinsən" şeirinin müəllifi **Bəxtiyar Vahabzadə** hələ təqribən 50 il bundan əvvəl (16 yanvar 1958) "XX əsr" adlı şeirində **(B.Vahabzadə, "Əsərləri" I cild, Bakı-2001. səh.192)** deyirdi:

*"Teleqraf telinə bənzər əsəblərimiz*
*Hər gün yeni bir xəbər -*
*Əsəb teli bir anda neçə dəfə titrəyər?*
*Dünya qərar tutubdur hər kəsin otağında.*
*Biz dünyanın ən uzaq, ən ucqar bucağında*
*Baş verən vaqiədən xəbər tuturuq o dəm.*
*Qəzet sütunlarına yerləşir bütün aləm.*
*Radiolar gətirir gündə min xəbər bizə,*
*Dünya özü yüklənib əsəb tellərimizə.*

*Ürəyimdə, qanımda yaşadıram əsrimi*
*Mən təəssüf etmirəm bir yay kimi, sim kimi*
*möhkəm gərildiyimə,*
*İyirminci əsrdə dünyaya gəldiyimə.*
*Əsrin öz yollarıdır alnımdakı qırışlar.*
*Hər qırışda bir ilin öz nəqşi, öz izi var.*
*Siməm - nəğmələrimdə gah qalxıb, gah enmişəm.*
*Əsrimin öz səsi var, bu səsə köklənmişəm."*

H.Mirələmovun Müdrik İnsanı bu cəhətdən tək deyil. Vaxtilə Bəxtiyar Vahabzadə insanın mənəvi dünyasındakı gərginliyi - bir insan olaraq özünün keçirdiyi gərginliyi poetik dillə belə ifadə edirdi.

İndi o sim kimi gərilən insan, ürəyinin telləri teleqraf tellərinə bənzəyən insan bu mənəvi gərginlik altında nə qədər yaşaya bilər? Bu, xüsusi bir enerjidir və o insanı heç vaxt rahat buraxmır. Əgər insan öz daxilinə yığılmış mənəvi potensialı reallaşdıra bilməsə, həmin o gərilmiş sim qırıla bilər. İnsanın başına hava gələr (buna el arasında "havalanar" deyərlər) ruhu sarsılar, mənəvi-psixoloji böhran içərisində məhv olar, yaxud infarkt bu gərilmənin nəsibidir, sadəcə, ürək partlayar.

Demək, çıxış yolu axtarılmalıdır. Ya "Həyat eşqi" əsərinin qəhrəmanı Müdrik İnsan kimi varlığa arxa çevirər, Tanrıya üz tutmaqla daşa, quşa çevrilər (əslində, bu da məhv olmanın bir yoludur) ya da bir insan olaraq həmin o daxili-mənəvi potensialı, gücü, enerjini reallaşdıra bilər. Bildiklərini öyrədər, düşüncələrini yazar, heykəl yonar, binalar tikər, dünyanın

gözəlliyini daha da artırar, həyatın eybəcərliklərinə qarşı vuruşar. Həmin poetik lövhənin qəhrəmanı olan İnsanın - konkret olaraq bu məqamda B.Vahabzadənin yolu ilə gedər. B.Vahabzadə uzun ömürdə zəngin yaradıcılıq yolu keçib. Saysız şeirləri, poemaları, dram əsərləri, ədəbi-publisistik məqalələri ilə insan ürəklərini fəth edib. Ən dəqiqi bununla o, özünü təsdiq edib. Doğrudan da sübut edib ki, onun ürəyinin telləri həqiqətən gərginlik altında olan teleqraf simlərinə bənzəyirmiş. Bəlkə B.Vahabzadə bu yolla getməyəydi, onda onun həyat yolu necə sonuclana bilərdi? Bir çıxış yolu da var: tərki-dünya olmaq, həyatın nemətlərindən imtina etmək, sonralar onun özünün də çox böyük həyəcan və zəngin duyğularla tərənnüm etdiyi şirin olan həyatdan necə əl çəkmək olardı? O, ümumiyyətlə, bu yolu seçə bilərdimi? Bax əsl müdriklik budur: bu, həyatı sevməkdir. B.Vahabzadəni Loğman obrazına gətirib çıxaran yol budur.

B.Vahabzadənin "Həyat, sən nə şirinsən" əsərinin qəhrəmanı Loğman uzun ömürdən sonra həyatdan doymadığını etiraf edir. Bir vaxt bu dünyada qoyduğu qəlbinə qovuşan ruhu ilə XX əsrin insanı kimi yenidən görünür. "Siməm" deyib, sim kimi gərilməyindən bezməyən, əsrin öz səsinə köklənmiş o insan öz insan qüdrətini göstərmək gücündədir. Bu güc onun yaratmaq eşqində, yaratdıqları ilə yaşatmaq istəyində görünür. Bəlkə də bu obrazın da adı - Loğman rəmzi məna daşıyır. Necə ki, "Həyat eşqi"

əsərində Müdrik İnsan adı rəmzi məna daşıyır. Ancaq həyatdan doymayan Loğmanla özünə uzun ömür arzusu ilə dualarından keçib Tanrı dərgahına qalxmağa çalışan Müdrik İnsanın idealları arasında böyük fərq var. Loğmanın idealı uzun ömürlə insanlara kömək etmək, Müdrik İnsanın idealı uzun ömürlə özünü xilas etməkdir. Bəlkə Müdrik İnsan öz yolu ilə bizə diktə etmək istəyir ki, qalxın, təmizlənin, durulun, Tanrıya dua edin, Tanrının hüzurunda acizliyinizi boynunuza alın, siz də mənim kimi uzun ömür qazanın. Əvəzində nələri verək? - Müdrik İnsan bu suala cavab vermir. Çünki onun üçün həyatda müqəddəs olan heç nə yoxdur, onu insanlarla bağlayan dəyər yoxdur. O, bütün müqəddəsliklərin üstündən keçmişdir. Hətta o, öz dualarına sığınıb Yaradanın istehzalarını belə görməzliyə vurur. İndi sual olunur: Tanrının dərgahında Loğman əzizdir, ya Müdrik İnsan? Loğmanın düşüncələri ilə qarşılaşma məqamında hər birimiz "HƏYAT, SƏN NƏ ŞİRİNSƏN" duyğusunu yaşayırıq. Həmin o qeyri-adi mənzərə, qüdrətli şair qələmilə həyat eşqinin tərənnüm olunduğu məqam insanın həyatdan doymazlığı bizi heyrətdə qoyur. Təsadüfi deyil ki, böyük sənətkar bu şeirini çox facianə və qəribə taleyi olmuş böyük ingilis şairi **Corc Qordon Noel Bayronun** xatirəsinə həsr etmişdir.

Min dəfə oxusaq da aşıladığı böyük hisslərdən, zəngin estetik zövqündən doymadığımız həmin lövhəni bir də gözlərimizin önünə gətirək:

*"Səndən doymaq olarmı, həyat, sən nə şirinsən!*
*Ancaq hamının deyil, sən həyatın qədrini*
*yalnız bilənlərinsən!..*
*Özünü bu dünyada heç kəs qonaq sanmamış,*
*Ancaq ömrün özü də bərabər paylanmamış.*
*Ömür paylanan zaman görün kimə nə düşdü,*
*Üç yüz il boz qayğaya, on il şahinə düşdü,*
*Həyat, sən nə şirinsən, kim səndən doydu getdi!*
*Gedənlər bu dünyada qəlbini qoydu getdi.*
*Dünən qoca bir qarı dilində ahü-zarı:*
*"Bu dünyanın əlindən gəlmişəm zara" - dedi.*
*"Ölmürəm ki, bir dəfə canım qurtara" - dedi.*
*Ürəkdənmi söylədi o, bu sözü görəsən?*
*Xeyr, inanmıram mən!*
*O, yana-yana dedi. - Dili söylədisə də,*
*Ürəyində o dərhal: "Lənət şeytana!" - dedi.*
*Həyat, sevincin qədər əzabın da şirindir,*
*Səni mənalandıran o keşməkeşlərindir.*

*İki yüz il yaşadı ləzzət içində Loğman*
*Yenə möhlət istədi ölürkən allahından.*
*Yatırdı göy çəməndə, çatdı ona əzrail.*
*Söylədi: - İki yüz il ömür sənə bəs deyil?*
*Mən canını almağa gəlmişəm, nə sözün var?*
*Loğman dedi: Sözüm yox, aldığımı gəl apar.*
*Gəl canımı burda yox, o çəmənlikdə al sən.*
*Əzrail razılaşdı... Ayağa qalxdı Loğman*
*Yeridi, daş asıldı ancaq ayaqlarından,*
*Asta-asta yeriyib çatdı dediyi yerə.*
*Loğman baxdı göylərə, Loğman baxdı yerlərə.*
*Bu son baxışı ilə üstündə iki yüz il*
*Yaşadığı cahanla vidalaşdı elə bil...*
*Özü vidalaşsa da, gözü qaldı cahanda*
*O düşündü bu anda:*
*"Nə görmüşəm dünyada bu dünyaya gələndən*
*Ah... elə bilirəm ki, dünən doğulmuşam mən.*

*Ömrümü verdim bada, Nə görmüşəm dünyada".*
*Loğmanın gözü bu an bir gülə dəydi, durdu.*
*Ürəyini quş kimi gülə doğru uçurdu.*
*"Ah... onu kim üzəcək, bircə biləydim, - dedi, -*
*O gülü də iyləyib, sonra öləydim" - dedi.*
*Ancaq, ancaq nə fayda... Yetişmiş artıq əcəl,*
*Loğman dedi: Hazıram, al canımı indi gəl.*
*Əzrail dedi: - Ancaq agah elə məni sən,*
*Ölüm üçün nə fərqi bu çəmən, ya o çəmən?*
*Neçin məni qoymadın orda alım canını?*
*Loğman dedi: - Həyatın şirin olur hər anı*
*Ordan bura gəlincə bir az ömür qazandım,*
*Onu da bu dünyadan özümə fayda sandım.*
*Qoca öldü... Dedilər: - Yaranan bir gün ölər.*
*Nəvələri çəməndən həmin gülü üzdülər,*
*Loğmanın qəbri üstə qoydular, titrədi gül,*
*Gülün ətriylə doldu bütün çayır, bütün çöl.*
*O, ətriylə saxladı yolçuları yolundan,*
*Torpağın altındasa bunu duymadı Loğman.*

*Həyat, sən nə şirinsən, kim səndən doydu getdi?*
*Gedənlər öz qəlbini dünyada qoydu getdi...*
*Səndən doymaq olarmı, çoxun, azın da şirin.*
*Həyat, qışın da şirin, həyat, yazın da şirin!*
*Cürbəcür yazılar var ömrün varaqlarında...*
*Həyatımın qayğısız, fərəhli çağlarında*
*Qədrini bilməmişəm,*
*Hələ nə var ki... ömrüm qabaqdadır, - demişəm.*
*Otuzdan adlayınca, gündə otuz min kərə,*
*Başımı yellədirəm hərdən keçən illərə.*
*Səndən doymaq olarmı, həyat, sən nə şirinsən!*
*Ancaq hamının deyil,*
*sən həyatın qədrini*
*yalnız bilənlərinsən!"*

Bu misraları yazanda, bu ecazkar bədii lövhəni

yaradanda şair hələ gənc idi. Onun duyğuları xam köhlən kimi çöl-çəmən üstündə, sıralanmış dağlar belində şığıyırdı, xəyalları qanad açıb uçurdu. Və hələ ölümün bütün mahiyyətilə dərk olunmadığı bir gəncin mənəvi dünyasında hansı toqquşmalar baş verirmiş? Hansı duyğular qarşı-qarşıya gəlirmiş? Və nə vadar edirmiş ki, o, hələ özündən uzaqda olan ölümü bu qədər yaxında görürmüş? Bu romantik duyğuların real kökləri var imiş və bunu şair özünün sənətkar intiusiyası ilə çox gözəl duyurmuş. Yuxarıda artıq qeyd etdiyimizdən fərqli olaraq bir məqamı da diqqətə çəkmək yaxşı olar. Xalq əfsanəsindən götürülmüş Loğman obrazı nə qədər insan üçün yaşasa da, insandan ötrü çalışsa da öz həyatının şirinliyini də yaxşı dərk edir. Bu şirinlikdən keçmək istəmir. Həyat şirinliyinin dadı hələ onun varlığını tərk etməyib. Ancaq yaxşı ki, Loğman öz idrakının gücünə ölümlə vuruşa bilir. O, yaxşı dərk edir ki, aldığını qaytarmalıdır. Aldığı isə candır. Can müvəqqəti ömür deməkdir. Amma Loğmanın təəssüfünə yer qalmır. Çünki Loğman həyatını mənasız yaşamayıb.

B.Vahabzadə bu əsəri 1957-ci ilin noyabr ayında yazıb. Bu ay təbiətin xəzan ayıdır, təbiətin solğun dəmidir, yarpaqların saralan, təbiətin öz donunu dəyişən məqamıdır. Solub gedən o təbiət insanın varlığında, mənəviyyatında qəribə əks-səda verir. Sanki insan da ömrünü qurtarır. Ancaq təbiət yenidən öz donuna qayıdacaq. O, bunun üçün hələ qışdan keçməlidir. Onun ölüm ömrü başlayır. Və bu

ölüm ömrünün sonu, onun dirilik anıdır. Yenidən yaz gələcək, yenidən təbiət min naz ilə süslənəcək, yenə bülbüllər gül üçün nəğmələr oxuyacaq, yenə həyat özünün şirin nəfəsiylə bütün canlılara gəl-gəl deyəcək, o cümlədən, insana da.

Təbiətin dəyişməsi, fəsillərin bir-birini əvəz etməsi insana elə duyğular aşılayır ki, insana elə hisslər bəxş edir ki, bunun bircə adı var - İNAM. İnam Ümidin böyük qardaşıdır. İnsan inamın gücünə ümidlərinə qovuşa bilir. Əslində, insanı yaşadan bu duyğulardır.

"Həyat eşqi" əsərinin qəhrəmanı ağılın qəbul etməyəcəyi sonsuz zaman məsafəsini həmin inamın gücünə qət edir.

Nə yaxşı ki, "Həyat eşqi" əsərinin müəllifi özü də böyük inamın gücünə söykənib öz əslindən, soyundan qopan insanı yenidən öz kökünə qaytara bilir. Bu, müəllifin qənaətidir: insanın çıxış yolu insanlığı hifz etməsindədir, qorumasındadır, öz insanlığına, bəşərin yaratdığı mənəvi dünyaya sədaqətindədir.

## İNSAN
## YALQUZAQ DEYİL

"Həyat eşqi" əsəri ilə bağlı bütün düşüncələrimi sözə çevirə bildimmi? Məni duyğulandıran həyat epizodları gəlib sözdən keçdimi? Bax bu suala dəqiq və aydın cavab verə bilmərəm. Ancaq onu bilirəm ki, yenə nəsə demək istəyərdim. Yenə gələcək nəsillər üçün bu günün yaşanmış duyğularını sözə çevirmək istəyərdim. Ancaq o söz hansı sözdür və necə görünəcək? Göründüyü kimi duyulacaqmı, yaxud duyulduğu kimi görünəcəkmi?

Hərdən mənə elə gəlir ki, bütün sözlər qurtarıb və daha deyiləsi heç nə qalmayıb. Amma ən adi, hətta kiminsə əsəblərini titrədə bilən bir avtomobil siqnalı, yaxud bir körpə gülüşü könlümü oxşayan bir tə-

bəssüm - nə bilim, daha nələr, nələr... yatmış duyğularımı dilə gətirir. Elə bir qəribə oyanma baş verir ki, mən düşünürəm hələ deyilməmiş, hələ yazılmamış nə qədər mövzular var, nə qədər həyat lövhələri var ki, hər gün minlərlə insan onu yanından keçib gedir və onu görə bilmir. Halbuki bu lövhələr bizi - bütün insanları yaşamağa çağırardı, bizdə həyat sevgisi oyadardı. Xəyalları, fantaziyaları, ayağı yerdən üzülmüş düşüncələri qaytarıb həyata gətirərdi. Bizim yadımıza salardı ki, gücümüz ayağımızın yerdə olmasındadır. Bizim ən zəif yerimiz ayaqlarımızın altıdır. Bizim ölümümüz, məhvimiz ayağımızın altı ilə bağlıdır. Varlığımız, həyatımızın mənası insanların arasında olmağımızdadır. Bəlkə də, bu mənəvi ehtiyac qədim yunan mifologiyasında "Axilles" əfsanəsini yaratmışdır. Axillesin nə qədər ki, ayağı yerdədir, onun heç bir təhlükəsi yoxdur.

"Həyat düşüncələri" kimi qələmə alınan bu ədəbi essenin son sətirləri üçün "Gələcək nəsillərə məktub" adı ilə duyğularımı sözə çevirmək istəyirdim. Ancaq bəzən yazmaq istədiyin fikir sənin arzuladığın formaya tabe olmur. Və özünəməxsus bir yol seçir. Nə dəxli var? Qoy elə belə də olsun. Hər halda bizim bütün yaratdıqlarımız, yazdıqlarımız və yaşadığımız həyatın özü gələcək nəsillərə məktub deyilmi?!

Görünür, əsl həyat fəlsəfəsi elə budur. Alman yazıçısı, Nobel mükafatı laureatı **Herman Hessenin** "Yalquzağ"ı tənha hisslərin arxasınca öz təkliyinin

yolu ilə gedərək faciəsinin sonluğunu axtarır. Ölümünü arzulamaq yox, ölümünü görmək xoşbəxtliyi və bu xoşbəxtliyi arzulamaq özü bir xoşbəxtlik deyilmi? Təsadüfi deyil ki, XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərində Avropada həyat fəlsəfəsi çox geniş yayılmışdır. **Herman Hesse, Fridrix Nitsşe** bu fəlsəfənin ən görkəmli nümayəndələri idi. Hitler faşizmi öz ideolojisini yaradarkən Nitsşeyə daha çox əsaslanmışdı. Bu, o demək deyil ki, Nitsşenin fəlsəfəsi antiinsani idi. Həyat fəlsəfəsi nədir və bunu Avropada necə başa düşürdülər: *"Həyat fəlsəfəsi irrasionalizmin təzahür formalarından biridir. O, mədəniyyətin insan həyatında yerinə yetirdiyi funksiyalardan çıxış edərək gerçəkliyi dərk etməyə cəhd göstərir. Həmin fəlsəfənin ədəbiyyat və incəsənətlə sıx əlaqəsi də elə bundan yaranmışdır. Həyat fəlsəfəsi Avstriya şairi R.M.Rilkenin, onun həmyerlisi yazıçı Hofmanstalın, alman yazıçısı German Gessenin, bəstəkar Rihard Vaqnerin və başqalarının yaradıcılığına böyük təsir göstərmişdir. Görkəmli Fransız yazıçısı Marsel Prust da bu fəlsəfi cərəyanın təsiri altında olmuşdur.*

*Həyat fəlsəfəsi həyata bəraət qazandırılmasını arzulamış, onun mücərrəd, siyasi, iqtisadi və başqa utilitar (utilitarizm faydanı, mənfəəti əxlaqın əsası hesab edən fəlsəfi cərəyandır) yanaşmalarla sıxışdırılması və kasadlaşdırılmasının əleyhinə çıxırdı. Bununla əlaqədar olaraq, bu fəlsəfi cərəyanda "varlıq" anlayışı*

*"həyat" anlayışı ilə əvəz edilmişdir. Əslində, bu cərəyanın nümayəndələri "həyat"ı, "varlığ"a qarşı qoyurdular. Onlar deyirdilər ki, varlıq statik bir durumdur, həyat isə hərəkət, təşəkkül deməkdir. F.Nitsşe bildirirdi: "Varlıq yoxdur, yalnız təşəkkül var". Həyat fəlsəfəsi təşəkkülün təməli kimi sabit olan hər hansı bir şeyin götürülməsinin əleyhinə çıxış edir. Onun tərəfdarlarının fikrincə, təşəkkül ilkin təməl, ən son anlayışdır. Bununla yanaşı, fəlsəfənin bir sıra nümayəndələri həyatın həm də fəaliyyət, yaradıcılıq, insanın özünüifadəsi və bunların öz imkanlarını gerçəkləşdirmək və özünü dərk etmək imkanı verdiyini də vurğulayırdılar. Deməli, həyat həm də insan həyatı, həm də varlığın təməlidir. Hər bir fərd özünü həyatın hüdudları çərçivəsində, hansısa axınlara, həyat axınlarına tabe kimi hiss edir. Bu fəlsəfi cərəyanın tərəfdarları həyatı təsvir edərkən bir çox hallarda çay, atmosfer axınları və s, bu kimi obrazlardan da istifadə edirdilər. Onlar göstərirlər ki, axın şəklində olan həyat idrakın mücərrəd üsulları ilə açıqlana bilməz. Onun dərk edilməsi xüsusi idrakı qabiliyyətlər - həyəcan, başqasının dərdinə şərik olmaq, intiusiya, inam, məhəbbət və i.a. əsasında həyata keçirilməlidir"* **(Məmmədəli Zeynalov "Fəlsəfə tarixi", Bakı-2000. səh.496).** "Həyat eşqi" əsərinin qəhrəmanı sanki bu dəst-xəttin əleyhinə çıxır. Doğrudur, bütün əsər boyu onun hissləri, həyəcanları, həyati qabiliyyətləri, məhəbbəti, xatirələri, yaddaşı tamam yerli-yerindədir. Ancaq həyat üçün, canlı

varlıq üçün onun sinəsinin altında döyünən ürək heç nə vermir. O, bir çöpü çöp üstə qoymaq istəmir. Yalnız özünün canını daşıyaraq - yaşamaq, yaşamaq və yenə də yaşamaq hissi onu tərk etmir. Bir insan olaraq o, özünün varisini yaratmaq - istər cismani, istərsə də mənəvi - haqqında düşünmür. Öz həyat təcrübəsini, biliyini kiməsə vermək və yaşadığı dünyada nəsə bir iz qoymaq onu qətiyyən narahat eləmir. Nə fərqi var imiş, mağara sakinlərinin - "Əshabi-kəhf"in neçə yüz illik yuxusu ilə onun həyatının arasında bir fərq görünürmü?

Yeri gəlmişkən, bir uşaqlıq xatirəmi də danışmaqla gələcək nəsillərə ünvanlanmış sözümə həyat şirəsi qatmaq istəyərdim. Ömrünün 100-cü ilini adlamış, çox sağlam düşüncəsi olan **Pəri nənəm** az qala bütöv bir kənd olan nəvə-nəticələrinin və sonrakı nəslinin - övladlarının hamısının adını, yaşını, xasiyyətini deyər, onların gələcəyi haqqında fikir yürüdərdi. Və mən də bir dəfə ona dedim ki, inşallah, onların da həyatını görərsən.

- *Yox bala, istəmirəm. Həyatın dadı dəyişir, cavabını verdi.*

Bu həyatın dadını dəyişmək nədirsə, hər bir insanın özünün tale yüküdür. Demək, Pəri nənəm öz karvanından qalmaq istəmirdi. Onun həyatının mənası öz karvanı ilə bağlı idi.

**Ömər Xəyyamın** məşhur rübaisi yada düşür:

*"Könül, zəmanədən ehsan istəmə,*

*Dövran gərdişindən sahman istəmə!*
*Sən dərman axtarsan artacaq dərdin,*
*Döz acı dərdinə, dərman istəmə!..*

Əslində, insan öz ruhu, düşüncəsi ilə zəmanəyə dərman olmalıdır. Zəmanənin ağrıyan tərəflərinə məlhəm axtarmalı, zəmanənin qaranlıq tərəflərinə işıq salmalıdır.

"Həyat eşqi" əsərinin qəhrəmanı öz yuxularında əsl həyatın özünü yaşayır: *"Günlər gödəlmişdi. Qartal-insan yuvasında yuxuya gedən zaman xatirələr qoynunda ovunur, vurnuxur, uşaq vaxtı oynadığı həmyaşıdları, yaşca ondan böyük məhəllə uşaqları gözlərinin önünə gəlirdi. Oyun zamanı yerindən güllə kimi götürülüb qaçmağı vardı, kimsə onu qovanda ona çathaçatda sanki qanad taxar, göyə uçardı. Küçələrinin üstündən, evlərinin arxasındakı çayın yarğanlı, kollu-koslu kənarından usar və səmada xoşbəxt-xoşbəxt süzərdi.*

*Oyananda bunun yuxu olduğunu görüb dilxor olardı. Budur, o, qırx yaşında Yaradanın qüdrətilə həqiqətən uçur, ənginliklərdə süzür, insan həsrəti və nifrəti onun üçün biryolluq əlçatmaz olmuşdu"* **(Hüseynbala Mirələmov, "Həyat eşqi" Bakı-2005. səh.26).** Əsərin qəhrəmanının iç üzü budur. O, əslində yuxuda olanda öz faciəsini dərk edir, özünü nə qədər böyük bir bəlaya saldığını anlayır. Onun həyatının bütün mənası artıq əlçatmazlıqda qalmışdır. Amma ayılan kimi yaşamaq ehtirasının quluna çev-

rilir. Necə olursa-olsun, lap cansız daş olsun, ağac olsun, quş olsun - fərqi yoxdur, təki yaşasın. Onun bu bədbəxtliklərini, bu faciəsini göstərmək üçün müəllif heç bir əllaməlik göstərmir. Sanki heç bir fikir dərinliklərinə baş vurmur, sadəcə onun həyatını bir nağıl kimi danışır. Ancaq bu nağılın bütün motivləri cəlbedicidir, şirindir. Nağılı dinləyən Qartal ömrünün sonunu görmək istəyir. O, necə olacaq? Öz ovunun arxasınca şığıyanda, hansısa bir maneəyə dəyəndə məhv olacaq, şüurunu itirəcəkmi və yaxud son anda imkan tapıb Tanrıya üz tuta biləcəkmi? Yaxud da o şığıyıb təbiətin ondan gücsüz yaratdığı bir varlığı - canlını caynağına alıb parçalayanda, əyri qartal dimdiyi ilə bağrını sökəndə caynaqlarının arasında çabalayan dovşanın ağrılarını hiss edirmi? Axı o, adi qartal deyil. O, insan düşüncəsinə malikdir. Öz ovunu da sadəcə instinktlə parçalamır. Ona yem lazımdır. Və bu vaxt onun müdriklik iddiası ilə düşünən varlığı vicdan əzabı çəkmirmi? Əgər bu vicdan əzabı onu narahat eləmirsə, onda nə üçün insan düşüncəsində qalmaq istəyir? O, Tanrıdan yaddaşını almağı da xahiş edə bilərdi və yaddaşını itirsəydi qartal ömrü ilə öz ömrünü qurtarmış olardı.

Doğrudur, o, palıd olanda erkəkcik və dişicik toxumların tozlanması ilə yeni nəsil vermək iqtidarındadır. Ancaq bu da onun öz istəyincə deyil. Bu, artıq təbiətin öz işi kimi görünür. Təbiətin özünüqoruma nizamının nəticəsidir.

Qeyd etdim ki, əsər şirin bir nağıl kimi dinlənilir. Çox sadə bir dillə danışılır. Və bəlkə də əsərin oxunaqlı olmasının, axıracan dinlənilməsinin bir səbəbi də elə bu sadəliklə bağlıdır. Bədii əsərin sadəliyini **Belinski** belə qiymətləndirir: *"...Bədii əsər birdən-birə yox, tədriclə açılır: oxunduqca aydınlaşır və daha çox bədii zövq verir... Əsl bədii əsər öz həqiqəti, təbiiliyi, düzgünlüyü, doğruluğu ilə həmişə oxucunu o qədər heyrətləndirir ki, onu oxuyanda siz qeyri-şüuru, amma dərindən inanırsınız ki, onda nağıl olunan, yaxud göstərilən əhvalatların hamısı elə məhz o cür olub və başqa cür də heç ola bilməzdi... Sadəlik bədii əsərin vacib şərtidir... Sadəlik həqiqətin gözəlliyidir, - bədii əsərlərin gücü də bu sadəlikdədir...* **("A.Marlinskinin əsərləri külliyyatı haqqındakı məqalədən. 1840-cı il. (V.Belinski "Seçilmiş əsərləri. səh.226).**

Əlbəttə, mən o fikirdə deyiləm ki, "Həyat eşqi" əsəri qeyri-adi bir təfəkkürün bəhrəsidir. Xeyr, bu əsərin də özünəməxsus zəif tərəfləri var və qüsurlardan da xali deyil. Ancaq həyatın gözəlliyini, həyatın dəyərini sanki ezop dili ilə təqdim edir. Bu mənada əsərin məramı - yazıçının məramı son dərəcə alidir.

Həyatın özündə olmaq, həyatı göydən süzmək yox, həyatın ağrılarını yaşamaq, həyatın ağrılarından xali olmaq yox, bir sözlə, həyatı həyat kimi yaşamaq daha gözəldir.

Əgər həyatın gözəllikləri duyulmasaydı, həyatın gözəllikləri mənəvi zövq mənbəyi olmasaydı, onda

yaşamağın mənası olmazdı. "Həyat eşqi" əsəri bunu təlqin edir.

"Həyat eşqi" əsərində iki obraz tərəflərin tarazlığını təmin edir. Bu tərəflərdən birində Allah dayanırsa, digərində Həyatın özü dayanır. Allah və Həyat. Bütün yer və göy bu iki qütbün arasında nizamlanır. Ancaq Müdrik İnsan Allahı qeyri-adi varlıq kimi təsəvvür edir. Halbuki Müdrik İnsanın üzü dağlara doğru gedişilə daha yuxarılarda axtardığı Allah həyatın öz içindədir. Təsadüfi deyil ki, məşhur ərəb filosofu **Sufi ibn Əl Ərabi** *"Allahı gözəl qadın simasında görmək ən böyük mükəmməllikdir",* - deyirdi. Bu, həyatın mənbəyi ideyasıdır. Türk və Şərq mifologiyasında Humay ilahəsi bu gözəlliyin təcəssümüdür. Türk-Şərq təfəkküründə **Humay** Həyatdır, Allahdır və Gözəllikdir.

Gözəllik mahiyyətində Allah və Həyat birləşir və bir varlıqda görünür.

"Həyat eşqi" əsərinin qəhrəmanı qırx illik ömründə çoxlu biliklər qazanmışdır, insanların həyat yolunu öyrənmişdir. Ancaq o qənaətə gəlib çata bilməmişdir ki, onu arzularına qovuşduran Allah həyatın özündədir. Allah ona qeyri-adi güc bəxş edir. Ancaq onun özünün Allahdan kənar, həyatın özündə qazana biləcək idrakı vermir. Bu idraksızlığın nəticəsi olaraq o, daha da dönmək istəyir. Və bir daş olaraq təbiətin özündə yalnız yer tutmaqla ruhsuz olaraq yaşamağı üstün tutur. Bu, "Həyat eşqi" əsərinin

qəhrəmanı Müdrik İnsanın faciəsinin zirvəsidir. O, hələ öz bədbəxtliyindən xilas olmaq haqqında düşünmək iqtidarında deyil. Bunun üçün hələ daha min illər gözləməlidir. Əsl yaşamağın harda olduğunu tapana qədər gözləməlidir. Həyata qayıdıb həyat ömrünü yaşamaq və bu ömürdən doymazlıq haqqında düşünmək hələ ona yaddır.

**Şeyx Sədinin** qəhrəmanı isə belə düşünmür. Özü, doxsan il ömür sürmüş Şeyx Sədi yaratdığı "Büstan" və "Gülüstan"ı ilə insanlığın mənəvi dünyasına öz adıyla bağlı zinətlər vurmuşdur. Və təsadüfi deyil ki, bu əsərlər zaman-zaman oxunur və sevilir, həyat fəlsəfəsi kimi öyrənilir: *"Dəməşq məscidində bir neçə alimlə mübahisə edirdik. Bu zaman bir gənc məscidə girib soruşdu:*

*- Sizlərdən fars dilini bilən varmı?*

*Hamı məni göstərdi, mən ondan soruşdum:*

*- Nə sözün var?*

*Dedi: - Yüz əlli yaşında bir qoca can üstədir. O, fars dilində nə isə danışır, biz isə başa düşmürük, mərhəmət göstərib qocanın yanına getmək zəhmətini qəbul etsəniz savab olar, bəlkə, vəsiyyət edir.*

*Mən qocanın başı üstə çatan zaman o, bu şeiri oxuyurdu:*

*Bir zaman dedim ki, kama çataram,*
*Bilmədim bu arzu boş bir həvəsdir.*
*Təəssüf ki, ömrün boş süfrəsindən,*
*Bir tikə götürdük, dedilər bəsdi.*

*Beytin mənasını şamlılara ərəbcə dedim. Onlar qocanın ömrünün uzunluğuna, eləcə də, həyatın vafasızlığına etdiyi təəssüfə təəccübləndilər. Mən qocadan soruşdum:*

*- Özünü necə hiss edirsən?*

*Cavab verdi:*

*- Nə deyim?*

*Bilirsənmi, bir adamın çıxarsalar dişini,*
*Kefi necə pozular və halı olar pərişan?*
*İndi özün hesab elə necə olar əhvalı,*
*O kəsin ki, bədənindən çıxıb gedə əziz can?!*

*Dedim:*

*- Ölüm fikrini başından çıxart. Özünü qorxutma. Çünki yunan filosofları demişlər: Bədən nə qədər sağlam olsa, onun həmişə belə qalacağına ümid bəsləmək olmaz, xəstəlik nə qədər ağır olsa, onun həmişə ölümlə nəticələnəcəyinə hökm vermək yaramaz. Müalicə etdirmək istəyirsənsə, həkim çağıra bilərəm. Qoca üzünü çevirib güldü və dedi:*

*Bir təbib görsə ki, yamandır xəstə,*
*Əlini tez qoyar əlinin üstə.*
*Xacənin xəyalı, nəqşi-eyvandır,*
*Ev isə binadən belə virandır.*
*Qocanın işləri olarkən əngəl,*
*Sürtürdü arvadı hey ona səndəl.*
*Əhval ki, dolaşdı, pozuldu məzac,*
*Nə əfsun sağaldar, nə də ki, əlac"*

Şeyx Sədinin 150 yaşlı qocasının **(Sədi Şirazi "Se-**

**çilmiş əsərləri", Bakı-2004. səh.286)** yanından qayıdaq öz uşaqlığımıza və həm də o uşaqlığımızın yaddaşında qalmış oyunlarımıza. "Papaq aldıqaç", "Çiling-ağac", "Dirədöymə", "Ənzəli", bayramlarda bütün bunların hamısı uşaqlıq dünyamızda qalan yaddaş abidəsidir. Ancaq indi onların, o uşaq oyunlarının mənasızlığı haqqında danışmaq nə qədər gülünc səslənərdi. Uşaqlıq yaddaşı, uşaqlıq həyatı insan ömrünün sonrakı pillələrində həyat işartılarıdır, həyatın mənasına çevrilən ömrün işığıdır. Amma "Saqqallı uşağ"ın boş və mənasız əyləncələrlə vaxt keçirməsi Müdrik İnsanın yaşamaq oyununa bənzəmirmi? Bu yaşamaq oyunu nə qədər uzansa belə, mənasızdır. Nə yaxşı ki, "Həyat eşqi" əsərinin qəhrəmanı da bu yaşamaq oyunundan bezir, bu yaşamaq əyləncəsindən usanır və yenidən həyata qayıdır. Görülən iş, əməl, yaşanan həyat gələcək nəsillər üçün işıq mənbəyi olmalıdır. Gələcək nəsillərin yoluna düşəcək işıq mənbəyi.

# HƏYATIN VƏ SƏNƏTİN VƏHDƏTİ

Həyat düşüncələri və sənət düşüncələri...

Bəzən bunları bir-birindən ayırmaq çətin olur. Həyatın elə nadir görüntüləri, adamı heyrətə gətirən elə məqamları olur ki, dayanıb heyran-heyran fikir dünyasına qərq olursan. Yaşadığın ömrün oxşar anları gözlərinin qabağından keçir. Bəzən adama elə gəlir ki, ilk dəfə gördüyü şəxsi nə vaxtsa görüb və tanıyır. Hansısa bir hadisəni sanki bir dəfə başına gəlmiş kimi təsəvvür edir - eynilə, olduğu kimi. Bu anlar sənət görüntüləri deyilmi? Təbiətin və həyatın axarında yaranan sənət mənzərələri...

Sənətin də özünəməxsus fərqinin təsir gücü var. Sənətin təsir gücü o vaxt daha güclü olur ki, o, həyat-

dan, varlıqdan çox uca və ali olduğu qədər həm də həyata yaxın olur, həyata bənzərlik simptomları daşıyır, həyatilik kəsb edir. Sanki həyatın özüdür.

Bəs insan nə vaxt həyatdan ikrah edir, bezir, usanır. Bu suala artıq ayrı-ayrı məqamlarda cavablar vermişik. İndi ancaq bir məqama üstünlük verməklə düşüncələrimə aydınlıq gətirmək istərdim.

"Həyat eşqi" əsərinin qəhrəmanı Müdrik İnsanı təkcə yaşamaq həvəsidirmi cəmiyyətdən ayıran? Əgər əsərin özündən çıxış etsək onu əhatə edən mühitin onu sıxdığını görərik. İnsanların dargözlüyü, xəbisliyi hər addımbaşı bir-birini aldatmağa cəhdlər göstərmələri, mənim-sənin bölgüsünün ölməli-öldürməli zirvəsinə çatması onu bezdirir. Ümumiyyətlə, o, yaşamağı, həyatı bu cür görmək istəmir. Həyatı elə görmək istəyir ki, orda yaşayan varlığın, nəfəs alan varlığın biri digərinin həyatına müdaxilə etməsin. Amma o, bu qisməti təbiətin qoynuna gedib, təbiətin bir parçasına çevriləndə tapa bilirmi? Halbuki o, insanların arasında elə zümrə tapa bilərdi ki, onun duyğu və düşüncələri qanadlanar, insanların arasında yaşamaq üçün həyat eşqi coşub-çağlayardı.

İnsanlar tarixən bu problemdən yaxa qurtara bilməyiblər. İnsanlar cəmiyyət tərəfindən təcavüzə məruz qalanda və cəmiyyət gözəgörünməz sonsuz əllərilə hər tərəfdən - yuxarıdan-aşağıdan, sağdan-soldan, öndən və arxadan didib-parçalamağa cəhd edəndə təbiətə doğru getməyi üstün tutublar. Təbiət insanın sarsılmaz qalası rolunda görünür. Ancaq təbiət insa-

nı xilas edə bilibmi?

**Taras Şevçenkonun** "Kor qadın" əsərinin qəhrəmanı Oksananın taleyi, yaxud ondan dörd yüz il əvvəl təskinliyi heyvanlar arasında tapan, şirin xəyalları ilə təbiətin qoynunda öz əzablarını yaşayan Füzulinin Məcnunu mənəvi varislik baxımından bir-birilə bağlıdır. Yəni burda artıq konkret götürülmüş bir millətin, bir xalqın nümayəndəsindən söhbət getmir. Bu bəşəri məzmun daşıyan problemdir - ümumi insanlığın problemidir. Böyük sənətkarları düşündürən ən ümdə problem budur. Vaxtilə **Nizamini** də, *Füzulini* də və Ukraynanın böyük şairi - **Taras Şevçenko - Kobzarı** da insanın taleyi məhz bu mənada narahat etmiş, düşündürmüşdür.

Məsələyə füzulişünas alim, şair **Ayaz Vəfalının** gözü ilə baxaq: *"Mən bütün ruhum və canımla bu bədbəxt xalqın oğluyam..." - deyən Şevçenkonun mövqeyi aydın idi. O, xalqın ən müqəddəs keyfiyyətlərini sadə adamların - yoxsulların zəngin mənəvi dünyasında axtarıb tapır və kövrək bir ürəklə də tərənnüm edirdi. Mənəvi paklıq onun sadə qəhrəmanlarının yeganə sərvəti, varı-dövlətidir, həm də təsəllisidir. Ancaq neyləyəsən ki, panlar Ukraynasında bu yeganə təsəlliyə də qəsd olunur. "Şevçenko "Kor qadın" poemasında elə məhz həmin faciəni qələmə alır. Şairin bir sıra başqa əsərləri üçün də səciyyəvi olan bu mövzu təhqir edilən, alçaldılan xalqın dərdi idi. Kor qadının taleyi onun qızı Oksananı da izləyir: ilk və son təsəllisi - isməti təhqir olunur və bu dəhşətdən qızın başına hava gəlir.*

*"Havalı" Oksana birdən-birə tanınmaz olur; yerə, göyə, hətta Allahın özünə belə meydan oxuyur, Oksana ittiham edir. Qızın küfrləri ananı çaşdırır: Nə deyirsən, aman qızım? Dua elə, canım, gözüm!..*

*Dua nədir, Oksana intiqam tələb edir. Oksana haqsızlığı külə döndərmək ehtirası ilə od tutub yanır, doğrudan-doğruya alovlanır və əbədiyyətə qovuşur.*

*Maraqlıdır ki, son səhifələrdə Oksana Şərqin Məcnunu kimi danışır. Məşhur Kəbə ziyarətini xatırlayın. Füzulinin Məcnunu qəlbində eşq binasının "daim" və "qaim" olmasını Kəbədən sidq ilə iltimas edir:*

*Çoxdur bəni-adəm içrə bidad,*
*Et könlümü vəhşət ilə mötad!*
*Bir mülkdə ver mənə qərarı*
*Kim, yetməyə adəmi qibürı!*

*Deməli, insanlar arasında zülm çoxdur, könlümü vəhşilərə bağla, mənə elə yerdə qərar tutdur ki, ora insanın izi-tozu belə yetməsin... Zəmanə Oksananı da eyni nəticəyə gətirib çıxarmışdır. O, kimsəsiz anasına insanlardan uzağa - meşələrə getməyi, heyvanlara pənah aparmağı məsləhət görür:*

*Meşələrə gedək, ana!*
*Canavarlar sevər bizi;*
*İnsana yox, tək heyvana*
*Danışarıq dərdimizi!..*

*Bu yaxınlığın səbəbi məlumdur. Dövr, şərait və milliyyət müxtəlif olsa da, hər iki faciə qəhrəmanını bir ümumi cəhət yaxınlaşdırır: ədalətsiz cəmiyyətə güclü nifrət, azad məhəbbət arzusu!.. Heyvanlardan kömək*

*ummaq ümidi də bu duyğuların sarsıdıcı təsiri ilə yaranır və passiv şəkildə olsa da, cəmiyyətə etiraz kimi səslənirdi"* **("Ədəbiyyat qəzeti" N37, 15 sentyabr 2006-cı il).** İndi kim qəti hökm verə bilər: bu, həyat düşüncələridir, yoxsa sənət düşüncələri. Yaşadığımız həyatın gördüyümüz ağrı-acılarının ifadəsi sənət müstəvisində görünən həyatın özü. İnsanın yaradılışı, yoxsa yaranması - hansı düzgündür? Yaradılışda qeyri-təbiilik var, müdaxilə var, süni şəkildə köçürülmə var, Adəm Peyğəmbər var, Adəmin başını qatmaq üçün göndərilən Həvva var. Adəm darıxa bilərdi. Yaradana təbiilik var. Təbii axardan ayrılan qol var. Nəhəng insanlıq ağacı var. Bu ağacın boy artımı, budaqlanması, şaxələnməsi var. Yaradılışda sonluq var, istənilən vaxt qırılma var, əbədi təhlükə qorxusu var. Yaranışda əbədiyyət var. İnkarı inkarla tamamlanan davamlılıq var. Bu inam təlqinidir. İnsana həyatını qoruma hissi aşılayır. Kimsə bilmir ki, ömrü harda, necə tamamlanacaq.

Şərqin ən böyük müdriklərindən biri, islam fəlsəfəsinin banisi Həzrəti Məhəmməd deyərmiş ki, bu dünyanızdan elə yapışın, sanki onu heç vaxt tərk etməyəcəksiniz. O dünyanızı elə gözləyin ki, sanki elə bu dəm ora gedəcəksiniz. Bu, həyata sevgi düsturudur.

Yeri gəlmişkən, xalq müdrikliyində təzahür edən bir əhvalatı da yada salıram: "Babam Eyvat köç zamanı tayfanın uşaqlarını növbə ilə dəvəyə mindirərmiş və dəvənin belindəki uşağa deyərmiş ki, sən qabaqdakı təpədə düşəcəksən, yerini filan uşaq tutacaq.

Sonra növbəni də izah edərmiş, soruşanda ki, nə üçün belə deyirsən? Deyərmiş ki, dəvənin belindəki uşaq harda düşəcəyinin nigarançılığını çəkməsin. O biri uşaqlar da dəvəyə minəcəkləri növbəni düşünə-düşünə inamla yerisinlər". Mən bu sadə xalq müdrikliyində, sadə insan düşüncəsində həyatın axarını görürəm. Biz ümumi inamla gələcəyə gedən həyatın ümumi axarının sakinləriyik. İnsan həyatdan bezdiyi anlarda ağla qaranın yeri dəyişmiş olur, haqq və ədalət nizamı pozulmuş olur.

"Həyat eşqi" əsərinin qəhrəmanı Müdrik İnsanı yalnız yaşamaq həvəsi deyil insanlar arasından çıxaran. Cəmiyyətdəki ümumun fərdə qarşı biganəliyi vahid nizamın pozulduğu anların çoxluğu onu təngə gətirmiş, insanlar arasında yaşamaqdan imtina etməyə vadar olmuşdur. Deməк, çıxış yolu göylərdə deyil. Bunu artıq "Həyat eşqi" əsərinin qəhrəmanı öz taleyində dərk etmişdir. Çıxış yolu yenə insanlar arasındadır. İnsanlığa tapınmaqdadır. İnsanların tapınaq yeri Məbəd adlanır. İnsanlar yaratdıqları mənəvi sərvətlərlə belə bir məbədi artıq tikmişlər.

Bəli, bütün problemlərin həlli yolu insanın özündən başlayır. Bu, həyatı yaşamağın yoludur. Həyatı dərk etməyin yolu olduğu kimi.

**Son**

***30 iyun – 20 oktyabr 2006-cı il***



## Əli Rza XƏLƏFLİ

*(Əzizli Əlirza Zal oğlu)*

***(1953)***

***Şair, publisist, Azərbaycan Yazıçılar (2002) və Azərbaycan Jurnalistlər Birliyinin üzvü (1984), Qabaqcıl maarif xadimi (1980), Prezident təqaüdçüsü (2010). Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan dili və ədəbiyyatı fakültəsini (1971-1975) fərqlənmə diplomu ilə bitirmişdir. Əmək fəaliyyətinə Cəbrayıl rayonunun Şahvəlli, Tatar, Xələfli kənd orta məktəblərində müəllim kimi başlamışdır (1975-1980). "Xudafərin" - Cəbrayıl rayon qəzeti redaksiyasında xüsusi müxbir, şöbə müdiri vəzifələrində çalışmışdır (1980-1993).***

***Bədii yaradıcılığa tələbəlik illərindən başlamış, ilk şeirlərini və publisist yazılarını 80-ci illərdən çap etdirmişdir. Dövri mətbuatda külli miqdarda şeiri və ədəbi, elmi publisistik məqalələri dərc olunmuşdur. Kütləvi tirajla nəşr olunmuş "Həsrət körpüsü", "Araz ağrısı" şeirlər və poemalar, "Od" ( roman), "Üçüncü dünyanın qorxusu" (povest), "Meyar" (ədəbi publisistika) nəsr əsərləri, "Ölməzlik nəğməsi", "Həyatın dastanı" (ədəbi-fəlsəfi düşüncələr) və s. kitabları geniş oxucu rəğbəti qazanıb. Ümumiyyətlə, əlliyə qədər kitabın müəllifidir.***

***"Qızıl qələm" media mükafatına (2002), "Məmməd Araz" ali ədəbi mükafatına (2003), Azərbaycan Yazıçılar Birliyi Bədii Ədəbiyyatı Təbliğ Bürosunun "Qılınc və qələm" yaddaş mükafatına (2004), Beynəlxalq Rəsul Rza mükafatına (2008), Şahmar Əkbərzadə adına Beynəlxalq Ədəbiyyat mükafatına (2010) layiq görülmüşdür.***

## BAŞLIQLAR

Redaktordan:Yazıçı cəsarəti... *(Nizami Cəfərov)*..............3

### PORTRETDƏN CİZGİLƏR

Yazmağın əzabında ........................................................11

### ƏBƏDİ HƏYAT ARZUSU

Qəlbindəkini deməyən....................................................31
Sözə açılan yol.............................................................35
İlkinliyin çağırışı ..........................................................39
Tanrıya doğru... ucalığa ................................................45
Çevrilmə istəyi ..............................................................49
Tanrı və insan ...............................................................53
Uça bilsəm ....................................................................59
Həyata oxunan nəğmə ...................................................63
Susdunsa, düşün ...........................................................67
İdeal - həyatın mənası ...................................................73
Tanrı nəyi bilirdi? ..........................................................81
Tənhalığın əzabları ........................................................87
Birlikdə olsaydıq ...........................................................93
İnsandan insana ............................................................97
Ruhun ölməzliyi ..........................................................103
Yaddaş - İnsanın siması ...............................................107
Dünyaların ən gözəli ....................................................115
Tanrının yanında ..........................................................121
Təbiət insanın özüdür ...................................................125
Dilin gücü ....................................................................129
Böyüklüyün sərhədləri .................................................137
Həyat daha gözəldir .....................................................143
Ölüm qorxusu ..............................................................151
Olum, yoxsa ölüm ........................................................163
Ürək telləri ..................................................................175
İnsan yalquzaq deyil ....................................................187
Həyatın və sənətin vəhdəti ...........................................199

**Əli Rza XƏLƏFLİ**
**(Əzizli Əlirza Zal oğlu)**

# ƏBƏDİ HƏYAT ARZUSU

*(esse-monoqrafiya)*

Mətbəənin direktoru: ***Şəddat Cəfərov,***
***iqtisadiyyat üzrə***
***fəlsəfə doktoru***

Texniki redaktor : **Xaqani Kosayev**
Operator: **Həkət Muradova**
Korrektor: **Şəhla Hacıyeva**
Tərtibatçı: **Mülayim Vəliyeva**

Çapa imzalanmışdır 02.06.2014.
Kağız formatı 60x84 1/16.
Şərti çap vərəqi 13. Uçot nəşr vərəqi 13.0.
Tiraj 1000. Sifariş

Kitab "3 saylı Bakı Mətbəəsi" ASC-də hazır diapozitivlərdən ofset üsulu ilə çap olunmuşdur.
Ünvan: Bakı şəhəri, A.Məhərrəmov küçəsi 4.